# Xalq qəzeti

Xalqın qəzeti!

№ 144 (30548) 12 iyul 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**COP29 – qlobal iqlim təhlükəsizliyi platforması**




Səhifə ⇨ 8

# Azərbaycan – Pakistan əməkdaşlığı çoxşaxəli tərəfdaşlığa çevrilib

## Hərbi Hava Qüvvələrinin Nur Xan bazasında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Pakistan İslam Respublikasına dövlət səfərinə gəlib.**

Azərbaycan Prezidentinə xüsusi hörmət əlaməti olaraq dövlətimizin başçısının təyyarəsini Pakistanın hava məkanında bu ölkənin Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri qarşılayıb və enənədək müşayiət edib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı.

Prezident İlham Əliyevi Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif qarşıladı.

Sonra Azərbaycan Prezidenti və Pakistanın Baş naziri görüşdülər.






## Məhkumlar da səs verəcəklər



Səhifə ⇨ 6

## “Qara qızıl” ağ günlərimizə gur işıq saçır



Səhifə ⇨ 7

## Azərbaycan Hacı Əliyevdən də “Paris qızılı” gözləyir



Səhifə ⇨ 11

## Qaluzinin Ermənistana növbəti ismarıcları

### *Rusiya XİN rəhbəri müavininin xəbərdarlıq tonu*

**Ermənistanın NATO-nun Vaşinqtonda keçirilmiş 75 illik yubiley sammitində iştirakı Rusiyada etiraz doğurub. Rusiyanın Xarici işlər nazirinin müavini Mixail Qaluzinin “Ria Novosti”yə açıqlaması bunu deməyə əsas verir.**



Məlum olduğu kimi, Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov da həmin toplantıda iştirak etmişdi. Bəs görəsən nəyə görə Rusiya erməni XİN rəhbəri Ararat Mirzoyanın tədbirə qatılması üzərində dayanır? Səbəb çox sadədir – İrəvan Kremlin hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. O təşkilatın ki, hərbi təyinatlıdır və NATO ilə rəqabətdədir. Bu rəqabət isə bütövlükdə, ABŞ–Rusiya siyasi qarşıdurması xarakterinə malikdir.

Əlbəttə, Qaluzinin söylədiklərini haqlı saymaq mümkündür. İlk növbədə ona görə ki, Birləşmiş Ştatlar Cənubi Qafqaz regionunun timsalında Rusiya ilə rəqabət platformasını genişləndirməyə çalışır və mövcud xüsusda ölkənin söykənəcək yeri Ermənistandır. Tam aydındır ki, Vaşinqton İrəvanın Bakı ilə sülh gündəmini Moskvanın regiondan tamamilə sıxışdırılması motivlərinə kökləyib. Qaluzinin reaksiyasını doğuran ilk məqam məhz budur. Rusiya yaxşı bilir ki, Mirzoyanın NATO sammitində iştirakı Bayramovun iştirakı ilə eyni müstəvidə dəyərləndirilə bilməz. Birinci toplantıya ölkəsini Qərbə şirin satmaq naminə qatılıb, Azərbaycan isə özünün balanslı siyasət xəttinə sadiqdir və bunu beynəlxalq müstəvidə hər kəs tam aydın dərk edir.

M.Qaluzinin reaksiyasını doğuran ikinci məqam. Məlum olduğu kimi, Ermənistan üzvü olduğu KTMT ilə münasibətlərini gərginləşdirmək xətti götürüb. Bu xəttin icrasına 2022-ci ilin noyabrından başlanılıb. Həmin vaxt quruma rotasiya qaydasında sədrlik Ermənistanda idi. Ölkənin baş naziri Nikol Paşinyan bu imkandan KTMT-ni Azərbaycana qarşı qaldırmaq naminə bəhrələnmək istəmişdi. O, təşkilatın ölkəmizlə bağlı siyasi qərar çıxarmasına cəhd göstərmişdi. Çalışmışdı ki, KTMT Bakını işğalçı qiyafəsində tanısın. Lakin buna müvəffəq ola bilməmişdi.

Qeyd edək ki, 2024-cü il başlayandan Ermənistan – KTMT münasibətlərində gərginlik artıb. Daha doğrusu, tamamilə yeni, dinamik məcraya qədəm qoyub. Əgər əvvəllər rəsmi İrəvan qurumdan narazılığını ümumi şəkildə ifadə edirdisə, daha çox onun lazımsızlığı görüntüsünü formalaşdırırdısa, bu ildən konkret məsələlər üzərində dayanır. Məsələn, N.Paşinyan bildirir ki, Ermənistan KTMT-dəki fəaliyyətini dondurub. O, eyni zamanda, ölkəsinin təşkilatdan tamamilə ayrılacağına dair mesajlar səsləndirir. Üstəlik, erməni rəsmiləri qurumun toplantılarına qatılmırlar. Nikol durumun KTMT-nin Ermənistandakı məsuliyyət zonasını dəqiqləşdirməyənədək davam edəcəyini bildirir. Şübhəsiz, Qaluzin həm də bunu nəzərə alaraq İrəvanın NATO sammitində təmsilçiliyinə münasibət açıqlayır və deyir ki, Rusiya Ermənistanın qurumun ali səviyyəli toplantısında iştirakına görə təəssüflənir.

Onu da bildirək ki, zaman-zaman erməni rəsmiləri KTMT-nin Ermənistanın təhlükəsizlik tələbatlarını ödəyə bilmədiyinə dair təbliğat aparırdılar. Bu məsələdə Azərbaycanı ittiham obyektinə çevirirdilər. Belə nəticə hasil olurdu ki, KTMT ölkəmizin, guya, Ermənistana qarşı işğalçılıq niyyətinə susqun yanaşır. Bu isə ikincinin maraq və mənafelərini heçə saymaqdır. Ona görə də təhlükəsizlik məsələlərindən söz açan Qaluzin bildirir ki, İrəvan KTMT-nin üzvü olaraq qalır və hərbi-texniki sahədə çoxsaylı ikitərəfli sazişlərin iştirakçısıdır. Lakin Ermənistan hakimiyyəti bunu nəzərə almaq, konstruktiv yanaşma ortaya qoymaq yerinə, Rusiya XİN rəhbərinin müavininin təbirincə desək, başqa yolu seçir. Başqa yol nədir? Əlbəttə ki, NATO-ya inteqrasiya. Buna hətta NATO-ya qoşulmaq cəhdi də demək mümkündür. “Ermənistan NATO və ya alyansın ayrı-ayrı üzvləri ilə xüsusən NATO standartlarının tətbiqi, silahların alınması və ya birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi baxımından qarşılıqlı əlaqəni artırmağa üstünlük verir. Bütün bunlar həddindən artıq təəssüfdən başqa heç nəyə səbəb ola bilməz”, – deyən Qaluzinin İrəvanın Qərbyönümlü hərbi bloka yaxınlaşmaq istəklərini kinayəli qarşıladığı aşkar görünür.

Əlbəttə, M.Qaluzin ciddi mətləblərdən söz açır. O deyir ki, Ermənistanın məqsədi Rusiyanın strateji cəhətdən məğlubiyyətini arzulayan qüvvələrlə əməkdaşlığı dərinləşdirməkdir. Bu isə ölkənin “öz əlləri ilə Cənubi Qafqazda vəziyyəti ciddi şəkildə pozmaq, öz təhlükəsizliyinə zərər vurmaq riskini daşıyır”. Qaluzin, həmçinin, Ermənistandakı mütəxəssislərin və siyasətçilərin belə ehtiyatsız addımların hansı mümkün nəticələr doğuracağını, nələrə başa gələcəyini anladıqlarını dilə gətirib. Göründüyü kimi, Rusiya XİN rəhbərinin müavini, kifayət qədər, açıq mətnlə xəbərdarlıq edir.

Yeri gəlmişkən, M.Qaluzin əvvəllər də Rusiya və xüsusən KTMT ilə münasibətlərdəki destruktiv mövqe səbəbi ilə Ermənistana xəbərdarlıq tonuna üstünlük verirdi. İndi, o, xəbərdarlıq ritorikasının konkret tərəfləri üzərində dayanıb. Söhbət iqtisadi məsələlərin gündəmə gətirilməsindən gedir ki, 2024-cü il başlayandan mövcud məqamı digər Rusiya rəsmiləri də qabardıblar. Halbuki 2022-ci və 2023-cü illərdə bu tendensiya nəzərə çarpmırdı. Yəni, bir qayda olaraq, Ermənistan ittiham edir, Rusiya isə onun cavabını ümumi şəkildə verirdi. Görünür, rəsmi Moskva ümumi ifadələrlə kifayətlənməyin heç bir nəticə vermədiyi qənaətinə gəlib. Məhz buna görə də Qaluzin və başqaları durumu konkretləşdirirlər. Hərçənd, onların son sözlərini əvvəldə demək istəmədikləri göz önündədir.

Bəli, Rusiya – Ermənistan münasibətləri baxımından iqtisadi məsələləri gündəmə gətirməyin özü də Moskvanın son sözü deməsi deyil. Kreml, hələlik, xəbərdarlığı xatırlatmalar tonunda edir. Bu mənada Qaluzinin də bəzi fikirləri var. Məsələn, o, Ermənistanın Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqı müstəvisindəki öhdəliklərindən söz açır. Bu, adi məsələ sayıla bilməz. Çünki Hayastanın son illərdəki iqtisadi inkişafında sözügedən platforma mühüm mövqeyə malikdir. Üstəlik, İrəvan AİI-yə ən az xeyir verən üzvdür. Yəni, az xeyir verir, amma çox mənfəət əldə edir.

Digər yandan, nəzərə alaq ki, Ermənistanın NATO-ya can ataraq KTMT ilə münasibətlərini gərginləşdirmək xətti, istər-istəməz, onun AİI ilə də əlaqələrinə mənfi yöndə təsir göstərəcək. Axı ola bilməz ki, İrəvan Rusiyanın hakim rol oynadığı bir təşkilatla münasibətlərini pozsun, digəri ilə sabit saxlasın. Belə bir şey yoxdur və olmayacaq da. Ona görə Qaluzin eyni anda iki stulda oturmağın yolverilməzliyini vurğulayır.

***XQ-nin analitik qrupu***

# İslamabadda milli abidənin ziyarəti



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də İslamabadda milli abidəni ziyarət edib.**

Azərbaycanın və Pakistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı milli abidənin önünə əklil qoydu.

Sonra "Fatihə" surəsi oxundu.

Qeyd edək ki, Pakistan xalqının milli birliyini təcəssüm etdirən bu abidənin inşasına 2004-cü ildə başlanılıb. Zəngin Moğol memarlıq üslubunda yaradılan abidənin 2007-ci il martın 23-də açılışı olub.

# İlham Əliyevin Məhəmməd Şahbaz Şərif ilə məhdud tərkibdə görüşü



**İyulun 11-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə məhdud tərkibdə görüşü olub.**

# Azərbaycan–Pakistan sənədlərinin mübadiləsi mərasimi



**İyulun 11-də İslamabadda Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.**

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın Baş nazirinin müavini, xarici işlər naziri Mohammad İşaq Dar və Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında tranzit ticarət haqqında Saziş"i Pakistanın kommersiya naziri Cam Kamal Xan və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında preferensial ticarət Sazişi"ni Pakistanın kommersiya naziri Cam Kamal Xan və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Kommunikasiyalar və Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın kommunikasiyalar və özəlləşdirmə naziri Abdul Alim Xan və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nu Pakistanın hüquq və ədliyyə naziri Azam Nazir Tarar və Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın energetika naziri Musadik Masud Malik və Azərbaycanın energetika naziri Pərviz Şahbazov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli İrs və Mədəniyyət İdarəsi arasında 2024-2029-cu illər üzrə mədəni mübadilə Proqramı"nı Pakistanın milli irs və mədəniyyət naziri Ataullah Tarar və Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov mübadilə etdilər.

*(ardı 3-cü səhifədə)*

# Rəsmi qarşılanma mərasimi



**Pakistan İslam Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 11-də İslamabadda rəsmi qarşılanma mərasimi keçirilib.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Əvvəlcə rəsmi foto çəkdirildi.

Azərbaycan Respublikasının və Pakistan İslam Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Pakistan nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Baş nazir Məhəmməd Şahbaz Şərifə təqdim olundu.

# Geniş tərkibdə görüş



**İyulun 11-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü keçirilib.**

**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif görüşdə çıxış edərək dedi:**

– Mənim çox əziz qardaşım Prezident Əliyev və nümayəndə heyətinizin hörmətli üzvləri. İcazə verin, Sizi və nümayəndə heyətinizi Pakistan hökuməti və xalqı adından bir daha səmimi-qəlbdən salamlayım. Astanadakı görüşümüzdən sonra Sizinlə bir daha görüşməkdən böyük şərəf və iftixar hissi duyuruq.

Telefon söhbəti zamanı ölkəmizə səfərə dəvətimi qəbul etdiyinizə görə Sizə olduqca minnətdaram. Siz dəvəti qəbul edərək, tez bir zamanda səfərin tarixini müəyyənləşdirdiniz. Sizi əmin etmək istəyirəm ki, Pakistan xalqı Sizi televiziyada və sosial mediada gördüyü üçün bu gün çox məmnundur. Onlar bilirlər ki, mənim əziz qardaşım Prezident Əliyev Pakistanı və Pakistan xalqını güclü dəstəkləyən şəxsdir. Azərbaycan xalqı Pakistan xalqını sevir. Qarşılıqlı olaraq Pakistan xalqı da Azərbaycan xalqına çox minnətdardır və onu sevir. Bu, sanki bir qəlbdə döyünən iki ürəkdir. Bu dostluq, qardaşlıq yeni deyil. O, onillikləri əhatə edir. Pakistan həmişə hər məsələdə Azərbaycanın yanında olub və Azərbaycan da hər zaman bütün hallarda Pakistanın yanında olub. İstər söhbət BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində təsbit edilmiş hüquqları ilə bağlı Kəşmir əhalisinə dəstəkdən və əlbəttə ki, istərsə də bir çoxlarının dəstəklədiyi referendum keçirmək hüququndan getsin. Pakistan Qarabağ məsələsində həmişə Azərbaycanın mövqeyini dəstəkləmişdir və heç vaxt dəstəyini dayandırmamışdır. Hesab edirəm ki, bu, bizim dostluq və qardaşlıq münasibətlərimizin gücüdür. Bu gün Sizin səfəriniz vəziyyəti dəyişdirəcək, münasibətlərimizi transformasiya edəcək.

Bizdə imzalanmalı müvafiq anlaşma memorandumları və sazişlər var. Elə indicə Siz mənə İslamabadın gözəlləşdirilməsi ilə bağlı tövsiyənizi verdiniz. Bu, Sizin Pakistana olan maraq və sadiqliyinizi nümayiş etdirir. Təşəkkür edirəm. Biz əlimizdən gələni edəcəyik. Sizin mütəxəssisləriniz əllərindən gələni edəcəklər. Lakin hesab etmirəm ki, biz şəhərimizi Sizin müdrik rəhbərliyinizlə olduğu kimi Bakı qədər gözəl edə bilərik.

Zati-aliləri, düşünürəm ki, mümkün və mənfəətli olan sahələrdə əməkdaşlıq və birgə investisiyalar istiqamətində irəliləməyin vaxtı çatıb. Mənim komandam hazırdır. Neft naziri doktor Musadik Malik haradadır? Mən təfərrüatı ilə hazırlaşmaq, həmkarlarına ən mənfəətli və hər iki ölkəyə, xalqa dividendlər gətirən təkliflər irəli sürməsi üçün onunla iki görüş keçirdim. Bu kontekstdə mən bir qədər əvvəl Azərbaycandan bu sahələrə müəyyən investisiyalar yatırılmasını təklif etdim. Bir şərtlə ki, Siz və komandanız onları ilkin olaraq 2 milyard dollardan başlayaraq təsdiqləyəsiniz və sonra biz həqiqətən də irəli gedə bilək.

Bundan əlavə, əlbəttə ki, Pakistanın xeyrinə böyük lütfünüzə - düyü ixracına görə mən necə təşəkkür etməyə bilərəm. Heç bir gömrük rüsumu yoxdur, düyü ixracı rüsumdan tamamilə azad olunub. Azərbaycandan başqa heç bir ölkə bunu etməyib. Məhz buna görə biz bu unikal əlaqələrdən bu qədər məmnunuq.

Zati-aliləri, mən daha bir neçə məqamı qeyd edərdim, lakin indi sözü Sizə verirəm.

*

**Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi:**

– Əziz qardaşım Baş nazir. İlk növbədə, dəvətə görə təşəkkür edirəm. Yenidən qardaş ölkə Pakistanda olmağa və Sizinlə fəal dialoqumuzu davam etdirməyə çox şadam. Biz beynəlxalq tədbirlər çərçivəsində, həmçinin ötən ilin iyununda Sizin Azərbaycana rəsmi səfəriniz zamanı dəfələrlə görüşmüşük. Sizin doğru olaraq qeyd etdiyiniz kimi, biz bir aydan az vaxt bundan əvvəl bir-birimizi Qurban bayramı münasibətilə təbrik edərkən bu səfərlə bağlı razılığa gəldik. Komandalarımız görüşə hazırlıq üçün gərgin və fəal şəkildə çalışdılar. O, yaxşı təşkil olunub. Biz əməkdaşlığımızın bir çox sahələrini əhatə edən 15 sənəd imzalayacağıq. Lakin Siz tamamilə haqlısınız, tərəfdaşlığımızın təməlini bizim qardaşlığımız, Pakistan və Azərbaycan xalqlarının bir-birinə münasibətdə qardaşlıq hissləri təşkil edir. Biz həmişə çətin zamanlarda bir-birimizin yanında olmuşuq. Biz əlbəttə, xatırlayırıq ki, 2020-ci ildə Vətən müharibəsi zamanı Pakistan öz bəyanatları ilə Azərbaycana açıq şəkildə siyasi dəstək verən ölkələrdən biri idi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyini birmənalı şəkildə ifadə edirdi. Bizim Cəmmu və Kəşmirlə bağlı mövqeyimiz yaxşı məlumdur. Biz İslam Əməkdaşlıq Təşkilatının Təmas Qrupunun üzvləriyik. Biz Cəmmu və Kəşmir əhalisinin hüquqlarını qətiyyətlə dəstəkləyirik və əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini dəstəkləyirik. Beləliklə, haqq Sizin tərəfinizdədir, ədalət, beynəlxalq hüquq Sizin tərəfinizdədir. Azərbaycan öz mövqeyini birmənalı şəkildə ifadə edən və öz mövqeyini müdafiə edən ölkələrdən biridir. Biz ikitərəfli formatın geniş gündəliyini hazırladıq. Sahələrdən biri investisiya imkanlarıdır. Bu gün bir qədər əvvəl görüşümüz zamanı müzakirə etdiyimiz kimi, biz Pakistanda investisiya layihələri ilə bağlı praktiki təklif görmək istəyirik. Komandalarımız əlbəttə ki, bu gün bununla məşğul olacaqlar.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

**İyulun 11-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Pakistanın Baş naziri çıxış etdi.**



## Baş nazir Məhəmməd Şahbaz Şərifin bəyanatı

– Mənim əziz qardaşım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri, Pakistan nümayəndə heyətinin hörmətli üzvləri, xanımlar və cənablar. Əssalamu-aleykum.

Əziz qardaşım, Sizi Pakistanda salamlamaq məndə böyük məmnunluq və şərəf hissi oyadır. Siz öz dəyərli vaxtınızı sərf edərək qardaş ölkəyə səfər edirsiniz. Buraya eniş etdikdən bəri Pakistan xalqı Sizi televiziya ekranlarında və sosial mediada görməkdən çox məmnundur. Ona görə məmnundur ki, səmimi dost və həqiqi qardaş öz qardaş ölkəsini ziyarət edir. Cənab Prezident, 2023-cü ildə məni Azərbaycana dəvət etdiyiniz çox yaxşı xatirimdədir. Səxavətiniz və çox səmimi qonaqpərvərliyinizlə bağlı o xoş anları hələ də xatırlayıram. Nahar zamanı ləziz yeməyiniz hələ də xatirimdədir. Kaş onun dadına bir də baxa bilərdim. Lakin bunun üçün Sizin möhtəşəm ölkənizi yenə də ziyarət etməliyəm. İnşallah, noyabr ayında gələcəyəm.

Zati-aliləri, bu gün çox məhsuldar təkbətək görüşümüz və sonra geniş tərkibdə görüşümüz oldu. Bu müzakirələrin qarşılıqlı inam və etimad, hər iki ölkənin irəli getməli olduğuna və hələ də kiçik olan, təqribən yüz milyon dollardan az olan və dostluğumuzu, qardaşlığımızı əks etdirməyən ticarət, birgə investisiyalar, birgə əməkdaşlıq sahələrində, qarşılıqlı fayda verən sahələrdə daha yüksək nailiyyətlər qazanmalı olduğuna dair təcililik və sarsılmaz dəstək əsasında aparıldığından çox məmnunam. Əlbəttə ki, münasibətlərimiz onilliklər ərzində davam edir və hər iki ölkə arasında bayaq qeyd olunduğu kimi bu münasibətlər səmimi xarakter daşıyır. Biz fərqli dillərdə danışırıq, biz urdu dilində, siz Azərbaycan və ya türk dilində danışırsınız. Biz bir-birimizdən uzaqda yaşayırıq, lakin inanın mənə, bizim qəlblərimiz bir yerdə döyünür, fərqli dillərimizin olmasına baxmayaraq biz birlikdə danışırıq, biz bir yerdə düşünürük, biz ikitərəfli və çoxtərəfli münasibətlərimizə aid bütün məsələlərdə bir-birimizin yanındayıq.

Pakistan həmişə sizin Qarabağla bağlı mövqeyinizi dəstəkləmişdir və sizin Qələbəniz ədalətin hərtərəfli təntənəsinin nümunəsidir. Pakistan bu onilliklər ərzində həmişə sizin haqq işinizi dəstəkləyib. Eynilə mənim əziz qardaşım, Siz həmişə kəşmirlilərin haqq işini dəstəkləmisiniz. Mən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq öz müqəddəratını təyin etmək hüququna nail olmaq üçün yetmiş ildən artıq böyük qurbanlar vermiş milyonlarla insanı nəzərdə tuturam. Yaxın Şərqdə digər ölkələrlə yanaşı, Azərbaycan və Türkiyə Kəşmirin haqq işini dəstəkləyən dost və qardaş ölkələrdən olmuşdur. Mənim əziz qardaşım, böyük məmnunluqla böyük qardaşım Baş nazir Nəvaz Şərifin hakimiyyətdə olduğu dövrdə - 2017-ci ildə Pakistana səfərinizi xatırlayıram. Tarix yenidən təkrarlanır. Bu gün Siz Pakistanı ziyarət edirsiniz. Mən Nəvaz Şərifin kiçik qardaşı olaraq Pakistan hökuməti və xalqı adından Sizi qəbul edirəm.

Bugünkü ətraflı söhbət zamanı biz ikitərəfli ticarətimizi genişləndirməklə bağlı razılığa gəldik. Biz, həmçinin birgə əməkdaşlıq və birgə investisiya sahələrini müzakirə etdik. Qardaşım Prezident, icazənizlə deyim ki, biz qarşılıqlı mənfəətli layihələrə ilkin olaraq 2 milyard dollar dəyərində investisiyalarla bağlı müzakirə apardıq. Bu gün biz bununla bağlı ilkin müzakirələr apardıq. Sabah isə iki ölkənin nümayəndə heyətləri ilə rəsmi müzakirələr aparılacaq və sonra ümidvaram ki, mən noyabrda sizin möhtəşəm ölkənizə səfər edəndə, o vaxta qədər hər iki tərəf ilkin olaraq 2 milyard dollar dəyərində razılaşmaları imzalamağa hazır olacaq. İnşallah, bu göstəriciləri qarşıdakı illərdə milyardlarla dolları dək artırmaq üçün hər iki tərəfin böyük potensialı var. Əminəm, hər iki tərəf, xüsusilə Pakistan tərəfi qardaş ölkəmiz olan Azərbaycanın bu sürətinə çatmaq üçün gərgin işləyəcək ki, biz bu müzakirəni həqiqi fəaliyyətə çevirə bilək.

Əziz qardaşım, son olaraq Bakıda COP29-a ev sahibliyi etməyə hazırlaşdığınız bir vaxtda mən Sizə və hökumətinizə ən xoş arzularımı çatdırmaq istərdim. COP29 inkişaf etməkdə olan bütün ölkələr, o cümlədən Pakistan üçün mühüm beynəlxalq tədbir olacaq. Biz əminik ki, Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə, İnşallah, COP29 Pakistan kimi inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi məsələləri ilə bağlı nəticələrə nail olacaq.

Əziz qardaşım, Pakistana səfərinizə görə Sizə bir daha minnətdarlığımı bildirmək və təkrarlamaq istərdim ki, Zati-alinizin səfəri qardaşlıq əlaqələrimizdə həlledici məqam olacaq. Bu səfər, həqiqətən də iki ölkə arasında yüksək səviyyəli əməkdaşlığın tamamilə yeni dövrünü açacaq. Mən qeyd etmək istərdim ki, bir qədər əvvəl sizin burada əyləşən ekspertlərinizdən biri tərəfindən hazırlanmış İslamabadın abadlaşdırılması planı təqdim olundu. Üzünüzü göstərmək istərdinizmi? O, özünün abadlaşdırma planını təqdim etdi. Biz bu cür planları bəzən İstanbuldan nümunə götürürdük, indi isə Bakıdan nümunə götürürük. Onun komandası bu yaxınlarda İslamabada səfər edəcək. Daxili işlər naziri də buradadır. Heyətin rəhbəri bu fürsətdən istifadə edib İslamabadı Bakıya oxşadacaq. Bu, İnşallah, sizə məşhurluq gətirəcək. Mən bir daha Sizə təşəkkürümü bildirmək və fikirlərinizi ifadə etmək üçün söz vermək istərdim. Təşəkkür edirəm.

*

Sonra dövlətimizin başçısı bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli Baş nazir, əziz qardaşım. İlk növbədə, dəvətə görə bir daha minnətdaram. Sizin gözəl ölkənizdə yenidən səfərdə olmaq böyük şərəfdir. Biz görüşəndə əziz qardaşımdan xahiş etdiyim ilk məsələlərdən biri salamlarımı və hörmətimi mənim çox hörmət etdiyim və 7 il əvvəl burada - bu binada görüşdüyüm qardaşım, Baş nazir Nəvaz Şərifə çatdırmaq oldu. İndi isə mən böyük qardaşımıza hörmətimi kameralar qarşısında ifadə etmək istəyirəm. Mənim Pakistana 7 ildən sonra qardaşımın qardaşı Baş nazir olduğu zaman səfər etməyim rəmzi məna kəsb edir.

Bizim qardaşlığımız xalqlarımızın əsrlərlə bundan əvvələ təsadüf edən, bir-birinə olan dərin hisslərinə əsaslanır. Azərbaycana gələn pakistanlıların sayı son illər ərzində daha da artıb və biz Bakı-İslamabad, Bakı-Kəraçi, Bakı-Lahor arasında birbaşa uçuşları artıq müzakirə etdik. Bir sözlə, Pakistandan gələn insanlar İçərişəhəri ziyarət edəndə və Karvansaranı görəndə onu "Multan" adlandırırlar. Beləliklə, onlar bizim əsrlər boyu bir-birimizə necə bağlı olduğumuzu anlayırlar. Həqiqətən, bu bağlantı böyük sərvətdir.

Bu gün Pakistan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri həmin bünövrəyə əsaslanır. Biz qardaşıq və dostuq. Biz hər işdə, istənilən beynəlxalq təsisat daxilində, hər beynəlxalq məsələdə bir-birimizi dəstəkləyirik. Məsələn, irəli sürdüyümüz təşəbbüsdə qardaşlarımız bizi dəstəkləyir və eyni dəstək qarşılıqlı olur. Cəmmu və Kəşmir məsələsində bizim birmənalı dəstəyimiz qardaşlığımıza, eləcə də beynəlxalq hüquqa olan sadiqliyimizdir. Kəşmirlilərin hüquqları onilliklər boyu diqqətdən kənarda qalmış, pozulmuşdur. BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələnin necə həll olunmasını aydın şəkildə təsvir edir. Lakin, əfsuslar olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yoxdur. Ancaq qardaş və dost kimi biz Sizinlə, Kəşmirdəki qardaşlarımızla hər zaman yan-yana olacağıq, beynəlxalq hüququn və ədalətin tərəfində dayanacağıq. Mən əminəm ki, ədalət zəfər çalacaq.

Biz, bütün Azərbaycan xalqı yaxşı bilir ki, işğal dövründə Pakistan hər zaman yanımızda olan bir sıra ölkələrdən biri olmuşdur. İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi zamanı siyasi dəstək və Azərbaycanın haqlı mövqeyini dəstəkləyən Pakistanın yüksəkrütbəli rəsmilərinin birmənalı bəyanatları bizə əlavə güc-qüvvət verdi. Pakistan məhz işğala görə Ermənistanla diplomatik münasibətləri qurmayan ölkədir. 2020-ci ilin noyabrında Qələbəmizi qeyd etdiyimiz zaman xalqımızın əllərində Azərbaycan, Pakistan və Türkiyənin bayraqları var idi. Bu, bizim münasibətlərimizi unikal edir. Bu gün praktiki layihələrlə bağlı bu münasibətləri hiss etmək üçün müzakirə etdiklərimiz bu bünövrəyə əsaslanır.

Biz Nazirlər Kabinetinin üzvlərinə bütün lazımi təlimatları vermişik. Onlar artıq təmas qurublar. Sabah səhər əziz qardaşımla növbəti görüşdən öncə onlar layihələri nəzərdən keçirmək və təhlil etmək məqsədilə yenidən görüşəcəklər. Yatıracağımız sərmayələrin ilkin həcmi, əziz qardaşımın qeyd etdiyi kimi, təxminən iki milyard dollardır. Biz energetika, infrastruktur, daşımalar və bir sıra digər sahələrdə, o cümlədən çox uğurla əməkdaşlıq etdiyimiz müdafiə sənayesində bir sıra layihələri artıq nəzərdən keçirdik. Beləliklə, biz güclü tərəfdaşlığı nəinki siyasi səviyyədə, o cümlədən iqtisadiyyat, ticarət və sərmayələr sahələrində də quracağıq. Baxın, bu gün nə qədər sənəd imzalandı. Biz həmin sənədlərin mübadiləsinin şahidi olduq. Onları mübadilə etmək çox vaxt apardı və təsəvvür edin ki, onların hazırlanması nə qədər vaxt tələb edib. Bu əsasla biz qarşılıqlı ticarətin həcmini birmənalı olaraq artıracağıq. Onlardan birini mən xüsusilə qeyd etmək istərdim. Bu, güzəştli ticarətlə bağlı sənəddir. Biz ilkin mərhələdə güzəştli ticarət formatına aid 9 maddəni müəyyən etdik. Lakin bu, yalnız başlanğıcdır. Əlbəttə ki, həmin şəxsin üzərinə böyük məsuliyyət düşür. Qardaşım ondan ayağa qalxmağı xahiş etdi ki, İslamabadda hər kəs onu tanısın. Bu abadlıq işlərində iştirak etmək böyük məsuliyyət və şərəfdir. Buyurun, əyləşin. Sizə deyə bilərəm ki, mən artıq qardaşımın xahişi ilə onu və onun heyətini ezam etdim və onlar müəyyən vaxt ərzində burada olublar. Onlar hörmətli Baş nazirə təqdim etdiyimiz layihənin ilk variantını hazırlayıblar. Onlar baxacaqlar, nəzərdən keçirəcəklər və əgər layihə təsdiqlənərsə, o, öz heyəti ilə dərhal buraya gələcək və gözəl şəhəri daha da gözəlləşdirmək üçün hər şeyi edəcəklər.

Qardaşlığa görə sağ olun, qardaşım. Dəstəyinizə görə sağ olun. Bir il öncə - iyun ayında Azərbaycana etdiyiniz səfər, deyərdim ki, bir növ sıçrayış oldu. Biz hər zaman bir-birimizi dəstəkləmişik. Biz hər zaman əməkdaşlıq etmişik. Lakin hazırda biz ticarət, sərmayələr, sənaye, energetika, daşımalar, nəqliyyat dəhlizləri kimi sahələrin praktiki elementlərinə qədəm qoyuruq. Bütün bunlar bizim planlarımızdır və bütün planlarımız icra olunacaq.

Dəvətə, qonaqpərvərliyə görə bir daha minnətdaram və qardaş Pakistan xalqına ən xoş arzularımı çatdırıram.



# Ali qonağın şərəfinə nahar

**İyulun 11-də İslamabadda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.**

***AZƏRTAC***

# Azərbaycan-Pakistan sənədlərinin mübadiləsi mərasimi

**(əvvəli 2-ci səhifədə)**

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Pakistanın informasiya texnologiyaları və telekommunikasiya naziri xanım Şaza Fatima Xavaca və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Pakistan İslam Respublikasının "Pakistan Televiziya Korporasiyası" MMC arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nu "Pakistan Televiziya Korporasiyası" MMC-nin sədri xanım Şahera Şahid və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş"i Pakistanın Elm və Texnologiya Nazirliyinin katibi Ali Tahir və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Pakistanın Əyalətlərarası Əlaqələndirmə Nazirliyinin katibi Nadim İrşad Kayani və Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Pakistanın Aviasiya Nazirliyinin katibi Saif Ancum və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mübadilə etdilər.

"Bakı şəhəri (Azərbaycan Respublikası) ilə İslamabad şəhəri (Pakistan İslam Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Anlaşma Memorandumu"nu İslamabad Paytaxt Korporasiyasının rəhbəri Muhammad Ali Randhava və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Pakistan İslam Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsi arasında Anlaşma Memorandumu"nu Pakistanın Kiçik və Orta Sahibkarlığın İnkişafı İdarəsinin baş icraçı direktoru Sokrat Aman Rana və Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mübadilə etdilər.

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında Anlaşma Memorandumu"nu Pakistanın Ədəbiyyat Akademiyasının sədri xanım Naciba Arif və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov mübadilə etdilər.

# Monqolustanın Prezidenti Zati-aliləri cənab Uxnaaqiyn Xurelsuxa

**Hörmətli cənab Prezident!**

Monqolustanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Monqolustan arasında münasibətlərin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# Hikmət Hacıyev paylaşım edib

**"Pakistanın hava məkanına daxil olarkən Pakistan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələri Azərbaycanın bir nömrəli heyətini salamlayır və müşayiət edir!".**

Bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasında paylaşımında qeyd edib.



# Milli Məclisin Sədri BRICS ölkələrinin Parlament Forumunda

**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində işğüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova BRICS ölkələrinin X Parlament Forumunun plenar iclasında iştirak edib.**

Forumda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin parlament platformasında əməkdaşlığın əhəmiyyəti, BRICS-ə üzv ölkələr arasında əməkdaşlıq məsələləri barədə fikirlərini bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova məclisdə çıxış edərək Parlament Forumunun dialoq və əməkdaşlıq üçün mühüm platforma olduğunu söyləyib. Spiker qeyd edib ki, beynəlxalq qaydalara əməl edilməməsi, ikili standartların və selektiv yanaşmanın nümayişi, bəzi dövlətlərin maraqlarının üstünlük təşkil etməsi dünyanı parçalamış və beynəlxalq dincliyi pozmuşdur. Parlament təşkilatları Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının timsalında müəyyən qrupların maraqlarının oyun meydanına, təzyiq və ikili standart alətinə çevrilməməlidir.

Azərbaycan parlamentinin rəhbəri daha sonra bildirib ki, Fransa Cənubi Qafqazı qarşıdurma və özünün neokolonial təcrübəli meydanına çevirməyə çalışır. Bu ölkə müxtəlif bəhanələrlə regional dinamikaya müdaxilə etməyə çalışır.



Spiker Bakıda keçiriləcək COP29 haqqnda məlumat verib, Milli Məclisin Parlamentlərarası İtifaqla birlikdə bu mövzuba içlas keçirəcəyini bildirib.

Plenar sessiyada Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson Azərbaycanla rəhbərlik etdiyi təşkilat arasında əməkdaşlıqdan məmnunluğunu bildirib. O, ölkəmizin Qoşulamama Hərəkatı Parlament Şəbəkəsinə uğurlu sədrliyini təqdir edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Blinkenin üçtərəfli görüş açıqlaması

**ABŞ dövlət katibi Antoni Blinken bu gün Vaşinqtonda keçirilən NATO sammiti çərçivəsində Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla görüşüb.**

Bu barədə ABŞ Dövlət Departamentinin yaydığı məlumatda deyilir. Bildirilir ki, görüşdə dövlət katibi dayanıqlı və layiqli sülh sazişi istiqamətində əldə olunmuş irəliləyiş barədə müzakirə aparıb və tərəfləri mümkün qədər tez bir zamanda razılaşdırmanı yekunlaşdırmaq üçün gələcək addımları atmağa həvəsləndirib. Dövlət katibi bütün Cənubi Qafqaz regionunun fayda əldə edəcəyi regional bağlantının inkişafında sülhün əldə olunmasının vacibliyini qeyd edib.

***XQ***

**Yaranmış vəziyyətin paradoksallığı ondadır ki, istər Avropa İttifaqı (Aİ)–ABŞ tandeminin, istərsə də ona opponentlik edən Rusiyanın Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması, sülhün əldə olunması prosesinə yanaşmada tərəf olmaları heç kəsdə şübhə doğurmur. Məhz bu durum sözügedən dövlət və təsisatların Bakı ilə İrəvan arasındakı dialoqa tərəfsiz və ədalətli mövqe sərgilədiklərinə ciddi şübhələr yaradır.**

# Sülh “davası”

## “Böyük güclər”in gizli mübarizəsində özəl maraqlar

Qafqazın ən uzunömürlü münaqişəsinin, nəhayət, sülhlə yekunlaşması üçün kənar aktorların göstərdikləri bütün səy və cəhdlərin mahiyyətinə diqqət yetirdikdə aydın olur ki, onların əsl məqsədləri tərəflərin tezliklə sülh sazişini imzalaması deyil, həmin mərasimdən sonra bölgədə baş verəcək geosiyasi, iqtisadi-loqistik fəaliyyətin hansı məcrada gedəcəyinə təsir göstərməkdir. Axı, sülh təkcə Ermənistan və Azərbaycan arasında ikitərəfli münasibətlərin nizamlanmasının deyil, həm də regionda bütün kommunikasiyaların açılmasının, transmilli layihələrə start verilməsinin açarıdır.

Bəli, “böyük güclər”in Cənubi Qafqazda maraqlarının toqquşması Bakı və İrəvanın imzalayacağı sülhlə birbaşa bağlıdır. Kənar vasitəçilərin bugünədək sərgilədiyi mövqe və yanaşmaları bunu deməyə tam əsas verir. ABŞ və Avropa İttifaqının Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə bağlı bugünədək sərgilədikləri davranışlar Vaşinqton və Brüsselin əsl niyyətlərinin heç də sülh prosesinə töhfə vermək olmadığını söyləməyə əsas verir. Bu kənar aktorların başlıca məqsədləri ən müxtəlif bəhanələrlə Cənubi Qafqaza müdaxilə üçün mexanizmlər formalaşdırmaqdır. Onlar buna nail olmaq üçün əllərinə düşən istənilən fürsətdən yararlanmaq yolunu tutublar. Ağ ev belə fürsəti NATO-nun 75 illiyi ilə bağlı düzənlədiyi sammitdə əldən vermədi.

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– İstər Qərb dövlətləri, istərsə də Rusiya həmişə ermənipərəst siyasət aparıblar. Ermənilər otuz ildən çox torpaqlarımızı işğal altında saxlayanda məhz onlara arxayın idilər. Sülhə vasitəçi dövlətlər olaraq deyirdilər ki, danışın, müəyyən razılığa gəlin. Narahatlıqlarını heç bildirmirdilər. İndi isə Ermənistanı qorumaq, mütləq sülhə nail olmaqdan ötrü dəridən-qabıqdan çıxırlar. Amma onların bu fəallığı, xüsusilə də Amerikanın, heç bir nəticə vermir. Bizə görüşməyi təklif edirlər, bəs sonra? Sonra heç nə! Nə ABŞ-nin vasitəçiliyi qəbul olunur, nə də onun diktəsilə hansısa sənəd imzalanıb.

Antoni Blinken Vaşinqtonda ermənilərə nümayiş etdirir ki, guya, onlar üçün çalışır. Əlbəttə, hazırda seçkiqabağı mərhələdə Ağ ev üçün ermənilərin səsi vacibdir. Amma onlar prosesə ciddi təsir göstərmək iqtidarında deyillər. Sadəcə, Dövlət katibinin təklifi ilə Vaşinqtonda bir görüş keçirildi və bunun sülh prosesinə hər hansı müsbət təsiri yoxdur.

Azərbaycan sülh dialoqunda heç bir vasitəçiyə lüzum görmədiyini dəfələrlə bəyan edib. Danışıqlar öz məcrasında davam edir və Bakı tələm-tələsik hansısa sənədin imzalanmasına zərurət görmür. Bəli, bizim Ermənistana qarşı müəyyən tələblərimiz var. İrəvan “papağ”ını qabağına qoyub düşünsün. Azərbaycan danışıqlarda tutduğu siyasətini bundan sonra da davam etdirəcək. Bölgədə, qonşu dövlətlərlə münasibətləri yaxşılaşdıraraq mövqeyimizi möhkəmləndiririk. ABŞ-dən, Qərb dövlətlərindən savayı da güc sahibləri mövcuddur.

### Millerin şablon açıqlaması

Xəbər verdiyimiz kimi, iyulun 10-da Vaşinqtonda ABŞ Dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında NATO-nun 75 illiyinə həsr olunmuş Zirvə görüşü çərçivəsində görüş keçirilib. Tərəflər Azərbaycan və Ermənistanın sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında tarixi sazişin yekunlaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi vurğulayaraq, bu istiqamətdə işi davam etdirməyə razılaşıblar. Hər iki tərəf görüşə ev sahibliyi etdiyinə görə Dövlət katibinə minnətdarlıqlarını bildiriblər.



Görüş başa çatar-çatmaz Vaşinqtondan nikbin notlara köklənmiş açıqlamalar verilməyə başlandı. “ABŞ Dövlət katibi Antoni Blinken Vaşinqtonda NATO Sammiti çərçivəsində keçirilən görüşdə Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramovla İrəvan və Bakı arasında davamlı və layiqli sülh müqaviləsi istiqamətində əldə olunan irəliləyişi müzakirə edib”. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller üçtərəfli görüşünün yekunlarına dair bəyanatında bildirib.

Departament rəsmisi onu da qeyd edib ki, görüşdə regional əlaqələrin inkişafında sülhün vacibliyi vurğulanıb: “Dövlət katibi sazişi mümkün qədər tez imzalamaq üçün tərəfləri əlavə addımlar atmağa çağırıb. O, həmçinin bütün Cənubi Qafqaz regionuna fayda verəcək regional əlaqələrin təşviqində sülhün vacibliyini vurğulayıb”.

Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda deyilir ki, Vaşinqtonda keçirilən görüşdən sonra Azərbaycan və Ermənistan sülh istiqamətində işi davam etdirmək barədə razılığa gəliblər: “Tərəflər Ermənistan və Azərbaycanın tarixi sülh müqaviləsinin bağlanması və dövlətlərarası münasibətlərin qurulması istiqamətində əldə etdiyi irəliləyişləri qeyd edib, həmçinin işi davam etdirmək barədə razılığa gəliblər. Hər iki tərəf görüşün keçirilməsinə görə Dövlət katibinə təşəkkür edib”. Vaşinqton görüşünə Birləşmiş Millətlər Təşkilatının (BMT) reaksiyası da özünü çox gözlətmədi. BMT Baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik münasibətlərin normallaşması prosesinin səmərəli olacağına və bütün regiona müsbət təsir edəcəyinə ümid etdiyini bildirib: “Biz, həqiqətən, ümid edirik ki, münasibətlərin normallaşması prosesi öz bəhrəsini verəcək. İnanıram ki, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və bir sıra ikitərəfli məsələlərin həlli təkcə bu ölkələrə deyil, bütövlükdə regiona son dərəcə müsbət təsir göstərəcək”.

### Səmərəli danışıqlar?

“Mən bu gün Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla iki ölkə arasında tezliklə sülh sazişinin imzalanmasına ABŞ-nin güclü dəstəyini ifadə etmək üçün səmərəli söhbət etdim”. Bunu ABŞ Dövlət katibi Entoni Blinken özünün “X” mikrobloqunda yazıb.

Qeyd edək ki, iyulun 10-da Vaşinqtonda ABŞ Dövlət katibinin iştirakı ilə Ermənistan, Azərbaycan xarici işlər nazirləri arasında keçirilən üçtərəfli görüşdən sonra Blinken İrəvan və Bakının yekun sülh sazişinin bağlanmasına çox yaxın olduğunu bildirib. Amma ortada diqqəti cəlb edən bir məqam var. Əgər bu görüş, A.Blinkenin dediyi kimi, doğrudan da, səmərəli alınıbsa, bəs nəyə görə növbəti görüşün nə vaxt və harada keçiriləcəyi barədə bir kəlmə deyilmədi?

“Ermənistanın Azərbaycanla sülh müqaviləsi bağlamaq üçün siyasi iradəsi var”. Bu barədə hayların xarici işlər naziri Ararat Mirzoyan özünün “X” mikrobloqunda yazıb. “Mən bu gün Vaşinqtonda üçtərəfli görüş keçirdiyinə görə ABŞ Dövlət katibi Blinkenə təşəkkürümü bildirdim. Qeyd edildiyi kimi, Ermənistanın Cənubi Qafqazda davamlı sülh və sabitliyin bərqərar olmasına yönəlmiş sülh müqaviləsi üzrə işi tamamlamaq və onu tezliklə imzalamaq üçün siyasi iradəsi var”, – Mirzoyan qeyd edib.

İlk baxışda Vaşinqton görüşündən hamı məmnun qalıb. Sanki, təkcə iki tərəfin deyil, bütün bölgənin çoxdan gözlədiyi sülhə əlimizi uzatsaq çatar. Amma 10 iyul görüşündə, nədənsə, Ermənistan konstitusiyasında və digər normativ hüquqi aktlarda yer alan ərazi iddialarının sülhə başlıca əngəl olduğu dilə gətirilmədi. Bunun Bakı üçün “qırmızı xətt” olmasına, dəyişiklik baş verməyincə sülhün mümkünsüzlüyü mövzusuna toxunulmadı.

### Dalan

Rəsmi İrəvan Azərbaycanın sülh danışıqlarında konstitusiyasında dəyişikliklə bağlı tələbini qəbul etməyəcəyini rəsmi şəkildə bildirib. Baş nazir Nikol Paşinyan konstitusiyaya dəyişikliyin 2026-cı ilin dekabrına qədər tamamlanması barədə tapşırıq verib. Yəni, onun sözündən belə çıxır ki, o vaxtadək Ermənistan bu tələbi yerinə yetirmək niyyətində deyil. Bakı isə bu şərtin yerinə yetirilməsini, ərazi iddialarının aradan qaldırılmasını istəyir. Belə məlum olur ki, sülh sazişi ilə bağlı hər hansı sənədin – niyyət protokolu, çərçivə sazişinin imzalanması iki ildən sonra mümkün olacaq. Bakı bu tələbi yerinə yetirilməyincə hər hansı sənədin imzalanmayacağını açıq mətnlə bildirib. Elə danışıqları dalana dirəyən də Ermənistan hakimiyyətinin bu məsələdə yersiz tərslik göstərməsidir. Həmin kollektiv Qərb Ermənistan qanunvericiliyində Azərbaycana qarşı yer alan ərazi iddialarını başqa formada “malalamaq” taktikasını işə salıb. Yəni, imzalanacaq sənədə “Ermənistan konstitusiyasında və normativ hüquqi aktlarında ərazi iddialarının sıradan çıxarılması təmin edilsin” kimi bir müddəa əlavə edilə bilər. Guya, bu halda tərəflər sülh sazişinin çərçivə sənədini imzalaya bilərlər. İntəhası, bu variantın reallaşması da ciddi sual işarəsi altındadır. İrəvanın danışıqlarda Bakının haqlı tələbinin qarşısını almaq, “balans yaratmaq” üçün əl atdığı sonuncu üsul eyni tələblə Azərbaycana qarşı çıxması oldu. Onun Azərbaycan Konstitusiyasında və normativ hüquqi aktlarındakı bəzi məqamlarla bağlı iddiaları, sözsüz ki, əsassız və absurd yanaşmadır. Hüquqi baxımdan yeganə düzgün yol Ermənistanın üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsidir. Bunu Prezident İlham Əliyev Suşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammitində dilə gətirib. Dövlət başçımızın bu mövqeyi vəziyyətdən alternativ çıxış yollarının olmadığına dəlalət edir.

### Ananyanın cavabını hay verdi

Xarici işlər nazirlərinin Vaşinqton görüşü erməni siyasi ekspertləri, blogerlər tərəfindən müzakirə və mübahisə mövzusuna çevrilib. Misal üçün, bloger Robert Ananyan nazirlərin görüşünü şərh edərkən vurğunu Vaşinqtonun “Azərbaycanın destruktiv davranışını dayandıra və onu Ermənistanla sülh sazişi imzalamağa məcbur edə biləcəyinə ümidləri” üzərinə yönəldir. O, iddia edir ki, İrəvan bir ay ərzində sülh sazişini imzalamağa hazır olduğunu bildirsə də, Azərbaycan bunu mümkünsüz etmək üçün süni tələblər uydurur. Guya, Bakı İrəvandan konstitusiyanı dəyişdirməsini tələb etməməlidir. Çünki sazişin mətnində razılaşdırılmış bənd var ki, tərəflər öhdəlikləri yerinə yetirməmək üçün daxili qanunvericiliyə istinad edə bilməzlər. “Görünən odur ki, Azərbaycan müqavilənin imzalanmasına mane olmaqla Rusiyanın maraqlarına xidmət edir. Əgər sülh olarsa Rusiyanın Cənubi Qafqazda təsiri azalacaq, ondan yan keçən, Mərkəzi Asiyanı Avropa ilə birləşdirəcək marşrut yaradılacaq. Moskva bundan təcrid olmamaq üçün Bakı vasitəsilə sazişin imzalanmasını ləngidir”, – yazan bloger, ən azı, son otuz ildə Rusiyanın Qafqazda kimə “daydayılıq” etdiyini deməyi “unudur”. Onun siyasi məntiqə və reallığa söykənməyən mülahizəsinə görə, sülh sazişi imzalandıqdan sonra Türkiyə Ermənistanla sərhədi açacaq ki, bu da Rusiyanın maraqlarına ziddir: “Çünki Ermənistan sonradan Rusiya sərhədçilərinin Ermənistan–Türkiyə sərhədindən çıxarılmasını tələb edəcək. Rusiyanın münaqişənin sona çatmasına imkan verməməsinin digər səbəbi də budur”.

Ananyanın paylaşımına verilən şərhlərdən biri diqqətimizi cəlb etdiyinə görə onu olduğu kimi, oxucuların diqqətinə çatdırırıq: “Problem ondadır ki, Azərbaycan özünü müstəqil partiya kimi aparır. Ermənistan isə real dəstəyi olmadan bu cür davrana bilməz. Türkiyə, ən azı, Azərbaycanı dəstəkləyir. Bəs Ermənistanın müttəfiqi kimdir?”.

Bu məqamda, ingilislər demiş, “no comment”. Yəni, bizim əvəzimizə Ananyanın cavabını verən həmin erməni sosial şəbəkə istifadəçisi problemin Azərbaycanda deyil, hamı tərəfindən aldadılmış və meydanda tək qalmış, özünü dalana dirəmiş Ermənistanın özündə axtarmaqda tam haqlıdır.

Göründüyü kimi, bir tərəfdən sülh dialoquna dəstəyini bəyan edən, digər tərəfdən isə bölgədə yeni müharibənin körüklənməsi üçün Ermənistanı birbaşa və ya Hindistan kimi ölkələr vasitəsilə silahlandıran dövlətlərin sülhlə bağlı özəl yanaşmaları var. Hazırda onların “sülh davası”nın mahiyyətində işğala, hərbi cinayətlərə, Azərbaycana vurduğu yüz milyardlarla dollarlıq ziyana görə cavab verməli olan Ermənistanın mükafatlandırılması dayanır. Sözsüz ki, Bakı buna heç bir halda yol verməyəcək.

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri**

– Etiraf etmək lazımdır ki, Avropa İttifaqı ilə ABŞ-nin sülh vasitəçiliyi müəyyən mərhələdə müsbət nəticələr vermişdi. Amma hazırda onlar sülhə gəlməyi tələsdirirlər. Azərbaycan beynəlxalq hüquqa, mövcud norma və qaydalara uyğun öz hədəflərinə nail olmadan sülh sazişini imzalamayacaq. Buraya ölkələrin qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması kimi prinsip daxildir. Sülh prosesinin sonunda hansısa sənədin imzalanması formal xarakter daşımamalıdır. Real və konkret addımlar atılmalıdır. O cümlədən, Ermənistan öz konstitusiyasını dəyişməlidir. Təəssüflər olsun ki, bu məsələ İrəvan tərəfindən müəyyən çətinliklərlə müşayiət olunur. Buna baxmayaraq, yenə görürük ki, ABŞ və Avropa İttifaqı məsələnin tezliklə həll olunmasına çalışırlar. Doğrudur, onlar da Ermənistan konstitusiyasında problemin olduğunu etiraf edirlər. Fəqət bu problemin dolayı yollarla həllinə cəhd göstərirlər.

Aydın məsələdir ki, Qərb platformasında bu cür görüşlər Rusiyada qısqanclıq hissləri yaradır. Ümumiyyətlə, sülh prosesi, regiondakı real vəziyyət Rusiyaya qarşı təzyiq vasitəsinə çevrilməməlidir. Ona görə ki, əks-təqdirdə Moskva buna qarşı çıxır. Bu yöndə hər hansı addımı atmaqdan ötrü Rusiyanın əlində yetərli sayda vasitələr var. Təcrübə onu göstərir və Bakı da bu variantın üzərində dayanıb ki, sülh danışıqları vasitəçisiz davam etdirilməlidir. Amma xarici işlər nazirlərinin Vaşinqton görüşünü bir fürsət kimi də dəyərləndirmək olar.

Bir daha deyirəm, sülh sazişi formal xarakter daşımamalı, proses konkret addımlarla davam etdirilməlidir.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ermənistan baş naziri Nikol Paşinyan artıq neçənci dəfədir eyni mövzu ilə bağlı diskussiya açır. Söhbət hökumət rəhbərinin ölkənin tarixi, dövlətçilik strukturu və sair məsələlərlə bağlı səsləndirdiklərindən gedir. Nikol indi konkret nələri dilə gətirib? Söhbətimiz bu barədədir.**

# Paşinyanın “tarix və dövlətçilik” mühazirəsi

## Xəstə düşüncəli erməni cəmiyyəti bu gerçəyi dərk edə bilmir

Ancaq əvvəlcə onu bildirək ki, Paşinyanın dedikləri həmişə olduğu kimi, yenə erməni cəmiyyətində kəskin reaksiya doğurub. Hay başbilənlər adətləri üzrə onu “satqın” adlandırırlar. Halbuki baş nazirin həqiqətləri gündəmə gətirdiyi aşkardır. O həqiqətlər ki, onlar xəstə erməni cəmiyyəti tərəfindən dərk edilmir. Niyə dərk edilmir, yazımızın son bölümündə bu məqama da aydınlıq gətirəcəyik.

Bəli, N.Paşinyan bildirir ki, “Ermənistan tarixi” dövlətin yoxluğu epizodları ilə dövlətin mövcudluğunun inkişaf tarixidir, “Erməni tarixi” isə dövlətin mövcudluq epizodları ilə onun yoxluğunun tarixidir. O, hökumətin dünənki iclasında çıxış edərkən, məhz bu iki anlayışı təqdim edib. Nikolun həmin anlayışlar haqqında söz açmaqda başlıca məqsədi var. Baş nazir dövlətin uzunömürlülük strategiyasının vacibliyini əsaslandırmağa girişir. Yəni, dolayısı ilə “Erməni tarixi” deyil, “Ermənistan tarixi” anlayışının dövlətçilik baxımından əhəmiyyəti üzərində dayanır.

Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Paşinyan, əslində, üç məqamı vurğulayır. Birincisi, keçmiş SSRİ-nin süqutundan sonra formalaşmış Ermənistan müstəqil dövlət kimi mövcud olmayıb. İkincisi, tarix boyu erməni dövləti adı ilə sırınanlar mifdir. Üçüncüsü və ən əsası bundan sonra Ermənistan dövlətini qurmaq və inkişaf etdirmək lazımdır ki, Nikol mövcud məsələdə erməni cəmiyyətinin onu dəstəklədiyini diqqətə çatdırır. Ancaq maraqlıdır: əgər Paşinyanın mövqeyi dəstəklənirsə, niyə tərəfdarları deyil, əleyhidarları, onun söylədiklərini, ən yaxşı halda məsxərə predmetinə çevirənlər ortaya düşüblər? Nə üçün birincilərin səsi ikincilərdən zəif eşidilir?

Paşinyan bildirir ki, özünün rəhbərlik etdiyi komanda dövlətçiliyi, müstəqilliyi və suverenliyi strategiyanın və siyasətin əsası sayır. “Çünki dövlət tamam başqa düşüncə tərzidir, tamam başqa mədəniyyətdir, tam başqa nöqteyi-nəzərdir. Bu təfəkkür isə heç də həmişə mövcud olmayıb və bunu etiraf etməliyik”, – deyən Nikol fikirlərində haqlıdır. Nəzərə alaq ki, daim şovinist baxışlarla “silahlanmış” erməni cəmiyyəti gerçəyi deyil, ayrı-ayrı əsatirləri özünün həyat və yaşam kredosu elan edib. Bu, reallıq hissinin itirlməsini doğuran pataloji xəstəliyə çevrilib.

İşğalçılıq niyyəti, qonşulara qarşı ərazi iddiası erməni pataloji xəstəliyinin bariz göstəriciləridir. Müasir Ermənistan dövləti adlı quruluş şovinizmə söykənmiş işğalçılıq motivləri ilə ayaqda qalıb. Bu motiv saxta olduğundan, nə zamansa quruluşun məhvini doğurmalı idi. Hazırda erməni cəmiyyətində yaşananlar isə məhv perspektivinin simptomlarıdır. Görünür, belə qorxunc aqibəti ən yaxşı görən N. Paşinyandır. Bu səbəbdən köhnə stereotiplərdən uzaqlaşmanın vacibliyini vurğulayır.

Əvvəldə sonda vurğulayacağımızı bildirdiyimiz məqama keçid alaq. Paşinyan indi söylədiklərini lap başlanğıcda dilə gətirsə, fayda görərdi. Yəni hakimiyyətə gələndə bu barədə söz açmalı, cəmiyyəti inandırmalı idi. Ancaq, o, nə etdi? Özünü xəstə təfəkkürlülərdən daha xəstə imiş kimi göstərdi. Bu adam müasir Ermənistan dövlətinin Qarabağ avantürası üzərində qurulduğunun fərqinə varmadı. Onu da düşünmədi ki, dövləti qorumaq üçün həmin avantüranı sıradan çıxarmaq tələb olunur. Düşünmədi və “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirdi.



Bəli, Paşinyan hakimiyyət kürsüsündə tipik erməni xislətinin diktə etdiyi tərzdə davrandı və hesab etdi ki, inqilabçı-demokrat obrazı Qarabağ avantürasının reallaşma təminatıdır. Nəticədə 44 günlük müharibə baş verdi və Ermənistan acınacaqlı məğlubiyyətlə üzləşdi, Qarabağın düzləri, dağları, təpələri erməni gəncləri üçün məzar yerinə çevrildi. Və indi həmin Paşinyan filosofluğa baş vurur. Sual olunur: filosofluq üçün mütləq “dəmir yumruq”mu dadılmalı idi?

N.Paşinyan məhz “dəmir yumruğ”u daddığı üçün dedikləri eşidilmir, məsxərə predmetinə çevrilir. Məsələn, dövlət millətinə çevrilməkdən danışır, ona qarşı çıxanlar bildirirlər ki, Nikolun həyata keçirmək istədikləri Azərbaycanın Ermənistan qarşısında qoyduğu şərtlərdir. Mövcud durumda Nikol, həqiqətən, ciddi çətinlik içərisindədir. Necə deyərlər, yuxarı baxırsan bığ, aşağı baxırsan saqqal. Axı Paşinyanın komandasında təmsil olunan şəxslərin “yeni ərazilər üçün yeni müharibə” şüarını eşitmiş xəstə təfəkkürlü erməni cəmiyyəti baş nazirin “dövlət ictimai həyatın mərkəzində dayanmalıdır” fikrini necə anlasın? Yaxud Nikol dövlətlə qeyri-dövlət arasındakı hansısa çatlardan söz açır. Axı, vaxtilə səsləndirdiyi populist fikirlərin nəticəsi idi ki, həmin çatlar dərinləşdi. Ən əsası isə Paşinyan və tərəfdarları indi də fikirlərində səmimi deyillər. Onlar fəaliyyətlərində erməni avantürizminin ayrı-ayrı elementlərini saxlayırlar. Belə bir vəziyyətdə revanşist və şovinistlər necə düşünsünlər ki, baş nazirin dilə gətirdikləri faydalıdır? Axı onlar iqtidarın qeyri-səmimiliyə əsaslanmış yarıtmaz kursunu görüblər. Bu kurs lazımi nəticəni verməyəndə, ambisioz ideyalarən gerçəkləşməsinə köklənməyəndə danışmayıb, nə etsinlər?..

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Azərbaycanın yeni sınağı: informasiya müharibəsinin “iç cəbhəsi”

**IV MƏQALƏ**

**Bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Azərbaycan sinerjisi və dünya düzəni

Doğrudan da, Azərbaycanda aparılan informasiya savaşının “iç cəbhəsi”nə Azərbaycan dövlətçilik və liderlik sinerjisinin mahiyyəti işığında baxanda çox məqamları görmək mümkündür. Bu prizmada aydın olur ki, indi bizə dost olmaq istəməyən bir sıra dairələr məhz Azərbaycan sinerjisinin konstruktiv təbiətindən və birləşdirici mahiyyətindən ehtiyat edirlər. Onlar bu məsələyə artıq yeni dünya düzəni və yeni qlobal təhlükəsizlik sisteminin arxitekturası kontekstində qiymət verirlər. Şişirtməsiz belədir.

Çünki vətəndaşı olduğumuz müstəqil dövlət qlobal miqyasda dəyərləndirilir. Bundan, əlbəttə, qürur duymalıyıq. Eyni zamanda məsələnin bu dərəcədə aktuallaşması və qloballaşması böyük məsuliyyəti də dərk etməyimizi tələb edir. İndi oyunlar elə səviyyədə və ritmdə aparılır ki, bütün cəmiyyət həssas məkana çevrilmişdir. Buna görə də regional və multiregional miqyaslarda uğurlu olmaq üçün Azərbaycanda güclü cəmiyyət qurmaq gərəkdir. Azərbaycan cəmiyyəti



güclü olmasa, heç bir siyasi məharət problemi tam həll edə bilməz. İnformasiya müharibəsinin bu cür sərt və güzəştsiz şərtləri aspektində “güclü cəmiyyət nədir?” sualına cavab axtarışı xeyli aktuallaşır.

## Güclü cəmiyyətin informasiya təminatı

Biz “güclü cəmiyyət” anlayışının fəlsəfi və ya siyasi-nəzəri tərifini vermək niyyətindən uzağıq. Çünki bu elmi problem çoxaspektlidir, xüsusi araşdırmalar tələb edir. Lakin indi Azərbaycana qarşı aparılan informasiya savaşının iç cəbhəsi aspektində güclü cəmiyyətin bir sıra xüsusiyyətləri üzərində dayanmaq faydalı olardı.

Güclü cəmiyyət başqa toplumlara və qövmlərə yuxarıdan aşağı baxan kollektiv deyildir. Cəmiyyətin informasiyaya qarşı dayanıqlılıq kontekstində gücü istənilən kritik situasiyada birliyini saxlaya və eyni zamanda, yaranmış vəziyyətdən kreativ (yaradıcı və innovativ) nəticələr çıxara bilməsidir. Yəni burada cəmiyyətin həm özünə empatiyası (özünü daxilən dərk edə bilməsi, özünün “adekvat surətini çıxara bilməsi səviyyəsi”), həm də ətraf mühitlə münasibətlərini milli maraqlara uyğun qura bilməsi önəm kəsb edir. Bu zaman, güclü cəmiyyət müstəqil qərarlar qəbul etmək iqtidarında olmalıdır. Bu şərt önəmlidir, çünki toplum müstəqil qərara gələ bilmirsə, onun azadlığından danışmağın anlamı qalmır. Azad olmayan toplum isə heç bir halda öz taleyinə sahib çıxa bilmir – kənardan asılılıq həyat tərzinə çevrilir.

## Liderə qarşı qaydasız müharibə

Vurğuladığımız bağlılıqda cəmiyyətin gücünün təməlində kollektiv birliyin təməl təminedici faktoru olan Lider – Xalq birliyinin dayandığını demək mümkündür. Məsələ ondan ibarətdir ki, müasir araşdırmaçıların yekdil mövqeyinə görə, artıq dünya miqyasında əsas faktorlar kollektivlərdir – cəmiyyətlər, dövlətlər qrupu, regionlar, multiregional sibyektlər, müxtəlif siyasi, hərbi, iqtisadi, hüquqi birliklər (və ya təşkilatlar) və s. Bu özəlliyin müstəqil dövlət aspektində birbaşa təzahürü cəmiyyətin birliyidir ki, onun da təminində lider-toplum münasibətlərinin xarakteri və məzmunu dayanır. İndi ləyaqətli lideri olmadan heç bir müstəqil dövlətin və ya cəmiyyətin uğur qazanması mümkün deyildir! Bu, politoloji və fəlsəfi aksiomdur! Həmin səbəbdən, ləyaqəti, fəallığı müstəqil siyasətdə ifadə olunan hər bir dövlətə və ölkəyə qarşı informasiya savaşının mahiyyəti onun ldierini legitimsizləşdirməkdən ibarətdir.

Liderin legitimsizləşdirilməsi birbaşa və açıq proses kimi aparılmır. Cəmiyyətin müxtəlif kəsimlərində zahirən neytral görünən elə proseslərə təkan verirlər ki, əsas hədəfin lider olduğunu yalnız yekunda anlayırsan. Bunun üçün bir neçə istiqamətdə həmlələr müşahidə edilir.

Birincisi, liderin şəxsi kimliyi haqqında yalan informasiyalar yayırlar. Bu zaman cəmiyyətin tarixi təkamül özəlliyindən asılı olaraq Liderin etnik kimliyini təhrif edirlər. Adətən, həmin etnik kimlik məsələsi cəmiyyətin titul millətinin kimliyinin ziddinə olur. Təcrübə bunun bir qayda olduğunu göstərir. Məsələn, Azərbaycanda müasir mərhələdə liderlərin etnik kimliyi haqqında mütəmadi olaraq düzgün olmayan informasiyalar yaymışlar.

XX əsrin son onilliyi və XXI əsrin ilk üç onilliklərində Azərbaycanda aparılan informasiya savaşının əsas elementlərindən biri bundan ibarətdir. Bu zaman əsasən üç faktordan istifadə edirlər – məsələn, filan Azərbaycan lideri türk deyil, ya farsdır, ya kürddür və hətta erməni əsillidir. Guya illər öncə Azərbaycana ermənilər Azərbaycan soyadları ilə gəlmişlər və indi bizimlə öz dilimizdə danışanlar əslində ermənidirlər. Bu primitiv priyom olsa da, təhlükəlidir. Çünki onu azərbaycanlı şüuru qəbul etsə, hər kəs hər kəsdən şübhələnməlidir. Şüuraltında belə psixoloji sindrom yaranır ki, səninlə öz dilində danışan belə ermənidir! Bu üsulu bir sıra hallarda regional faktora da tətbiq etməyə çalışırlar.

Reallıq necədir? Azərbaycanda heç zaman hansısa etnik mənsubluq mənfi qiymətləndirilməmişdir və bu, böyük üstünlükdür. Azərbaycanda fars, kürd və ya hətta erməni olmaq qüsur deyildir, əksinə, zənginlikdir. Azərbaycanlı psixologiyasında bu, bir qaydadır, normadır. Lakin lider səviyyəsində bu məsələni alovlandırmaqda xüsusi məqsəd informasiya savaşının iç cəbhəsində Azərbaycan vətəndaşlarının arasına nifaq salmaq, onların bir-birinə inamsızlığına nail olmaq və nəticədə toplumu psixoloji olaraq parçalamaqdan ibarətdir. Məsələ uğurlu liderə bağlandıqda isə həssaslıq daha da artır. Bir sıra sadəlövh insanlar özlərindən və liderlərindən şübhə edirlər və çox təhlükəli “bu lider bizdən deyil” kimi sindroma tutulurlar. Bu, baş versə, bütövlükdə cəmiyyət və dövlət ciddi risk qarşısında qalmış olur!

XX əsrin 90-cı illərinin əvvəllərində müəyyən dairələrdə xüsusi ideoloji doktrinalar hazırlandı. Həmin doktrinaların əsas məqsədi fərqli düşünən dövlətlərdə, ölkələrdə və cəmiyyətlərdə pozucu, dağıdıcı, aşağılayıcı xarakterli informasiya müharibəsi aparmaqdan ibarət idi. Bu sırada keçmiş sovet respublikalarına qarşı fəaliyyət ayrıca yer tuturdu. Həmin mərhələdə Azərbaycanda baş verən proseslərin mahiyyətinə bu prizmadan baxanda müəyyən əlamətləri ayıra bilərik.

Öncə, ulu öndər Heydər Əliyev haqqında doğru olmayan informasiyalar yaymağa başladılar. Heydər Əliyevi bütün cidd-cəhdlə antimilli düşərgəyə aid olan “KQB generalı” kimi təqdim etməyə cəhdlər etdilər. Bu proses H.Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdandan bir neçə il sonra da davam etdi.

İnformasiya savaşının sərhədləri bununla məhdudlaşmırdı. Ə.Elçibəyin “ağzını cırmışdılar”, E.Məmmədovu Lefortovoda “satın almışdılar”, X.R.Ulutürk də “satqın imiş”. Bunlarla yanaşı, Azərbaycanda azadlıq hərəkatı tamamilə “saxta adamlar” tərəfindən kənar əmrlə təşkil olunmuş imiş. Bir qədər də irəli gedərək, bir sıra ünsürlər M.Ə.Rəsulzadəni ermənilikdə ittiham etməyə başlamışdılar.

Bunların fonunda Azərbaycanın böyük fikir sahiblərini aşağılayan şayiələr də yayırdılar. Bu informasiya müharibəsinin Azərbaycanda əsasən ermənilər və bəzi etnik qruplar tərəfindən icra olunduğu faktdır. Nəticədə necə bir mənzərə alınırdı: Azərbaycanda nə liderlər, nə də ziyalılar vətənə bağlı deyillər və onlar müasir mərhələdə ölkəni uğura apara bilməzlər

Bununla həmin dairələr liderlərə böhtan səviyyəsindən, ümumiyyətlə, Azərbaycan ziyalılarına qarşı informasiya savaşına keçdilər. Buradan isə, ümumiyyətlə, Azərbaycan xalqını aşağılamağa bir addım qalırdı. Çünki liderləri və ziyalıları etibarlı olmayan xalqın özü də mənəvi, mədəni və əxlaqi baxımdan “keyfiyyətsiz” olmalıdır.

Bütün bu təhlükəli proseslərin  qarşısını ulu öndər Heydər Əliyev tarixi baxımdan qısa bir müddətdə qətiyyətlə aldı. Bu zaman siyasi, hüquqi, ideoloji aspektlər harmoniyada tətbiq edildi. Heydər Əliyev azərbaycançılıq ideologiyası ilə, “həmişə fəxr etmişəm ki, mən azərbaycanlıyam” kəlamı ilə, yeni Konstitusiya qəbul etməklə, dövlət çevrilişlərinin qarşısını almaqla, bütün istiqamətlərdə inkişafı təmin etməklə buna nail oldu. Ulu öndər əsl güclü dövlət və cəmiyyət yarada bildi.

## Kəskinləşən informasiya savaşı

Deməli, artıq Azərbaycana qarşı informasiya müharibəsində müəyyən təcrübə toplamış dairələr vardır. Biz də təcrübə toplamışıq. Üstəlik, Prezident İlham Əliyev Azərbaycanı güclü dövlət və güclü cəmiyyət kimi daha da inkişaf etdirərək, geniş bir geosiyasi məkanda bir sıra dövlətlərin və cəmiyyətlərin güclənməsi üçün uğurlu addımlar atmaqdadır. Bu da informasiya savaşını Azərbaycan üçün daha aktual edir və onun “iç cəbhəsi” ön plana çıxır.

Belə nəticə alınır ki, informasiya müharibəsinin gedişi Azərbaycan cəmiyyətinin gücündən xeyli asılıdır. Burada vətəndaşların Azərbaycan liderinə böyük dəstəyi çox vacibdir. Yaxın perspektivdə Azərbaycan cəmiyyətinin gücü bununla ölçüləcəkdir. Azərbaycan indi regional miqyası da aşaraq multiregional arenada fəaliyyət göstərir. Azərbaycan liderinin birləşdirici və inkişafetdirici sinerjisinə qarşı yeni üsullar yaratmağa çalışacaqlar. Bunlar gözlənilməz istiqamətlərdən ola bilər. Ancaq hamısının mahiyyəti birdir – Azərbaycan liderini, bizim dövləti, cəmiyyəti və insanları gözdən salmaq. Bu dövlətin və cəmiyyətin aparıcı ola bilməyəcəyi yalanını psixologiyaya yeritməyə çalışmaq. Bütün bunlara qarşı dayanmağın çox siyasi, ideoloji və texnoloji üsulları ola bilər. Lakin onlarla yanaşı, sadə vətəndaşların edə biləcəyi təsirli işlər də vardır. Biz nəyi nəzərdə tuturuq?

Məsələn, bir alimin, fəhlənin, sahibkarın və ya başqa sadə vətəndaşın informasiya müharibəsi şəraitində faydalı fəaliyyəti nədən ibarət ola bilər? Hər şeydən öncə, çalışdığı sferada uğurlu olmaq. Bunun üçün milliliyi, peşəkarlığı, mənəvi-əxlaqi dəyərləri, dövlətçiliyi, vətənsevərliyi, dürüstlüyü, hər bir Azərbaycan vətəndaşına sayğını qoruyub saxlamaq gərəkdir. Azərbaycan Prezidentinin səmimiliyindən, məharətindən, milliliyindən, dövlətçilik şüurundan, xalqa sevgisindən nümunə götürmək lazımdır. Hər hansı nümunəni kənarda – teleekranlarda, xarici təbliğatın saxta məntiqində, aldadıcı və hiyləgər rəmzlərində deyil, məhz Azərbaycanda, onun tarixində və bu günündə, liderinin şəxsiyyətində və fəaliyyətində, xalqın milli qürurunda, onun ziyalılarının nurlu simalarında, ataların qəhrəmanlığında, anaların ismətində görmək vacibdir!

Hər bir azərbaycanlı işində və ümumiyyətlə, həyat tərzində informasiya savaşını Vətənin, dövlətin, dövlət başçısının xeyrinə aparmağı bacarmalıdır! Qərəzli ideoloji-informasion dağıdıcılığın qarşısına Azərbaycan cəmiyyəti məhz bu iradəni göstərməlidir. Həmin iradənin təzahürü hər birimizin iş yerində, gündəlik həyatında, məişətindədir! Bunun çıxış tezisi belədir: “Mən Azərbaycan üçün nə edə bilərəm?”

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Azərbaycan – Pakistan: qardaşlığa bərabər dostluq

**Prezident İlham Əliyevin iyulun 11–12-də Pakistana dövlət səfəri ölkələrimiz  arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edəcək.**



Səfər zamanı dövlət başçımız  Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif və Prezident Asif Əli Zərdari ilə ikitərəfli görüşlər keçirəcək. Həmçinin səfər çərçivəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 10-dan çox sənədin imzalanması nəzərdə tutulur. Ümumiyyətlə, Azərbaycan və Pakistan arasında əməkdaşlıq sahəsi kifayət qədər genişdir. İndiyə qədər 38 sənəd imzalanıb, 25 sənəd layihəsinə isə hazırda baxılmaqdadır.

... Bu nüvə dövləti, müsəlman  ölkəsi, Asiya nəhənglərindən biri ilə  dostluq, qardaşlıq  və tərəfdaşlıq münasibətləri haqqında qəzet materialı hazırlayanda yadıma düşən ilk məqam hər iki dövlətin bayrağında Ay və ulduz təsvirinin olması və İslamabadla Bakının sabaha doğru gedən yolunun üfüqündən nur saçan  Günəşin parıltıları oldu.

Sonra isə Azərbaycan Prezidenti İlham Əliyevin doqquz il əvvəl söylədiyi fikirləri xatırladım: “Əsrlər boyu Azərbaycan və Pakistan xalqları sülh, əməkdaşlıq və dostluq şəraitində yaşamışlar. Əsrlər boyu bir-birimizi dəstəkləmişik, qardaş kimi yaşamışıq. Bu gün iki müstəqil ölkə yeni bir əməkdaşlıq formatını yaradır. Bu əməkdaşlıq tarixi irsimiz, ənənələrimiz, dinimiz və həmçinin strateji maraqlarımıza söykənir”.

Bəs  həmin yeni əməkdaşlıq formatı nədən ibarət idi? Xatırladaq ki, dost ölkənin Prezidenti Məmnun Hüseynin 2015-ci il martın 11-də Azərbaycana rəsmi səfərinin İslamabad – Bakı münasibətlərindəki doğmalığı və yaxınlığı daha da artıracağına hər iki ölkədə birmənalı şəkildə inanırdılar.  Səfər çərçivəsində prezidentlərin təkbətək və geniş tərkibdə görüşləri başa çatdıqdan sonra Azərbaycanla Pakistan arasında  rəsmi sənədlərin imzalanması mərasimi oldu. Dövlət başçılarının imzaladığı “Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə” ilə yanaşı, “Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında məhkumların verilməsi haqqında Saziş” və “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ADA Universiteti ilə Pakistan İslam Respublikasının Xarici Xidmət Akademiyası arasında 2015–2017-ci illər üzrə Əməkdaşlıq Proqramı” dostluq əlaqələrimizi genişləndirəcək sənədlərin sırasını artırmışdır. Dövlət başçımız yeni əməkdaşlıq formatı deyəndə bu sənədləri nəzərdə tuturdu.

Azərbaycan Prezidenti həmin gün imzalanan yeni sənədlər barədə danışarkən, xüsusilə vurğulamışdı  ki, ölkələrimiz arasında siyasi əlaqələr istənilən səviyyədədir: “Bu gün cənab Prezident və mənim aramda imzalanan sənəd ölkələrimiz arasındakı strateji tərəfdaşlıq bəyannaməsidir. Əslində, bu sənəd əməkdaşlığımızın, demək olar ki, bütün istiqamətlərini əhatə edir və strateji əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm bir mərhələdir. Biz dostuq, qardaşıq, strateji tərəfdaşıq və əməkdaşlığımızı xalqlarımız, ölkələrimiz, habelə regional təhlükəsizlik və sabitlik naminə davam etdirəcəyik”.

Bəli, sənədlər imzalandı, vədlər verildi və həm sazişlər icra edildi, həm də vədlər reallaşdırıldı. Nəticə ondan ibarətdir ki, bu gün ölkələrimiz arasında siyasi əlaqələr tərəflərin maraqlarına uyğun olan  səviyyədədir.

Qürurla qeyd edirik ki, Azərbaycan diplomatiyasının və dövlətimizin xarici siyasətinin uğurları bu gün gənc müstəqil respublikamızın dostları  və tərəfdaşlarının sayını bədxahlarımızdan qat-qat çox edir. Hətta Avrasiyanın ən qüdrətli dövlətləri sırasında olan bir neçə ölkə var ki, onlar bilavasitə Ermənistanın  Azərbaycana qarşı işğalçılıq siyasətinə görə rəsmi İrəvanla diplomatik-əməkdaşlıq münasibətləri yaratmamışdı. Belə ölkələrdən biri də  Pakistan İslam Respublikasıdır.

Xatırladaq ki, bu iki Avrasiya ölkəsinin – Azərbaycanla Pakistanın arasında öz qloballığı və regional məsələlərin oxşarlığı ilə xarakterizə edilən əlaqələr çoxdur. Bizim dövlət müstəqilliyimizin ilk günlərində Azərbaycanın istiqlaliyyətini  Türkiyə və Rumıniyadan sonra tanıyan üçüncü ölkə məhz Pakistan olmuşdur. Həmin tarixi hadisədən cəmi bir neçə ay sonra bu iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Elə o gündən etibarən Dağlıq Qarabağ məsələsinin həlli yolunda aparılan müzakirələrdə Pakistan Azərbaycanı dəstəkləmiş, bütün beynəlxalq tribunalardan bizim haqq işimizi  müdafiə etmişdir. Ona görə rəsmi Bakı tərəfindən də qarşılıqlı addımlar atılmışır. Belə ki, BMT qətnaməsinə əsaslanaraq Azərbaycan Respublikası da Pakistanı Kəşmir probleminin həllində dəstəkləyir. Onu da xatırladaq ki, 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycana dair 822 nömrəli qətnaməsinin qəbul olunduğu iclasa Pakistan İslam Respublikası sədrlik edirdi.

Sonrakı illərdə də Pakistan Prezidenti, Baş naziri, parlamenti və digər dövlət qurumları, eləcə də ordu rəhbərliyi, ictimai-siyasi xadimlər Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyən və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü dəstəkləyən, dövlətimiz və xalqımızla həmrəyliyi əks etdirən müvafiq qətnamələr qəbul edib, bəyanatlar yayıblar. Pakistan Senatı 2022-ci il mayın 30-da Xocalı soyqırımını pisləyən qətnamə qəbul edib.

Ölkələrarası siyasi əlaqələri qarşılıqlı təmaslar, müntəzəm görüşlər və səmərəli müzakirələr daha da intensivləşdirmişdir. Ölkəmizə dost olan digər dövlətlərlə münasibətlərimiz haqqında yazdığımız bir arqumenti bu yazıda da təkrar etməliyik ki, Azərbaycanla Pakistan arasındakı münasibətlərin indiki səviyyəyə çatmasının təməlində ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və onun işləyib hazırladığı siyasi kurs dayanır. Hamının xatırladığı kimi, ümummilli lider Heydər Əliyev 1994-cü ilin dekabrında Kasablankada Pakistanın Baş naziri Benazir Bhutto ilə görüşmüş və həmin görüşlə  də ikitərəfli münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoymuşdu.  Sonra Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqarinin  Bakıya, ulu öndər Heydər Əliyevin dost ölkəyə rəsmi səfərləri iki ölkə arasında əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət kəsb edib.

Onu da əlavə edək ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan qarşılıqlı səfərlər ənənəsi Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlətimizin başçısının 2005-ci il aprelin 12–13-də Pakistana rəsmi səfəri, eləcə də 2017-ci il 28 fevral – 1 mart tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə toplantısında iştirak etmək üçün dost ölkəyə işgüzar səfəri ikitərəfli əlaqələrdə yeni səhifə açıb, əməkdaşlığın yeni inkişaf perspektivlərini müəyyənləşdirib.

O da vurğulanmalıdır ki, İslamabadla Bakı ikitərəfli əməkdaşlıqla kifayətlənmir, beynəlxalq təşkilatlar  çərçivəsindəki  əməkdaşlıqdan  da səmərəli şəkildə bəhrələnirlər. Bu gün Pakistan və Azərbaycan  BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiya Parlament Assambleyası, habelə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Konfrans çərçivəsində də uğurla əməkdaşlıq edir, bir-birinə dəstək verirlər.

Ötən ay  Nyu-Yorkda keçirilmiş BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2025–2027-ci illər üzrə üzvlüyünə seçkilərdə Azərbaycan Respublikasının namizədliyi, 2023-cü il yanvarın 24-də Daşkənddə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 26-cı iclasında Şuşa şəhərinin 2026-cı ildə İƏT-in turizm paytaxtı elan edilməsi üçün irəli sürülmüş təşəbbüs, ötən il oktyabrın 12-də BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan tərəfindən irəli sürülmüş və yüzdən çox ölkənin həmmüəllif olaraq qoşulduğu inkişaf hüququ üzrə qəbul olunmuş qətnamə Pakistan tərəfindən dəstəklənib.

Uğurlu əməkdaşlığın ən son göstəricisi ilə bu ayın əvvəlində  Astanada keçirilən “ŞƏT +” formatında görüş çərçivəsində üç liderin – Azərbaycan Prezidenti İlham Əliyevin, Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təşkil olunan üçtərəfli görüşü oldu. Ekspertlərin fikrincə, Azərbaycan, Pakistan və Türkiyə arasında bütün tərəflərin qarşılıqlı maraqlarına xidmət edən və regional güc birliyini şərtləndirən bu əməkdaşlıq mexanizmi və həmin görüşdə müzakirə olunan məsələlər ölkələrimiz arasında əlaqələrin bütün sahələrini əhatə edir.

Daha maraqlı fakt isə o idi ki, həmin görüşdə iqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıqla yanaşı, “Üç qardaş” şüarı ilə  keçirilən hərbi təlimlərin əhəmiyyəti vurğulanmış və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklifi irəli sürülmüşdür.

Azərbaycan – Pakistan dostluq və tərəfdaşlıq münasibətlərinə həsr edilmiş bu sətirləri Prezident İlham Əliyevin bir qiymətləndirməsi ilə tamamlayırıq: “Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib. ... Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır”.

***İttifaq MİRZƏBƏYLİ***

12 iyul 2024-cü il, cümə Xalq qəzeti



**Milli Məclisə seçkilərə 50 gün qaldı**

**SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!**



# Dünyanın hər tərəfindən müşahidəçilər gələcək

**Növbədənkənar parlament seçkilərini izləmək üçün hər dəfə ölkəmizə çox sayda beynəlxalq müşahidəçi gəlir. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov da bu məsələyə münasibət bildirərkən deyib ki, seçkiləri müşahidə etmək üçün Azərbaycana bütün qitələrdən nümayəndə heyətləri gəlir.**



Sədrin sözlərinə görə, Azərbaycanda seçkiləri müşahidə etmək üçün 3 qurum dəvət göndərir. Növbədənkənar parlament seçkilərini müçahidə etmək üçün beynəlxalq təşkilatlara dəvətlər göndərilir.

Parlament seçkilərinin keçirildiyi 1000 məntəqədə veb-kameralar quraşdırılıb. dünyanın istənilən yerindən MSK-nın saytında seçkiləri veb-kameralar vasitəsilə izləmək olur. Seçkiləri belə müşahidə edənlərin sayı da ildən- ilə artır.

# “Namizədlər üçün yaddaş”

**Mərkəzi Seçki Komissiyası (MSK) 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində “Namizədlər üçün yaddaş” kitabçası hazırlayıb.**




MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, layihənin həyata keçirilməsində başlıca məqsəd qarşıdan gələn seçkilərdə deputat seçilmək niyyətində olan vətəndaşların məlumatını artırmaq, passiv seçki hüquqlarının reallaşdırılmasında onlara metodiki yardım göstərmək və fəaliyyətlərinin daha da asanlaşdırılmasına imkan yaratmaqdır.

Nəşrdə deputatlığa namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş prosedurlar və atılası addımlar, sənədlərin təqdim edilməsi üçün müəyyənləşdirilmiş müddətlər və qaydalar, habelə namizədlərin hüquq və vəzifələri aydın, ətraflı şəkildə göstərilib.

Yaddaş kitabçası Azərbaycan Respublikasının Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli aktlar əsasında hazırlanıb.

“Namizədlər üçün yaddaş” kitabçasını aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək olar.

# Media seçkiləri maneəsiz izləyəcək



***Azərbaycanda keçirilən bütün seçkilərdə yerli və beynəlxalq müşahidəçilərə seçki prosesini sərbəst izləmək üçün hər cür şərait yaradılıb.***

Seçkilərdə müşahidəçi qismində iştirak etmək istəyən hər kəs dairə seçki komissiyasına və MSK-ya müraciət edə bilər. Seçkilərdə aşkarlığın təmin edilməsini isə media qurumları həyata keçirirlər. Azərbaycan dünyada yeganə ölkədir ki, media orqanları seçkiləri müşahidə etmək, prosesi işıqlandırmaq üçün heç bir qurumdan icazə almırlar. Onların seçkiləri müşahidə etmək üçün jurnalist vəsiqəsini göstərmələri kifayətdir.

# Azad və sərbəst seçimə yüksək təminat

**“Asayişin mühafizəsi digər hüquq - mühafizə orqanları ilə birgə cari ilin sentyabr ayının 1-nə nəzərdə tutulan Milli Məclisə növbədənkənar seçkilər ərəfəsində və dövründə etibarlı təmin ediləcək”.**



Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev bildirib.

E.Hacıyev qeyd edib ki, Daxili İşlər Nazirliyi tərəfindən cinayətlərin qarşısının alınması, açılması, hüquq qaydasının qorunması, hər bir şəxsin hüquq və azadlığının müdafiəsi sahəsində qanunla müəyyən edilmiş vəzifələrin icrası davam etdirilir:

“Vətəndaşların seçkidə öz iradəsini azad və sərbəst ifadə etməsi üçün yüksək təhlükəsizlik şəraiti yaradılacaq”.

DİN rəsmisi vurğulayıb ki, seçki ilə əlaqədar heç bir xüsusi hazırlıq işi aparılmır, eyni zamanda səlahiyyətdən kənar məsələlərə polisin müdaxiləsi birmənalı istisnadır:

“Şəxsi heyət yalnız Seçki Məcəlləsindən irəli gələn aidiyyəti müddəaların tələblərinin həyata keçirilməsinə, vətəndaşların şəxsiyyəti təsdiq edən sənədlərlə vaxtında təmin edilməsi və yaşayış yeri üzrə qeydiyyata alınması vəzifələrinin yerinə yetirilməsinə səfərbər olunub”.

# Şuşa–Ağdam–Xocavənd seçki dairəsi yeni binada

**İşğaldan azad edilən ərazilərdə yenidənqurma, bərpa-quruculuq işləri davam edirlər. Yenidənqurma işlərinə 20 mindən çox insan cəlb edilib. Həmin ərazilərdə dairə və məntəqə seçki komissiyaları üçün müasir tələblərə cavab verən binalar, münasib otaqlar ayrılıb.**



124 saylı Şuşa–Ağdam–Xocavənd seçki dairəsi yeni binaya köçürülüb. Bütün bunlar seçicilərin, müşahidəçilərin və digər şəxslərin rahatlığını təmin etmək məqsədilə həyata keçirilir. Komissiyanın yerləşdiyi binalar daimi internet və fasiləsiz enerji ilə təmin ediləcək.

# Məhkumlar da səs verəcəklər

**Ədliyyə nazirinin müavini Abiddin Hüseynov növbədənkənar parlament seçkiləri ilə əlaqədar nazirliyin üzərinə düşən vəzifələrdən söhbət açarkən deyib ki, seçkilərin milli qanunvericiliyə uyğun keçirilməsi məsələsi qarşımızda mühüm vəzifələr qoyur.**



Onun sözlərinə görə, nazirliyin seçki prosesində vəzifələrindən biri də penitensiar müəssisələrdə cəza çəkən məhkumların seçki prosesində iştirakının təmin edilməsidir. Məhkumların səsvermə hüququ tam təmin edilir. Qeyd edilib ki, penitensiar müəssisələrdə keçirilən seçkilər təlimata uyğun aparılır və xüsusi komissiya yaradılır. Seçki günü səsverməni izləmək üçün media mənsubları da iştirak edəcəklər.

# Səsvermənin tələbi: qanuna əməl, əxlaqa hörmət



**Səsverməyə gələn seçicilərlə son dərəcə nəzakətlə davranmaq lazımdır. Səs vermək hər bir vətəndaşın konstitusiya hüququdur. Heç kim bu hüququ poza bilməz. MSK sədri Məzahir Pənahov bildirib ki, dairə və seçki məntəqələrində hər cür şərait yaradılıb. Seçkiyə qədər treninqlər, maarifləndirmə tədbirləri keçirilir. Bütün bunlarda məqsəd seçkilərin insidentsiz, qanunvericiliyin tələblərinə uyğun keçirilməsidir.**

MSK sədri dairə seçki komissiyalarının rəhbərlərinə və üzvlərinə xəbərdarlıq edərək deyib ki, insanlarla davranış qaydalarına diqqət yetirməli, hansısa bir pozuntuya, neqativ hala yol verilməməlidir. Əgər ciddi problem yaranarsa, bu zaman MSK-ya müraciət olunmalıdır. Seçkilər dövlət əhəmiyyətli məsələ olduğu üçün şəxsi maraqlar arxa planda qalmalıdır. MSK sədri bildirib ki, Seçki Məcəlləsinin tələblərini pozanlar cəzalandırılacaqdır.

# Seçici sayı 22,2 faiz artıb

**Ölkə üzrə 125 seçki dairəsində səsvermə hüququna malik olan şəxslərin sayı 1 milyon 153 min nəfər – 22,2 faiz artaraq, bu ilin 28 iyun tarixinə 6 milyon 334 min 444 nəfər təşkil edib.**



*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# “Qara qızıl” ağ günlərimizə gur işıq saçır

**Azərbaycan tarixən özünün yeraltı və yerüstü sərvətləri ilə bütün dünyada tanınıb. Amma əsrlər boyu xalqımız bu zənginlikdən lazımınca bəhrələnə bilməyib. Xüsusən də neft və qaz kimi təbii sərvətlərimiz uzun illər yadellilər tərəfindən istismar olunub. Yalnız respublikamız tarixi müstəqilliyinə qovuşduqdan sonra xalqımız yeraltı sərvətlərinə sahib çıxıb.**



Təsadüfi deyil ki, 30 il əvvəl – 1994-cü il sentyabrın 20-də Bakıda “Əsrin müqaviləsi”nin imzalanması mərasimində Azərbaycanın yeni neft strategiyasının müəllifi, ulu öndər Heydər Əliyev demişdir: “Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olunduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk… Müstəqil Azərbaycan Respublikası öz taleyinin, öz sərvətlərinin sahibi kimi bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində öz layiqli yerini tutacaqdır”.

Beləliklə, 1994-cü ildən etibarən Azərbaycan Respublikasında həyata keçirilən milli neft strategiyasının uğurlu nəticəsi olaraq ölkədə xarici neft şirkətləri ilə birlikdə kartbohidrogen ehtiyatlarının genişmiqyaslı istismarı və nəqlinin həyata keçirilməsinə başlanılıb. Azərbaycanın yeni neft strategiyasının növbəti mərhələsində “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun neft ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən gəlirlərin toplanaraq artırılması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək məqsədilə ölkə Prezidenti Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli, 240 saylı fərmanı ilə Dövlət Neft Fondu yaradılıb.

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) hüquqi şəxs qismində təsis olunmuş büdcədənkənar dövlət təsisatıdır. Qurumun ali məqsədi tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərin toplanması və Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin daimi gəlir mənbəyinə çevrilməsi təşkil edir. Bu ideya ulu öndər Heydər Əliyevin “Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur” kəlamı ilə tam səsləşir. Bir sözlə, ARDNF ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının uğurlu nəticələrinə, ölkənin neft sərvətlərinin səmərəli və məqsədyönlü idarə edilməsinə, karbohidrogenlərin bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq onlardan xalqımızın indiki və gələcək nəsillərinin eyni dərəcədə bəhrələnməsinə imkan yaratmaq məqsədilə yaradılıb. Bununla yanaşı, fond Azərbaycanda makroiqtisadi sabitliyin qorunmasına, maliyyə-vergi intizamının təmin edilməsinə, neft gəlirlərindən asılılığın azaldılmasına və qeyri-neft sektorunun inkişafına, eləcə də ölkəmizin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümummilli layihələrin maliyyələşdirilməsinə əvəzsiz töhfələr verir.

Ötən 25 ilə yaxın dövr ərzində Dövlət Neft Fondu institusional quruculuq baxımından böyük inkişaf yolu keçib. Belə ki, fondun normativ-hüquqi bazasının, vəsaitinin formalaşma mənbələrinin və istifadəsi qaydalarının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanları ilə Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktlarında edilmiş dəyişikliklərə əsasən fondun formalaşması mənbələrinin təsnifatı genişləndirilib, onun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi qaydaları, büdcəsinin tərtibi mexanizmi təkmilləşdirilib.

Azərbaycan Respublikası Dövlət Fondu real olaraq fəaliyyətinə 2001-ci ilin iyun ayında başlayıb. Bu da fondun fəaliyyəti üçün hüquqi bazanın yaradılması ilə bağlı olub. Məlum olduğu kimi, 1999-cu ilin dekabrında ölkəmiz “Əsrin müqaviləsi” çərçivəsində ilk mənfəət neftini əldə edib. Ötən illər ərzində Azərbaycan Respublikası Dövlət Neft Fondu ölkədə dövlət proqramlarının və layihələrin icrasına mühüm töhfələr verib. Fond tərəfindən qaçqınlarin və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma problemlərinin həlli ilə bağlı tədbirlərin, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, Oğuz-Qəbələ-Bakı su kəmərinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının, Cənub Qaz Dəhlizinin, Türkiyə Respublikasında “STAR” neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının, həmçinin Azərbaycan İnvestisiya Şirkətinin nizamnamə kapitalının formalaşdırılması kimi tədbir və layihələrin maliyyələşdirilməsi bu baxımdan diqqəti cəlb edir.

Beləliklə, ötən müddətdə fondun vəsaitlərindən “Azəri-Çıraq-Günəşli” yataqlarının işlənməsi üzrə layihədə ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsinə 87,6 milyon manat, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə 298 milyon manat, qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsinə 2 milyard 702,7 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə 1 milyard 469,6 milyon manat, Oğuz-Qəbələ-Bakı şəhərinə su kəmərinin çəkilişinə 779,6 milyon manat və Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 748,6 milyon manat ayrılıb.

Bununla yanaşı, fondun xəzinəsindən “Cənub Qaz Dəhlizi” QSC-nin nizamnamə kapitalında dövlətin iştirak payının maliyyələşdirilməsinə 1 milyard 530,3 milyon manat, Türkiyə Respublikasında “STAR” neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə 1 milyard 663,3 milyon manat, Xəzər dənizində yeni, müasir üzən qazma qurğusunun tikintisi layihəsində ölkəmizin iştirak payının maliyyələşdirilməsinə isə 904,6 milyon manat vəsait xərclənib. Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 30 mart 2006-cı il tarixli sərəncamı ilə yaradılmış “Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının formalaşdırılması üçün tələb olunan 90 milyon manat da Neft Fondunun vəsaiti hesabına təmin edilib.

Azərbaycan dövlətinin məqsədyönlü siyasəti nəticəsində ölkəmiz əsl sahibi olduğu nef kimi əvəzsiz sərvəti insan kapitalına çevirə bilib. Bu məqsədlə ötən illərdə Dövlət Neft Fondunun büdcəsindən təhsilə xeyli vəsait ayrılıb. Təkcə “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın həyata keçirildiyi dövrdə dünyanın 32 ölkəsinin nüfuzlu ali məktəblərinə qəbul olunmuş 3302 nəfər azərbaycanlı gəncin yaşayış, təhsil haqqı, yol, sığorta, viza və qeydiyyat xərclərinin ödənilməsinə fond tərəfindən 212 milyon 681,4 min manat vəsait xərclənib. Bundan əlavə, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində ARDNF tərəfindən, ümumilikdə, 52 milyon 783,8 min manat, o cümlədən cari ilin ilk rübü üzrə 3 milyon 204,2 min manat vəsait ayrılıb. Eyni zamanda, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsinə fond tərəfindən 65 milyon 471,9 min manat vəsait xərclənib.

Fondun Azərbaycan iqtisadiyyatında ən böyük rolu onun dövlət büdcəsinə transfertindən başlayır. Bu isə 2003-cü ilə təsadüf edir. Yəni həmin ildən etibarən Azərbaycan xarici şirkətlərlə tərəfdaşlıq çərçivəsində əldə etdiyi ilk neft gəlirlərini dövlət büdcəsi xətti ilə ölkə iqtisadiyyatına, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldir. Ötən 21 il ərzində fondun vəsaitlərindən Azərbaycan Respublikasının dövlət büdcəsinə, ümumilikdə, 146 milyard 346,2 milyon manat vəsait ayrılıb. Büdcəyə transfert olunan vəsaitlər isə öz növbəsində Azərbaycanın istər infrastruktur, istər elm və təhsil, istərsə də sosial və iqtisadi cəhətdən inkişaf etməsində mühüm rol oynayıb. Yeri gəlmişkən, ilk illərdə ARDNF-dən büdcəyə edilən transfertlər büdcə xərclərinin 8,2 faizini təşkil etdiyi halda, 10 il bundan əvvəl bu göstərici 58 faizə çatıb. 2021-ci ildə isə büdcə gəlirlərinin 43 faizi Neft Fondundan edilən transfert hesabına formalaşdırılıb. Göründüyü kimi, ötən illərdə büdcə gəlirlərində Neft Fondundan daxilolmalar 20 faiz azalıb. Bu isə, heç şübhəsiz, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir.

Azərbaycanın suveren fondu Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Amerika Ticarət və İnkişaf Agentliyi, Beynəlxalq Maliyyə Korporasiyası və Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü kimi beynəlxalq təşkilatlarla iqtisadi siyasət və tərəfdaşlıq fəaliyyəti həyata keçirir. Bu yaxınlarda isə ARDNF investorlar konsorsiumun üzvü kimi dünyanın ən böyük özəl təhsil müəssisələrindən biri olan “GEMS Education” şirkətinə 100 milyon dollar məbləğində yatırım edib. Bütün bunlar fondun qlobal arenada etibarlı investor kimi qəbul edilməsinin göstəricisidir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Dövlət Neft Fondu 2018-ci ildə dövlət vəsaitlərinin idarə edilməsi üzrə dünyanın ən nüfuzlu 100 investoru siyahısına daxil edilib. Suveren Fondlar İnstitutu tərəfindən qurumların fəaliyyətlərində tətbiq etdiyi innovasiyalar, xüsusi proqramlar, maliyyələşdirmə mexanizmləri, gəlirlilik göstəriciləri, mövcud şərait, həyata keçirilmiş təşəbbüslər kimi mühüm meyarlar nəzərə alınmaqla tərtib edilmiş qlobal miqyaslı siyahıda ARDNF 10-cu yeri tutub. Bununla yanaşı, beynəlxalq səviyyədə Azərbaycan brendi kimi tanınan Dövlət Neft Fondu dünyanın 60 ən şəffaf suveren fondu siyahısında 4-cü sırada qərarlaşıb.

2017-ci il sentyabrın 14-də “Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş”ə əsasən neft hasilatının 2049-cu ilədək davam etdiriləcəyi proqnozlaşdırılır. Eyni zamanda, hazırda işlənmənin ikinci mərhələsində olan “Şahdəniz” yatağında qaz hasilatı ildən-ilə artır. Bütün bunlar isə Azərbaycan iqtisadiyyatının, nəsillərin güvənc yeri olan Dövlət Neft Fondunun xəzinəsinə əlavə gəlirlər gətirəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

***Məqalə ARDNF-nin yaradılmasının 25-ci ildönümü münasibətilə “Azərbaycan Respublikası Dövlət Neft Fondunun makroiqtisadi sabitliyin təminatında və ölkə iqtisadiyyatının inkişafında rolu” mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.***

# Azad rəqabət tərəqqinin təkanverici qüvvəsidir



**Rəqabət Forumunda azad rəqabətin tərəqqinin təkanverici mexanizmi olması müzakirələrin aparıcı istiqamətini təşkil edib.**

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli Milli Rəqabət Forumunun məqsədinin bu il və növbəti illərdə günün ən mühüm yerli və qlobal çağırışlarının və səmimi dialoq platformasının yaradılmasından ibarət olduğunu deyib. O bildirib ki, iqtisadiyyat baxımından rəqabət orqanının əsas məqsədlərindən biri qəbul olunmuş rəqabət qanunvericiliyinin tam mənimsənilməsidir. Rəqabətin əsas daşıyıcı qüvvəsi onun verəcəyi nəticədir ki, bu da dayanıqlı inkişafın təmin olunması ilə əlaqədardır. Forum ölkə daxilində geniş auditoriya ilə aktual problemləri müzakirə etmək üçün unikal imkan yaradır.

Xidmət rəisi daha sonra qeyd etdi ki, gələcəkdə bu forum ölkəmizdə rəqabət siyasətinin inkişafı, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və təbii ki, davamlı iqtisadi inkişaf məsələlərinin müzakirəsi platformasına çevriləcək: “Keçən il satınalma prosesinin şəffaflaşdırılması və təkmilləşdirilməsi nəticəsində ölkəmiz 742 milyon manat dövlət vəsaitinə qənaət edib. Ümid edirəm ki, cari il satınalmalar prosesinin tamamilə rəqəmsallaşdırılması nəticəsində bu məbləğ daha da artacaq".

İqtisadiyyat nazirinin müavini Anar Axundov diqqətə çatdırıb ki, Rəqabət Məcəlləsinin tətbiqi müxtəlif sektor və bazarlarda səmərəli tənzimləmələrin aparılması imkanlarını genişləndirəcək. Nəticədə sahibkarlar üçün həmin bazarlarda əlverişli işgüzar mühit formalaşacaq: "Rəqabət Məcəlləsi kiçik və orta biznes subyektlərinin inkişafının təmin edilməsi, onların bazara girişinin asanlaşdırılması üçün geniş tənzimləmə mexanizmlərini əhatə edir. Yeni rəqabət siyasətinin dinamik, inklüziv və dayanıqlı iqtisadi artımı dəstəkləməsi azad edilmiş ərazilərimizin dirçəldilməsinə də əlavə imkanlar açacaq, bazar iştirakçılarının sayı çoxalacaq, yerli təsərrüfat subyektlərinin rəqabətqabiliyyətliliyi yüksələcək, innovasiya fəaliyyətinin, özəl sektorda rəqəmsallaşmanın tətbiqi genişlənəcək”.

Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərov isə deyib ki, Azərbaycanda Rəqabət Məcəlləsinin tətbiqi ilə bağlı funksiyalar inzibati məhkəmələrdə həyata keçiriləcək. Bununla bağlı inzibati məhkəmələrdə maarifləndirmə işləri aparılacaq: "İnzibati məhkəmələrdə kifayət qədər peşəkar hakimlər fəaliyyət göstərir. Əminəm ki, Rəqabət Məcəlləsinin tətbiqi ilə bağlı problemlər olmayacaq, sənəd uğurla tətbiq ediləcək".

Çıxış edən digər natiqlər forumda səsləndirilən məsələlərlə bağlı fikirlərini bölüşüblər. Forum “Rəqabət siyasətinin iqtisadiyyata təsiri” və “Məhkəmə-hüquq sisteminin rəqabət siyasətinin icrasında rolu” mövzularında panel iclaslarla davam edib.

***XQ***

# İnflyasiya aşağı enir

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–iyun aylarında istehlak qiymətləri indeksi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 100,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 99,4 faiz, qeyri-qida məhsulları üzrə 101,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 102,4 faiz təşkil edib.**



Məlumata görə, bu ilin iyun ayında istehlak qiymətləri indeksi 2023-cü ilin eyni ayına nisbətən 101,1 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 100,2 faiz, qeyri-qida məhsulları üzrə 101 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 102,4 faiz olub.

Ötən ay istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,9 faiz təşkil edib. Qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,6 faiz təşkil edib.

İyunda ayrı-ayrı qida məhsullarından may ayına nisbətən daha çox azalma qarabaşaq yarması, təzə balıq, pasterizə olunmamış üzlü süd, günəbaxan və qarğıdalı yağları, banan, gilas, alça, ərik, pomidor, xiyar, şirin bibər, badımcan, göy lobya, süfrə çuğunduru, yerkökü, sarımsaq, baş soğan və kartofun, artım isə əsasən un, makaron, mal və qoyun əti, yumurta, zeytun yağı, limon, alma, çiyələk, kivi, ağ kələm və göyərtinin qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ötən ay qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz olub. Qeyri-qida mallarından daha çox artım parçalar, yay geyimləri, kəsilmiş taxta və zərgərlik məmulatları qiymətlərində müşahidə olunub. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ötən ay əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi isə əvvəlki aya nisbətən 100,3 faiz təşkil edib. Əhaliyə göstərilmiş ödənişli xidmətlərdən artım əsasən xalçaların yuyulması, taksi nəqliyyatı ilə şəhərdaxili sərnişindaşıma, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Xatırladaq ki, inflyasiyanın azalması cari ilin əvvəlindən davamlı prosesə çevrilib. 2024-cü ilin yanvar ayında ölkədə illik inflyasiya 1,7 faiz təşkil edib. Bu göstərici 2023-cü və ondan əvvəlki illərin yanvar aylarında müvafiq olaraq 12,5 faiz və 13,6 faiz olub. Həmin vaxt ölkədə illik inflyasiyanın kəskin enmə səbəbi ilə bağlı İqtisadiyyat Nazirliyinin məlumatında bildirilirdi ki, 2023-cü il ərzində respublikamızda inflyasiyada əvvəlki illə müqayisədə azalma davam edib. Belə ki, ötən ilin dekabr ayında cəmi məhsul və xidmətlər üzrə illik inflyasiya əvvəlki ilin müvafiq göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1 faiz təşkil edib. 2023-cü ilin dekabr ayında ərzaq məhsulları üzrə illik inflyasiya 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, ödənişli xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyada səngimə 2024-cü ildə də davam edib və cari ilin yanvar ayında bu göstərici 1,7 faizə enib.

Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.

Həmin vaxt Maliyyə Nazirliyinin məlumatında isə bildirilir ki, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında”, eləcə də “İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə” sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

# 6 ayda 302 min 891 “ASAN imza”

***Bu ilin ilk yarısında vergiödəyicilərinə xidmət mərkəzlərində, ümumilikdə, 326 min 457 şəxs qəbul edilib, onlara 492 min 520 sayda xidmət göstərilib. Bunun 185 minə yaxını şifahi xidmətlərə (müraciət etmiş şəxslərin vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar suallarının cavablandırılması), 103 minə yaxını isə elektron xidmətlərə (bəyannamələrin və hesabatların, habelə müxtəlif ərizələrin tərtibatına və elektron formada göndərilməsinə köməklik göstərilməsi) aiddir.***

Dövlət Vergi Xidmətindən redaksiyamıza verilən məlumata görə, hesabat dövründə vergiödəyicilərindən daxil olmuş 17 mindən çox yazılı müraciət cavablandırılıb, 6 milyona yaxın məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib.

Sözügedən dövr ərzində 2813 vergi ödəyicisinin iştirakı ilə 167 görüş keçirilib, 2705 vergiödəyicisinə ünvanlı xidmət göstərilib, vergiödəyicilərinin məlumatlandırılması məqsədilə onların mobil nömrələrinə 1 milyon 282 mindən çox SMS göndərilib. Cari ilin ilk yarısında 183 min 553 müraciət üzrə 302 min 891 “ASAN İmza” sertifikatı verilib.




***XQ***




## "Yaşıl dünya" naminə həmrəylik



# COP29 – qlobal iqlim təhlükəsizliyi platforması

**COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev mediaya açıqlamasında 2015-ci ilin Paris İqlim Sazişinin 6-cı maddəsinin iki alt bəndinin razılaşdırılmasının qarşıdan gələn COP29-da ən vacib və çətin müzakirə mövzularından biri olacağını bildirib. M.Babayev daha sonra Paris İqlim Sazişinin sözügedən maddəsinin qəbulunun əvvəlki COP-ların və Bakıda keçiriləcək COP29-un çoxsaylı danışıqlarının mövzusu kimi diqqət mərkəzində saxlanılacağını vurğulayıb. "Düzdür, bununla əlaqədar bəzi məsələlər razılaşdırılsa da, digərləri barədə hələlik konkret nəticəyə gəlinməyib. Əgər ölkələr 6.2, 6.4 və 6.8-in kritik alt bəndlərini özündə birləşdirən 6-cı maddə üzrə razılığa gələ bilsələr, bu, COP29-da çox vacib qərar olacaq", – deyə ekologiya və təbii sərvətlər naziri xatırladıb. M.Babayev 6.2 və 6.4-cü alt bəndlərin ən böyük mübahisə doğuracağını da diqqətə çatdırıb.**

Qeyd edək ki, 2015-ci il Paris İqlim Sazişinin 6-cı maddəsində deyilir: "Tərəflər istixana qazı emissiyalarının azaldılması üçün milli səviyyədə müəyyənləşdirilmiş töhfələrin həyata keçirilməsində könüllü əməkdaşlıqdan istifadə edirlər". Beləliklə, 6-cı maddə faktiki olaraq istixana qazları emissiyalarının azaldılmasını stimullaşdıran üç mexanizm (6.2, 6.4 və 6.8-ci alt bəndlər) müəyyən edir: 1) BMT ölkələri arasında emissiyaların azaldılması nəticələrinin uçotu və ticarəti (yəni, karbon kvotaları - Maddə 6.2), 2) karbon kvotalarının və kreditlərinin ticarəti üçün BMT-nin mərkəzləşdirilmiş mexanizminə uyğun olaraq iqlim layihələrinin həyata keçirilməsi (Maddə 6.4), 3) iqlim dəyişikliyinin nəticələrin yumşaldılması üçün qeyri-bazar yanaşmaları (Maddə 6.8).




COP29-un prezidentinin sözlərinə görə, indiyədək 6.2 və 6.4-cü alt bəndlərdə 6-cı maddənin tətbiqi qaydaları razılaşdırılmayıb, lakin 6.8-ci maddə üçün artıq hazır sənəd var.

Bu məqamda onu da xatırladaq ki, karbon kvotaları əslində müəyyən bir ölkənin (şirkətin) texnologiya və ya digər üsullarla istehsal əməliyyatları zamanı müəyyən həcmdə (kiloqram və ya tonla) istixana qazlarının emissiyalarını necə azalda bildiyinin uçotudur.

M.Babayev, həmçinin qeyd edib ki, Bakıda keçiriləcək COP29 digər məsələlərin və təşəbbüslərin müzakirəsi üçün platformalar yaradacaq. Bu platformalarda səsləndiriləcək təşəbbüslər arasında BMT-nin Baş katibi Antoniu Quterreş tərəfindən dəstəklənən Karib hövzəsi ölkələrinin "həmrəylik vergisi"nin tətbiqi təşəbbüsü də var. Xatırladaq ki, Karib hövzəsi ölkələri gəmiçilik, aviasiya və qalıq yanacaq hasilatı kimi sektorlardan (iqlim problemlərini həll etmək üçün) "həmrəylik vergisi" tutmaq təşəbbüsü ilə çıxış ediblər.

BMT-nin Baş katibi bu yaxınlarda sosial media hesabında bu təşəbbüsü yüksək dəyərləndirib və iqlim təşəbbüslərinə daha çox özəl kapitalın cəlbini, habelə inkişaf etmiş ölkələrin də iqlim dəyişikliyinə uyğunlaşma üçün maliyyəni ikiqat artırmalarının və öhdəlikləri yerinə yetirmələrinin zəruriliyini bildirib.

COP29-da səsləndiriləcək təşəbbüslərdən söz düşmüşkən, onu da vurğulayaq ki, bir neçə ölkə dəniz nəqliyyatı ilə yük daşınmasına, hava səyahətlərinə vergi tətbiq olunması təşəbbüsü ilə çıxış edib ki, bu da əsasən "biznes klass" sərnişinlərinə və ya çarter reyslərə və s. şamil edilir. Hər kəsin yanaşması fərqlidir, bu, müzakirə mövzusudur. Bu cür təşəbbüslərin Bakıda müzakirəsi üçün müəyyən platformalara yer veriləcəyi də nəzərdə tutulur.

COP29-a hazırlıq prosesi Prezident İlham Əliyevin daimi nəzarəti altındadır. Dövlətimizin başçısı iyulun 4-də keçirilmiş "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında tədbirdə və iyulun 6-da Şuşada təşkil edilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Şuşa Zirvə görüşündə qəbul olunmuş "Qarabağ Bəyannaməsi"ndə qardaş türk dövlətləri tərəfindən isə COP29-da real nəticələrin əldə edilməsi istiqamətində Azərbaycanın ardıcıl səyləri dəstəklənib.

Xatırladaq ki, COP konfransları indiyədək BMT-nin himayəsi altında keçirilib. Bu beynəlxalq qurumun İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının da cari ilin noyabrında Azərbaycanda reallaşdırılacağı qərara alınıb. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda gerçəkləşən COP28 plenar iclasında qəbul edilib.

Beləliklə, bu il bütün postsovet məkanında ilk dəfə Azərbaycan Respublikasının mötəbər qlobal tədbirə evsahibliyi edəcəyi ölkəmizin tarixi uğurlarından biri olmaqla, eyni zamanda, beynəlxalq aləmin vahid mövqedən çıxış edərək COP29-un paytaxtımızda keçirilməsinə qərar verməsi respublikamızın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir.

Beynəlxalq birliyin belə bir qlobal tədbirə evsahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi ölkəmizin bu sahədə zəngin təcrübəyə malik olmasından, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü zamanı 155 ölkənin, Qoşulmama Hərəkatına sədrliyi zamanı isə 120 ölkənin dəstəyini qazanmasından və etimadı tam doğrultmasından, Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından, habelə dünya səviyyəsində dövlətimizin başçısının yürütdüyü siyasətə göstərilən güclü dəstəkdən irəli gəlir.

Azərbaycanın COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini bir sıra digər məqamlar da şərtləndirir. Əvvəla, bu, Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə nail olması ilə bağlıdır. Vətən müharibəsində qazanılan parlaq qələbədən sonra ölkəmizin dünyada daha güclü dövlət kimi tanınması da bu məsələdə önəmli rol oynayır.

Azərbaycanın COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini şərtləndirən amillərdən biri də respublikamızda müasir infrastrukturun mövcudluğu və təhlükəsizliyin ən yüksək səviyyədə təşkili ilə bağlıdır. Bütün bunlarla bərabər, ölkəmizin ətraf mühitə verdiyi önəm də beynəlxalq aləmin diqqətini çəkir. Bu, statistik göstəricilərdən də aydın gürünür. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının həcmini 35 faizə və 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşıya mühüm vəzifə kimi qoyur.

Onu da bildirək ki, erməni faşizminin işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin başçısı tərəfindən "Yaşıl enerji" zonası elan edilib. Eyni zamanda, həmin ərazilərin dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, "ağıllı" şəhərlər, "ağıllı" kəndlər kimi innovativ yanaşmalara əsaslanmaqla və minlərlə hektar sahədə meşələri bərpa etməklə 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu zaman Prezident İlham Əliyevin bu sahədə–bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

Beləliklə, COP29 sülhə, əmin-amanlığa yol açır, rifaha xidmət edir. Azərbaycan ilə Ermənistan arasında vasitəçisiz, birbaşa kommunikasiya əsasında COP-la bağlı əldə edilmiş razılaşma bu qlobal tədbirin sülhpərvər mahiyyətini bir daha nümayiş etdirir. COP mövzuları bəşəriyyəti, müxtəlif dövlətləri, dövlətlər qrupunu, düşərgələri ümumi məqsəd naminə səfərbər edən, birləşdirən qüvvədir. COP həmrəylik, qlobal məsuliyyəti bölüşmək və əməkdaşlıq platformasıdır. Bir sözlə, COP29 beynəlxalq konfrans kimi məsuliyyətli bir tədbirdir. Məsələ ilə bağlı ilk iclasın dövlətimizin başçısının rəhbərliyi ilə keçirilməsi də bu fikrin parlaq ifadəsidir.

Sonda qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir. "COP" (Conference of Parties) abbreviaturası İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ən yüksək qanunverici orqan olan "Tərəflərin Konfransı" mənasını verir.

Konvensiyada 198 ölkə iştirak edir. Tərəflər başqa cür razılaşmırsa, COP hər il keçirilir. İlk COP tədbiri 1995-ci ilin martında Berlində reallaşıb və onun katibliyi Bonnda yerləşir.

## Təmiz ətraf mühit birgə səy tələb edir

**"Energy One Solutions International"ın baş direktoru və təsisçisi Alen Stivenin sözlərinə görə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları (COP) biliklərin, qabaqcıl təcrübələrin mübadiləsi və iqlim dəyişikliyi ilə mübarizə üçün fəaliyyətin inkişafı üçün dəyərli beynəlxalq forum təşkil edir.**



Onun fikrincə, COP sessiyaları ölkələr üçün siyasəti bir kənara qoyaraq iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliklərini təsdiqləmək üçün vacibdir: "Hətta milli səviyyədə müəyyən edilmiş töhfələrin yerinə yetirilməsi prosesi və qərarların qəbulu ləng olsa belə, sessiyalar dövlətlərə xarici siyasətlərindən asılı olmayaraq iqlim təşəbbüslərini inkişaf etdirmək üçün məlumat və təlimat verir".

İnfrastrukturun "yaşıl enerji"yə keçidindən danışan A.Stiven qeyd edib ki, bu proses olduqca mürəkkəbdir: "Problem təkcə yaşıl enerji mənbələrini tətbiq etmək deyil, həm də enerji sistemlərinin etibarlılığını və dayanıqlığını təmin etməkdir".

A.Stiven bildirib ki, kütləvi karbonsuzlaşdırma enerji sistemlərinin sabitliyinə təsir edir, çünki şəbəkə operatoru bunu tam nəzarətdə saxlaya bilmir.

## QDTİB Azərbaycana yatırımı artıracaq



**İqtisadiyyat nazirinin müavini Anar Axundov Qara Dəniz Ticarət və İnkişaf Bankının vitse-prezidenti Draqoş-Paul Ungureanu ilə görüşüb. Nazirlikdən verilən məlumata görə, görüşdə Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə "yaşıl maliyyələşdirmə" və investisiyalar, KOB-un inkişafı və sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması, düşməndən təmizlənən ərazilərin bərpası və bərk məişət tullantılarının idarə olunması layihələrinin maliyyələşdirilməsi kimi məsələlər nəzərdən keçirilib.**

Tərəflər Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə COP29 çərçivəsində əməkdaşlığa, habelə iqlim gündəliyinə xüsusi diqqət yetirməklə Azərbaycanın investisiya prioritetləri, layihələrin maliyyələşdirilməsi imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.



## Naxçıvanda bərpaolunan enerjinin həcmi artır

**Naxçıvan Muxtar Respublikasının enerji istehsalında "yaşıl enerji"nin payı 13,5 faizə çatıb.**

Bunu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli "X" sosial şəbəkəsindəki hesabında yazıb.

"Belə ki, külək və günəş elektrik stansiyalarında istehsal olunan "yaşıl enerji"nin payı may ayında 12,7 faiz olub, iyun ayında isə bu rəqəm 13,5 faizə yüksəlib", – deyə F. Nəcəfli bildirib.

# Özbəkistan QHT-ləri COP29-u dəstəkləyirlər

**Azərbaycanın Mərkəzi Asiyada strateji müttəfiqi, dost Özbəkistanda bu ilin noyabr ayında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasına (COP29) maraq olduqca yüksəkdir. Bu ölkənin 100-ə yaxın qeyri-hökumət təşkilatı adından qəbul olunmuş bəyanat da bunu təsdiqləyir.**



COP29 sədrliyinə səmimi dəstək ifadə edən sənəddə bildirilib ki, Tərəflər Konfransının 29-cu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasını əhatə edən bu tədbir, həmçinin maliyyə sahəsində ilk genişləndirilmiş şəffaflıq strukturunu və yeni kollektiv kəmiyyət hədəfi üzərində işi tamamlayacaq. Eyni zamanda, Elmi və Texnoloji Məsləhət üzrə Yardımçı Orqanın və Həyatakeçirmə üzrə Yardımçı Orqanın 61-ci sessiyaları keçiriləcək.

Qeyd olunub ki, Özbəkistan qlobal iqlim problemlərinə qarşı mübarizənin kritik əhəmiyyətini qəbul edən bir dövlət kimi 1993-cü ildən bu yana BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfidir və Paris Sazişinin iştirakçısıdır: "Biz COP29 və Azərbaycanın rəhbərliyi ilə beynəlxalq arenada iqlim fəaliyyətinin təşviqində nümayiş olunan liderliyi yüksək qiymətləndiririk. Artan əhali və şəhərləşmə proseslərinə baxmayaraq, Özbəkistan təbii ehtiyatlardan daha davamlı istifadəyə və qeyri-sabit istehlak və istehsal nümunələrinə son qoymağa çalışır. Ölkə iqlim dəyişmələrinin təsirlərinə qarşı xüsusilə həssasdır, buna görə sənaye, kənd təsərrüfatı və nəqliyyat sektorlarının karbonsızlaşdırılması və yeni reallıqlara uyğunlaşma Özbəkistan üçün həyati əhəmiyyət daşıyır", – deyə bəyanat müəllifləri bildiriblər.

Özbəkistan vətəndaş cəmiyyətinin gələcək nəsillərə zərər vermədən mövcud ehtiyacların ödənilməsinin vacibliyini qəbul edərək iqtisadi artım və ətraf mühitin qorunması arasında tarazlığa nail olmaq üçün səylər göstərdiyini bildirən QHT nümayəndələri qeyd ediblər ki, iqlim dəyişmələrinin həlli çox vacibdir, təsirləri azaltmaq, həssas icmaları qorumaq və mühüm ekosistemləri mühafizə etmək üçün cəsarətli və qətiyyətli addımların vaxtı gəlmişdir.

Özbəkistan vətəndaş cəmiyyətinin COP29 sədrliyini və Azərbaycanın dialoq, əməkdaşlıq və innovasiyaların inkişafına sadiqliyini yüksək qiymətləndirdirdiyini vurğulayan bəyanatda daha sonra bildirilib: "Zəngin mədəni və təbii irsə malik olan Azərbaycan təkcə qiymətli ekoloji resursların mühafizəçisi kimi deyil, həm də ətraf mühitin və iqlim dəyişmələrinə qarşı tədbirlərin fəal müdafiəçisi kimi çıxış edir. Özbəkistan qarşıdan gələn COP29 danışıqları zamanı Azərbaycanın əhəmiyyətli konsensus nəticələrinə nail olacağına dair nikbinliyini ifadə edir. Özbəkistan vətəndaş cəmiyyəti iqlim fəaliyyətini sürətləndirmək və planetimiz üçün parlaq bir gələcək yaratmaq məqsədilə COP29-a sədrlik edən Azərbaycan ilə həmrəydir.

Biz iqlim dəyişmələri ilə mübarizədə həm insanların, həm də təbiətin inkişaf etdiyi bir dünya qurmaqda töhfə vermək fürsətimizi həvəslə gözləyirik".

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

## Birinci Qarabağ müharibəsinin daha beş şəhidi dəfn edilib

**Qalıqları Xocalı rayonu ərazisində aşkar edilən Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan şəhidlərin - Usubəli Süleyman oğlu Qarayev, Şahin Talış oğlu Məmişov, Ələddin Bəhlul oğlu Paşayev, Nemət Musa oğlu Şahmuradov və Zakir Kamran oğlu Usubovun nəşi Xocalı şəhəri Şəhidlər xiyabanında dəfn olunub.**



Qeyd edək ki, Xocalı şəhərinin mərkəzində (keçmiş Xalça fabrikinin yaxınlığında) aparılan qazıntı işləri zamanı kütləvi məzarlıqda qalıqları aşkarlanan və şəxsiyyətləri dəqiqləşdirilmiş 7 nəfər bu il martın 31-də rayonun Şəhidlər xiyabanında torpağa tapşırılıb.

***XQ***

# Şamaxının “Kolizeyi”

**Şamaxı Azərbaycanın ən qədim elm və mədəniyyət mərkəzlərindən biridir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



Dünyanın qədim şəhərlərinin əksəriyyəti daha çox özünün möhtəşəm tikililəri ilə diqqəti cəlb edib. Moskva Kremllə, Paris Eyfel qülləsi ilə, Sankt-Peterburq Ermitajla, London Temza çayı üzərindəki asma körpüləri ilə, Roma da öz Kolizeyi ilə məhşur olub. Kolizey demişkən, İtaliyanın bir neçə şəhərində, o cümlədən Pompey və Veronada da antik dünyanın yadigarları olan kolizeylər var. Amma onlardan heç biri Roma Kolizeyi qədər əzəmətli və məşhur deyil. Odur ki, İtaliyada olan hər kəs artıq uzun illərdir ki, bir növ Romanın loqosuna çevrilmiş olan Kolizeyi görmək, ən azı orada bir xatirə fotosu çəkdirmək istəyir.

Azərbaycanın qədim şəhərlərinin kolizeyləri olmasa da, hər halda hər birinin özünəməxsus memarlıq üslubu ilə seçilən əzəmətli tikililəri olub. Bakı Qız qalası və Şirvanşahlar Saray Kompleksi, Təbriz Göy məscidi, Naxçıvan Möminəxatun məqbərəsi, Şuşa və Dərbənd əzəmətli qala divarları, Gəncə İmamzadə kompleksi ilə daha çox tanınıb. Bu sıraya elə ən azı qədim Roma qədər yaşı və parlaq keçmişi olan qədim Şamaxını da əlavə etmək yerinə düşər. Bəli, Şamaxı antik dövrə aid yunan və Roma mənbələrində adı çəkilən qədim Azərbaycan şəhərlərindəndir. 1939-cu ildə rayonun Xınıslı kəndi ərazisində təsərrüfat işləri zamanı içərisində 300 ədəddən çox sikkə olan dəfinənin tapılması qədim Şamaxının tarixinin dərindən və hərtərəfli öyrənilməsi yolunda dönüş mərhələsi oldu. Dəfinədə qeydə alınan Roma denarisi, Arşaki draxmaları, Afina, Frakiya və Selevki texradmaları, sözsüz ki, Şamaxının hələ eramızdan əvvəl I əsrdən etibarən antik dünya ilə ticarət və mədəni əlaqələrdə olduğunun göstəricisidir. Maraqlıdır ki, həmin dəfinədə başqa ölkələrə məxsus sikkələrlə bir yerdə 72 ədəd qədim alban pulları – mis sikkələr də vardı. Bu, Albaniya ərazisində aşkar olunmuş yerli pullara aid ilk tapıntı idi.

1958-73-cü illərdə professor Cabbar Xəlilovun rəhbərliyi ilə aparılan arxeoloji tədqiqatlar zamanı Xınıslı ərazisində qədim Şamaxının şəhər mədəniyyəti tarixinə dair çoxsaylı nadir maddi mədəniyyət nümunələri aşkar olundu. Ötən əsrin 80-90-cı illərində professor Hüseyn Ciddinin rəhbərliyi ilə şəhər ərazisində davam etdirilən tədqiqatlar Şamaxı tarixinə dair bilgilərimizi daha da zənginləşdirmiş oldu. Amma Şamaxı şəhərinin keçmiş ehtişamından xəbər verən ən səs-küylü tapıntı 2009-cu ildə üzə çıxdı. Belə ki, şəhər 1 nömrəli tam orta məktəb üçün yeni tədris korpusu tikmək məqsədilə bünövrə yeri qazılarkən orada qalınlığı 2,5 m olan qədim divar qalıqları üzə çıxdı. Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən ərazidə başlanan ilkin tədqiqatlar zamanı orada oval formalı nəhəng tikintinin bir hissəsi aşkar edildi. Çox ehtimal ki, binanın üst qatları tam olaraq dağıdılıb, aşkar olunan qalıqlar isə binanın bünövrəyə daha yaxın hissələridir. Şamaxının yaşlı sakinlərinin dediyinə görə 1940-cı ildə 1 nömrəli məktəb üçün bina tikilərkən də onun bünövrə yerindən iri tikinti qalıqları üzə çıxıbmış.

Diqqəti cəlb edən odur ki, indiki halda aşkar olunmuş divar qalıqlarında cəmisi bir yerdə kiçik çat müşahidə olunmaqdadır. Bu o deməkdir ki, 1132, 1667, 1859, 1872 və 1902-ci illərdə Şamaxıda olmuş dağıdıcı zəlzələlər belə həmin binanı sarsıda bilməmişdir. Əfsuslar olsun ki, 1940-cı ildə məktəb binası tikilərkən inşaatçılar nəzarətsizlikdən və etdikləri hərəkətin mahiyyətini anlamadıqlarından həmin divar qalıqlarını söküb, dağıdaraq onun daşından yeni tikintidə istifadə ediblər.

2010-2014-cü illərdə arxeoloq Şirzad Əhmədovun rəhbərliyi ilə davam etdirilən arxeoloji tədqiqatlar nəticəsində qeyd olunan tikintinin bir sıra mühüm konturları tam şəkildə aydınlaşdırılmış oldu. Məlum oldu iki, diametri təqribən 25 m olan bu oval formalı bina ümumilikdə 9 otaqdan ibarətdir. Hər birinin sahəsi təqribən 25-30 kvadratmetr olan otaqlardan beşi düzbucaqlı formada, hər birinin sahəsi təqribən 20 kvadratmetr olan digər dörd otaq isə üçbucaqvarı formadadır. Xatırladaq ki, binanın şimal-qərb və şimal-şərq, habelə cənub-qərb və cənub-şərq kənarındakı otaqların çöl divarları qövsvari olduğundan həmin otaqlar da üçbucaqvari formadadır. Maraqlıdır ki, otaqlardan bəzilərinin içərisi 4 m dərinliyədək təmizlənsə də hələ ki, qapı və pəncərə yerləri üzə çıxmayıb. Əlbəttə ola bilməz ki, həmin otaqlara giriş-çıxış üçün qapı yeri olmasın. Ehtimal ki, binanın içərisinin öyrənilməsi davam etdirilərsə daha aşağı səviyyədə qapı və pəncərə yerləri də üzə çıxacaqdır.

Binanın çay daşı və tuf daşlardan istifadə olunmaqla inşa edilmiş əsas divarların qalınlığı 2,5 metr, arakəsmə divarların qalınlığı isə 2 metr təşkil edir. Tikintidə bərkidici material kimi kirəc məhlulundan istifadə olunub. Fikrimizcə, binanın divarlarının bu dərəcədə qalın və möhkəm olması, sözsüz ki, onun yeraltı təkanlara və yükgötürücülük qabiliyyətinə hesablanmış bir yanaşma kimi dəyərləndirilə bilər. Bu amil həm də bəhs olunan tikintinin ən azı bir neçə mərtəbədən ibarət olduğunu deməyə əsas verir.

Yeri gəlmişkən orta əsr Avropa səyyahlarının Şamaxı ilə bağlı rəsmlərində cənubdan baxanda şəhərin nisbətən yuxarı hissəsində hündür qülləyə bənzər bir bina yer alıb. Maraqlıdır ki, təqdim olunan rəsmlərdə həmin binanın da çoxmərtəbəli olduğu görünür. Rəsmlərdən də göründüyü kimi həmin binanın ən üst qatında iki, ondan aşağıdakı qatda isə daha bir pəncərəsi olub. Çox ehtimal ki, məktəbin yanında aşkar olunan oval formalı tikinti məhz Orta əsr Avropa səyyahlarının Şamaxı ilə bağlı rəsmlərində yer alan həmin qülləyəbənzər çoxmərtəbəli binanın qalıqlarıdır. Məlum olduğu kimi, Orta əsrlərə aid qüllәvari formada olan hündür tikililər Şirvan-Abşeron memarlıq məktəbi üçün çox xarakterikdir. Bakı Qız qalası, Mərdəkan qalası, Abşeron yarımadası boyunca olan çoxsaylı memarlıq abidələri buna əyani misaldır. Bu mənada Şirvanşahların erkən paytaxtı olan Şamaxıda da orta əsrlərə aid belə tikililərin olması təbiidir.

Əfsuslar olsun ki, belə bir möhtəşəm abidə hələlik arxeoloji baxımdan tam açılmayıb və yetərincə öyrənilməyib. Başqa sözlə, bizə bəlli olmayan səbəblər ucbatından 2014-cü ildən etibarən abidənin arxeoloji tədqiqi yarımçıq saxlanılıb. Tikintinin üçdə birini təşkil edən qərb hissəsindəki üç otaq isə hələ ki, 1№-li məktəbin altında qalmaqdadır.

Hesab edirik ki, indiki halda abidənin 1 nömrəli məktəbin altına düşməyən hissəsində arxeoloji tədqiqatları davam etdirmək, Şamaxının loqosu ola biləcək bu abidəni tam olaraq üzə çıxarmaq, onun dərindən və hərtərəfli öyrənilməsi işini bir an belə nə ləngitmək, nə də təxirə salmaq olar. Çünki bu tikili hələlik Şamaxının uzaq keçmişindən bu günə boylanan ən möhtəşəm abidəsidir.



Şamaxı şəhərində qüllə formalı binada aparılan arxeoloji qazıntıların görüntüləri



Qüllə formalı binanın sxematik planı

Arayış üçün onu da bildirək ki, Şamaxı şəhər 1 nömrəli orta məktəbin binası divarlarında bir neçə yerdə çox ciddi çatlar olduğundan istifadəyə tam olaraq yararsız vəziyyətdədir. Odur ki, qəzalı məktəb bimasının nə vaxtsa söküləcəyi necə deyərlər artıq gündəmdədir. Təbiidir ki, o zaman qeyd olunan tarixi abidənin qərb kənarı boyunca olan digər üç otağı da daxil olmaqla tam olaraq açılaraq tədqiqi mümkün olacaqdır.

Bəzi tədqiqatçılar qeyd olunan abidənin Şirvanşahlara aid saray kompleks olduğunu və XI-XII əsrlərdə inşa edildiyini bildiriblər. Fikrimizcə, onun Şirvanşahlara aid saray kompleks, yaxud da hər hansı bir ictimai bina olduğunu söyləmək hələ tezdir. Hesab edirik ki, yalnız yeni tədqiqatlar onun dövrü və təyinatı barədə son söz deməyə imkan yaradacaqdır. Amma bu işləri görməzdən öncə belə bəlli olan bir həqiqət var. Həmin həqiqət də ondan ibarətdir ki, şəhərin Qalalar ərazisində, yəni İç qala hesab edilən yerdə göylərə yüksələn bu bina hələlik Şamaxının tarixi keçmişindən xəbər verən ən əzəmətli tikilidir. Əminliklə deyə bilərik ki, bu abidə tam olaraq öyrənildikdən və konservasiya edilərək cəmiyyətə təqdim edildikdən sonra Şamaxıda hər kəsin ilk növbədə görmək arzusunda olduğu ünvana çevriləcək. Romaya gedən insanlar ilk növbədə Kolizeyi ziyarət etdiyi kimi, Şamaxıya gələn qonaqlar və turistlər də birinci növbədə haqqında bəhs etdiyimiz bu möhtəşəm tarixi binanı görməyə tələsəcəklər. Yəni, bu da bir növ Şamaxının özünəməxsus “Kolizeyi” olacaqdır.

***Qafar CƏBİYEV,***
***AMEA Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, professor***

**Bu gün hər kəs fırıldaqçı ilə qarşılaşa bilər. İnsanlıq tarixinin ən qədim “peşəsi” indi də özünü tam başqa sahədə göstərir. 20 il əvvəl məşhur fırıldaqçılıq halları dəmiryolu və ya avtovağzal stansiyaları ətrafında qanunsuz valyuta mübadiləsi və müxtəlif fırıldaq oyunlarla kifayətlənirdisə, indi mənzərə tam fərqlədir. Niyyət eyni olaraq qalır, sadəcə, indi aldatma texnologiyaları başqadır. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, təəssüf ki, fırıldaqçılardan da yan keçmir və kiberdələduzlar indi də vətəndaşların cibinə debet və ya kredit kartı vasitəsilə girirlər. Belə halların Azərbaycanda da artması kibercinayətlərə qarşı mübarizəni daha da sərtləşdirməyi tələb edir. Əslində, mübarizə aparılır, amma bu prosesə öz töhfəsini vətəndaşlar da verə bilərlər. Bunun üçün kibersavadlılıq səviyyəsini artırmaq tələb olunur.**

# Kiberdələduzluq sürətlə kütləviləşir

## Hər kəs özünü bu hücumlardan qorumağı bacarmalıdır

Bu bir reallıqdır ki, fırıldaqçılar həmişə yaradıcı olublar. Texnologiya da təəssüf ki, onların vətəndaşları çaşdırmaq, aldatmaq imkanlarını xeyli genişləndirir. Kibercinayətlər üzrə mütəxəssislər deyirlər ki, fırıldaqçılar hər hansı bir ictimai rezonans doğuran hadisələrdən fəal şəkildə istifadə edirlər. Məsələn, bir çox ölkələrdə sərhədlər bağlandıqdan sonra dələduzlar insanlara zəng edərək, alınan biletlərin və otel rezervasiyalarının pulunu qaytarmaq üçün öz xidmətlərini təklif etməyə başlamışdılar.

Başqa bir “koronavirus” fırıldaqçılıq üsulu da internet məkanını bürümüşdü. Cinayətkarlar özünü bank işçisi kimi təqdim edərək, hər hansı bir vətəndaşa zəng edə və kəskin gəlir itkisi ilə əlaqədar həmin şəxsə maddi yardım göstəriləcəyini deyirdilər. “İtkinin” qeydiyyatı üçün zəng edənlər bank kartı məlumatlarını bildirmələrini xahiş edirdilər. Kart sahibi də bank kartının məlumatlarını, etibarlılıq müddətini və CVV kodunu zəng edən fırıldaqçıya verir və nəticədə müəyyən vəsait itkisi ilə üzləşirdilər.



Rusiyada fırıldaqçılar dövlət xidmətləri portalını təqlid edən və guya uşaqlı ailələrə müavinətlərin ödənilməsinə həsr olunmuş saxta internet saytları yaratmışdılar. Saxta saytı xarici görkəm olaraq ya rəsmi portalı kimi kopyalayır, ya da ona çox bənzədirdilər. Belə saxta saytlarda fırıldaqçılar rusiyalı vətəndaşlardan bank hesabı nömrəsini daxil etməyi xahiş edirdilər. Fırıldaqçılar kart sahibi ilə əlaqə saxlayır və bildirirlər ki, kimsə kartı başqa telefon nömrəsinə bağlamağa çalışır. Həmin insanın şəxsiyyətini müəyyən etmək üçün kart sahibindən kart məlumatlarını təqdim etməsini xahiş edirdilər. Bundan sonra fırıldaqçılar kartdan köçürmə həyata keçirir, müştəri bankdan təsdiq kodu alır və kodu fırıldaqçılara ötürürdü. Kodu öyrəndikdən sonra cinayətkarlar həmin pulu başqa karta köçürürdülər.

Kiberdələduzlar özlərini broker və ya diler şirkətinin işçiləri kimi də təqdim edirlər. Cinayətkarlar “qurbanlarına” təklif edirlər ki, yüksək gəlir zəmanəti ilə pul yatırsınlar. Həmin şəxs sonda hesab açmağa razılaşır və pulu müstəqil şəkildə fırıldaqçılara ötürür. Dələduzlar da telefon nömrəsində bir rəqəmi dəyişirlər və bu əhəmiyyətli detal kart sahibinin diqqətdən yayınır. Bundan sonra fırıldaqçılar kart məlumatlarını, CVV və ya CVC kodunu, SMS kodunu və ya onlayn bank parollarını istəyirlər. Bunu onunla əlaqələndirirlər ki, guya şübhəli əməliyyatın qarşısını alırlar. Ancaq bank əməkdaşının belə bir tələblə və ya istəklə kart sahibinə müraciət etməsi qanunsuzdur.

Cinayətkarlar özlərini bank işçisi kimi də təqdim edir və müxtəlif bəhanələrlə telefona məsafədən idarəetmə proqramı yükləməyi təklif edə bilərlər. Məsələn, fırıldaqçılar deyə bilərlər ki, bu, guya müştərini kənar şəxsin icazəsiz pul çıxarmasından xilas edəcək. Daha sonra vətəndaş göndərilən linkdən “xüsusi antivirus” və ya “məsafədən yardım proqramı” yükləyir. Kibercinayətkarlıqla mübarizə mütəxəssislərinin sözlərinə görə, burada ən təhlükəlisi fırıldaqçının telefonun ekranını görməsidir. Əgər telefon “Android” əməliyyat sisteminə malikdirsə, dələduzlar bu “smartfon”u idarə edə bilər. Həmin telefonun əməliyyat sistemi “iOS”-dursa, o zaman ekranı görə biləcək. Burada hiylə ondan ibarətdir ki, fırıldaqçılar daha sonra hesabdan pul köçürmək üçün əməliyyata başlayırlar və həmin dələduz dərhal ekranda görünən kodu götürməyə imkan tapır. Nəticədə kart sahibinin hesabından vəsait oğurlanır.

Cinayətkarlar şəxsin şəxsi məlumatlarını sosial şəbəkələr və o cümlədən bank müştəri məlumat bazalarından öyrənə bilərlər. Çox vaxt belə məlumat bazalarında hətta bir şəxsin pasport məlumatları, balansı, son əməliyyatları və s. kifayət edir. Başqasının kartına ödəniş etmək cəhdi ilə onun nömrəsinə görə sahibinin adını öyrənmək də mümkündür.

Ödəniş sistemləri üzrə ekspertlər Xəyaləddin Tağıyev və Araz Həsənzadə bildirirlər ki, dünyada ən çox kart dələduzluğu məhz kartın fiziki olaraq istifadə olunmadığı məkanlarda baş verir. Beynəlxalq “beyin mərkəzləri”nin apardıqları araşdırmalara görə, kart fiziki olaraq təqdim edilmədən aparılan əməliyyatlar üzrə fırıldaqçılıq halları nəticəsində 2018-2023-cü illər arasında dünyada təqribən130 milyard ABŞ dolları məbləğində vəsaitin itiriləcəyi proqnozlaşdırılırdı.

Bəs fırıldaqçılar kredit kartınızdan pul çıxarıblarsa nə etməli? Pulunuzu geri qaytarmaq mümkündürmü? Belə arzuolunmaz hal ilə qarşılanda dərhal banka və sonra isə polisə müraciət etmək lazımdır. Bu məsələdə günahkar olduğunuz təqdirdə, çox güman ki, pulu geri qaytarmaq mümkün olmayacaq. Əks halda, bu hadisədə sizin heç bir günahınızın olmadığı aşkara çıxarılarsa, pulun geri qaytarılması ehtimalı çox yüksəkdir.

Kart sahibləri bilməlidirlər ki, heç bir bank əməkdaşı kartın üzərindəki CVV kodunu – yəni 3 rəqəmli kodu, SMS vasitəsilə gələn 3D təhlükəsizlik kodunu istəyə bilməz. Eyni zamanda, rəsmi olmayan mobil tətbiqlərin istifadəsi təhlükə mənbəyidir. Bundan başqa, son illər populyarlıq qazanan onlayn satış platformalarından alış-veriş edərkən rəsmi, etibarlı satış kanallarından istifadə edilməsi mütləqdir. Mütəxəssislər alış-veriş üçün karta limitin tətbiq olunmasını və kart məlumatlarının saytın yaddaşında saxlanılmamasını məsləhət görürlər.

Dövlətin müvafiq orqanları kiberdələduzluğa qarşı mübarizə aparır. Amma vətəndaşın da belə hallarla qarşılaşmaması üçün bir sıra mühüm biliklərə malik olması lazımdır. Təhlükəli görünən saytlardan, tətbiqlərdən və fayllardan istifadə etmək təhlükəlidir. Sistemdən və ya proqramlardan istifadə edərkən qoşulan şəbəkəyə diqqət yetirmək vacibdir. Pulsuz Wi-Fi xidmətləri təhlükəsiz olmaya bilər. Kompüterin və ya mobil telefonların şəbəkə üzərindən hücuma məruz qalmaması üçün əmin olmadığınız şəbəkə xidmətlərinə qoşulmaq məsləhət deyil.

Bir sözlə, tövsiyə olunan sadə addımlara əməl etməklə kiberdələduzluğa məruz qalmamaq mümkündür. Əks təqdirdə, maliyyə itkiləriniz qaçılmaz olacaq.

***S.ELAY***
***XQ***

Azərbaycan Yazıçılar İttifaqı – 90

# Ulu sözün milli məbədgahı

**Yazıçı və şairlərimizin, tərcüməçilərimizin ən böyük ictimai təşkilatı olan Azərbaycan Yazıçılar Birliyi (AYB) müdriklik çağlarını yaşayır. 1934-cü il iyununda Bakıda Azərbaycan yazıçılarının I qurultayında yaradılmış bu qurumun əsas məramı yazarları bir təşkilatda birləşdirmək, onların yaradıcılıqlarını təbliğ və təşviq etmək olub. Birlik hər zaman söz sənətinə sadiq qalıb, Azərbaycan dilinin qorunub saxlanmasında, inkişafında mühüm rol oynayıb.**




Daha əvvəllər dərnək, cəmiyyət, ittifaq şəklində yaradılaraq fəaliyyət göstərən bu təşkilat dəfələrlə sınağa da çəkilib, bağlanmaq təhlükəsi də olub, amma hər zaman mövqeyini qoruyub saxlaya bilib. Yeri gəlmişkən onu da xatırladaq ki, hələ 1925-ci ildə gənc yazıçılar indi 105 illik yubileyini qeyd etməyə hazırlaşdığımız qəzetimizin (o vaxt "Kommunist" adlanırdı) ətrafında birləşərək "Gənc qızıl qələmlər cəmiyyəti"ni təşkil ediblər. Həmin cəmiyyətin başlıca vəzifəsi fəhlə və kəndlilərin zövqünə müvafiq ədəbiyyat yaratmaq idi.




İndiyədək AYB-nin neçə-neçə fədakar rəhbəri olub. İlk sədr Məmmədkazım Ələkbərli millətçi-pantürkist damğası ilə güllələnib. Sonrakı dövrdə Seyfulla Şamilov da repressiyanın qurbanı oldu. Doğrudur, onu güllələmədilər, sürgün etdilər və düz 17 ildən sonra Sibirdən qayıtdı. Ardınca Rəsul Rza (1938–1939), Süleyman Rəhimov (1939–1940, 1944–1945, 1954–1958), Səməd Vurğun (1941–1944, 1945–1948), Mirzə İbrahimov (1948–1954, 1965–1975, 1981–1986), Mehdi Hüseyn (1958–1965), İmran Qasımov (1975–1981), İsmayıl Şıxlı (1986–1987) və hazırkı sədr Anar həm ədəbiyyata layiqincə xidmət edib, həm də qurumun təşkilati işlərini aparıblar.

**Birliyin mətbuat xidmətinin rəhbəri şair Xəyal Rza ilə yubileyqabağı söhbətimiz oldu. Müsahibimiz dedi:**

– Bu gün AYB-nin "yük"ünü Anar müəllim Çingiz Abdullayev, İlqar Fəhmi, Səlim Babullaoğlu, Elçin Hüseynbəyli, Rəşad Məcid, Rauf Aslanov və digərləri ilə birlikdə çiyinlərində daşıyır. Regionlarda yaradıcılıq təşkilatının bölmələri fəaliyyət göstərir və ədəbi mühitin qaynar həyatını təmin edirlər. "Azərbaycan", "Ulduz", "Literaturnıy Azerbaydjan", "Qobustan" dərgiləri, "Ədəbiyyat qəzeti", "Mütərcim" və Dünya ədəbiyyatı" topluları müntəzəm nəşr olunur.

Son illərin yaddaşı: Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr edilən "Əbədi ömrün yüz ili", bir də Böyük Zəfərə aid "Qarabağ dastanı – 30 ilin həsrəti, 44 günün zəfəri" xeyli dərəcədə gərəkli salnamələrdir. Bu kitabların bilavasitə ideya müəllifi, müəyyən konsepsiya quranı məhz birliyin sədri Xalq yazıçısı Anar olub.

Söhbətimizdə dönə-dönə vurğulandı ki, 90 yaşlı "qocaman" Yazıçılar Birliyinin son illərdə var olması, bu qədər nüfuzlu qalması, bunca söz sahibi olması, əlbəttə, xeyli dərəcədə Anarın adı və zəhməti ilə bağlıdır. Elə Anarın ilk baş redaktoru olduğu və bir növ əziz balası saydığı, bu il 55 yaşı tamam olan "Qobustan" dərgisinin Yazıçılar Birliyinin 90 illiyinə həsr olunan yay sayında bu barədə ətraflı və səmimi etiraflar var. Yubiley münasibətilə yazılmış çox sayda məqalə və təbriklər dərgidə yer alıb. Anarla "AYB – 90" mövzulu video-müsahibə də dərginin ilk səhifəsində QR kodda yerləşdirilib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli "Azərbaycan Yazıçılar Birliyinin tarixi, taleyi, bu günü və sabahı" məqaləsində 90 illik tarixin mühüm məqamlarını özünəməxsus şərhləri ilə təqdim edib. Həmçinin uzun illər AYB-də çalışmış Xalq yazıçısı Elmira Axundova "Həyatımın xoşbəxt illəri" məqaləsində həm şəxsi xatirələrini, həm də birliyin keçdiyi tarixi mərhələləri bölüşüb. Bu il yubileyləri olan Xalq yazıçısı Çingiz Abdullayev və şair Rəşad Məcidin yaradıcılığını incələyən təbrik məqalələri də dərginin bu sayında yer alıb.

Qeyd edək ki, AYB-nin yubiley tədbirləri hələ yaz aylarından başlayıb və ilin sonuna qədər davam edəcək. May ayında Elmlər parkında təşkil edilən möhtəşəm III Türk Dünyası Kitab və Ədəbiyyat Festivalı çərçivəsində "AYB – 90" paneli xüsusilə yaddaqalan olub. Tədbiri Xalq yazıçısı Anar açaraq AYB-nin ötən 90 ildə keçdiyi şərəfli yola nəzər salıb, rəhbərlik etdiyi qurumun ölkəmizdə ədəbiyyatın və ədəbiyyatşünaslığın inkişafında, eləcə də yazıçılar nəslinin yetişməsində müstəsna xidmətləri olduğunu bildirib.

Sonra çıxış edən akademik İsa Həbibbəyli AMEA ilə AYB-nin Azərbaycanın milli-mənəvi dəyərlərinin, Azərbaycan dili və ədəbiyyatının qorunub saxlanmasında uzun illərdən bəri birgə fəaliyyət göstərdiyini söyləyib. Bildirib ki, Azərbaycan Yazıçılar Birliyi daim azərbaycançılıq ideologiyasına şərəflə və məsuliyyətlə xidmət edib. Sovet rejiminin ən sərt illərində belə bu qurum ədəbiyyatımızı, milli kimliyimizi, ana dilimizi qorumaq üçün əsl qəhrəmanlıq nümayiş etdirib.

Xalq yazıçısı Anarın Azərbaycan Yazıçılar Birliyinə sədrliyini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli onun AYB-ni öz fəaliyyətində yeni mərhələyə qaldırdığını, Azərbaycan ədəbiyyatının keşiyində dayandığını, eləcə də yazıçı və şairlərimizin yeni nəslinin yetişməsində mühüm işlər gördüyünü vurğulayıb. Paneldə, həmçinin AYB sədrinin müavini Elçin Hüseynbəyli, AYB-nin Türkiyə təmsilçisi İmdat Avşar, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Asif Rüstəmli, "Qobustan" jurnalının baş redaktoru Pərvin və başqaları çıxış ediblər.

Mötəbər yaradıcılıq təşkilatının 90 illiyinə həsr edilmiş "Milli ədəbi-bədii, ictimai-siyasi təfəkkür" kitabı da yubileyə layiqli töhfədir. Bu yaxınlarda unudulmaz tarixi toplantıların ünvanı olan Natəvan klubunda kitabın təqdimatı olub. Monoqrafiyanın "Ön söz əvəzi"ndə vurğulandığı kimi, Yazıçılar Birliyi ədəbi-ictimai fikrin əsas inkişaf mərkəzlərindən biridir. Buraya daxil olan kimi müqəddəs məkan ab-havasına düşürsən. Portretlərdən boylanan dahi Nizami, Nəsimi, Vaqif, Sabir, Əhməd Cavad, Müşfiq sanki bunu adama təlqin edirlər. Birliyin otaqlarında kimlər oturmayıb?! AYB hər bir yazar üçün doğma məkandır. Elə dəhliz divarlarındakı portretlər – "Xalq şairləri", "Xalq yazıçıları", "Nakam taleli yazarlarımız", "Şəhid şairlərimiz", "Alimlər, tənqidçilər" guşələri 90 yaşlı şeir-sənət məbədinin tarixini pıçıldayır...

Təqdimat mərasimində AYB-nin 1-ci katibi Çingiz Abdullayev bütün qələmdaşlarını yubiley münasibətilə təbrik etdi, töhfə-kitabın çapını yüksək dəyərləndirdi. Filologiya elmləri doktoru, professor Asif Rüstəmli AYB-nin onilliklərlə ziyalı ocağı olmasından danışdı, kitab haqqında özəl mülahizələrini bölüşdü. Poeziyamızın ağbirçək şairi Firuzə Məmmədli, AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologoya elmləri doktoru Vaqif Yusifli təşkilatda ilk üzvlük sevincindən, hazırda üzvlərinin sayı 3 mini ötən yaradıcılıq təşkilatının mənəvi tərbiyədə rolundan bəhs etdilər. "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə mədəniyyət tariximizə diqqətin vacibliyini qeyd etdi, AYB-nin və dəyərli söz sənəti tribunası olan "Azərbaycan"ın 1 əsrlik xidmətlərini önə çəkdi. Yeni kitabın işıq üzü görməsində fədakarlığı ilə seçilən filologiya üzrə elmlər doktoru Salatın Əhmədli, filologiya elmləri doktoru, professor Təyyar Salamoğlu və başqaları da yubiley və kitabla bağlı ürək sözlərini söylədilər. Kitabın tərtibçisi – şair, ədəbiyyatşünas, publisist Gülxani Pənah yubileyə töhfə kimi hazırladığı toplunun mündəricatı və ayrı-ayrı bölümləri barədə məlumat verdi və söylənən xoş sözlərə görə minnətdarlığını bildirdi. Sonda məclisin iştirakçılarına yeni kitabın nüsxələri hədiyyə edildi.

İki gün sonra – iyulun 14-də daha bir möhtəşəm yubiley tədbiri Beynəlxalq Muğam Teatrında keçiriləcək. Artıq xaricdən qonaqlar da gəliblər. TÜRKSOY-un keçmiş baş katibi, Qazaxıstanın Əməkdar incəsənət xadimi Dusanbay Kaseinov, Türkiyənin görkəmli söz adamları Ataol Bəhrəmoğlu və Ömər Kiçik Mehmetoğlu, "Elm və Ədəbiyyat Əsəri Sahibləri" İctimai Birliyinin (İLESAM) sədri, şair Mehmet Nuri Parmaksız, AYB-nin Türkiyə təmsilçisi İmdat Avşar, Özbəkistan Yazıçılar Birliyinin 1-ci katibi Minxaciddin Xodjimat, Çukurova Ədəbiyyatçılar Dərnəyinin Qırğızıstan üzrə rəhbəri, "Yangi Ovoz" Orta Asiya Yazıçılar Birliyinin sədri Joldoşbek Monoldorov və başqaları yubileyə qatılmazdan öncə Şuşa və Laçına tanışlıq səfərinə yollanıblar.

Xəyal Rza onu da dedi ki, yubiley gecəsində elm adamlarımız, mədəniyyət və incəsənət xadimlərimiz də iştirak edəcəklər. Bir neçə gün sonra isə Şuşada başlanacaq ənənəvi Vaqif Poeziya Günləri çərçivəsində "AJB – 90" adlı panel təşkil olunacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

AMEA Rəyasət Heyətində

**AMEA Rəyasət Heyətinin növbəti iclasında gündəlik üzrə müzakirə olunan məsələlərdən sonra Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərovun "Azərbaycanda türklük, türkçülük və türkologiya" mövzusunda məruzəsi dinlənilib.**

# Akademiyada türkoloji dinləmə

Məruzədən öncə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli son illərdə Prezident İlham Əliyevin liderliyində Türk dünyasının mərkəzində yer aldığını, bu mövzunun artıq günümüzün reallığına çevrildiyini bildirib. O deyib ki, bu günlərdə Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə TDT-nin dövlət başçıları Azərbaycan Prezidentinin Türk dünyasının birliyinə, həmrəyliyinə, təhlükəsizliyinə və rifahına verdiyi böyük və davamlı töhfəni yüksək qiymətləndiriblər. Onu da xatırladıb ki, 98 il öncə Türk dünyasını ilk dəfə birləşdirən 1-ci Türkoloji Qurultay Bakıda keçirilib və Azərbaycan tarixən olduğu kimi, bu gün də dünya Türkologiyasının mərkəzi sayılır.



Sonra akademik Nizami Cəfərov məruzə ilə çıxış edib. O qeyd edib ki, XX əsrin əvvəllərindən etibarən Azərbaycanda türkçülük məfkurəsi sistemli bir şəkil almağa başlamış və Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və digər türkçülərin səyləri nəticəsində inkişaf edərək günümüzə qədər gəlib çatmışdır. Alim bildirib ki, türk xalqlarının geniş inteqrasiyası ilə səciyyələnən müasir mərhələdə ümumtürk mədəniyyəti və genezisinin öyrənilməsinə böyük zərurət var. "Bizim üçün əsaslandırılmış, ənənəvi türklük "Kitabi-Dədə Qorqud" eposudur. Azərbaycanda türklük xalqın etnososiokulturoloji əsası olaraq köklərini "Kitabi-Dədə Qorqud"dan alır. Coğrafi və dil müəyyənliyi var. Burada Azərbaycan Oğuzçuluğunun xüsusiyyəti çoxdur. Lakin xalq bu eposu unudub, XIX əsrin sonu – XX əsrin əvvəllərində xatırlamağa, öyrənməyə başlayıb. Müəyyən dövrlərdə qadağan olunsa da, Ümummilli lider onu yenidən özümüzə qaytardı", – deyə Nizami Cəfərov bildirib.

Azərbaycanda türkçülüyün uzun müddət daxildən və xaricdən ciddi müdaxilələrə məruz qaldığını deyən alim türkologiyanın elm kimi Avropada, türkləri öyrənmək üçün formalaşdığını, Azərbaycanda isə türkologiyanın əsasını Bəkir Çobanzadənin qoyduğunu söyləyib.

Alim məruzəsində, həmçinin Azərbaycan dilçiliyi, ədəbiyyatşünaslığı, mədəniyyətşünaslığı, tarixşünaslığında azərbaycançılıq, türklük, müasirlik (ümumbəşərilik) parametrləri, daha az diferensiasiya, daha çox inteqrasiya formulu və digər məqamlara toxunub.

Mövzu ətrafında akademik Gövhər Baxşəliyeva, tarix elmləri doktoru Zemfira Hacıyeva, professor İsmayıl Kazımov, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli və başqaları çıxış edərək fikir və təkliflərini səsləndirib, bu istiqamətdə Rəyasət Heyətinin iclasında məruzənin dinlənilməsini yüksək qiymətləndiriblər.

***XQ***

# Kuklaçılar "Dovşanın ad günü"nü keçirdilər

**Hər zaman səhnədə azyaşlı tamaşaçılara sevgini, sədaqəti və inamı təlqin edən Azərbaycan Dövlət Kukla Teatrı bu mövsüm də ənənəyə sadiq qaldı. Balacalara vəd etdiyi sürprizlərlə onların könlünü oxşadı, estetik tərbiyə ünvanı kimi üzərinə düşən öhdəliyi daha uğurla tamamladı.**



93-cü mövsümə iyulun 14-də "Dovşanın ad günü" nağıl-poeması ilə yekun vuracaq sənət ocağının kollektivi il ərzində bir-birindən maraqlı tamaşalar göstərib, müxtəlif qastrol səfərlərində olub, yerli və beynəlxalq festivallarda iştirak edib. Teatrın baş rejissoru Anar Məmmədov bildirdi:

– Bu mövsüm özümüz də iki festivala evsahibliyi etmişik. Bunlardan biri Azərbaycan və Türkiyə kuklaçılarını bir araya gətirən sənət bayramı – III Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalı idi. Türkiyənin müxtəlif teatr və sənət mərkəzlərində və Azərbaycanda qonaq kukla tetrları bir araya gəlmişdi. Yaradıcı heyətimiz qardaş ölkə tamaşaçılarına M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" marionetini və xalq nağılı əsasında səhləşdirilən "Məlikməmməd" kukla tamaşalarını təqdim etdi.

Sonra Türkiyədə keçirilən XX Beynəlxalq Bursa Qaragöz Kukla və Kölgə Oyunları Festivalına qatıldıq. Orada türkiyəli kukla və uşaq teatr təmsilçiləri ilə yanaşı, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstandan kuklaçılar yer almışdı. Beynəlxalq Kukla Teatrları Assosiasiyası və ona üzv olan ölkələrin nüfuzlu kukla teatrı mütəxəssislərinin də qatıldığı festival çərçivəsində yaradıcılıq istiqaməti üzrə müxtəlif mövzularda müzakirələr aparıldı.

Bundan başqa, teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadənin rəhbərlik etdiyi qrup Gürcüstanın paytaxtı Tibilisi şəhərində keçirilən Uşaq və Gənclər Beynəlxalq Teatr Festivalında uğurla iştirak etdi. Qastrol çərçivəsində tamaşaların hazırlanması, təcrübə mübadiləsi, ustad dərslərinin təşkili, eləcə də spesifik istiqamətlərdə kurs və qısamüddətli təlimlər keçirildi. Həmçinin Rəşad Əhmədzadə Kaliningradda reallaşan ənənəvi "Rus teatrı – xaricdə rus mədəniyyəti institutu kimi" adlı V Beynəlxalq Konfransda ölkəmizi təmsil etdi.

Öz səhnəmizə gəlincə, mövsüm ərzində biz 4 yeni tamaşa təhvil verdik. Bunlar "Dovşanın ad günü", "Ələddinin sehrli çırağı", "İtki", "Melisa" tamaşalarıdır. Bundan başqa, teatrımızın ölkədaxili səfər proqramı da geniş oldu. İşğaldan azad olunan Şuşa, Laçın, Zəngilan, Füzuli, eləcə də Hadrud və Talışda çıxışlar etdik.

Baş rejissor yeniliklərin tətbiq edildiyini də söyləyərək dedi ki, tərtibat baxımından fərqli vasitələrindən istifadə ilə hazırlanan əsər gənc yazar Sevinc Elsevərin "Lokomotiv və vaqonlar" pyesi əsasında hazırlanan eyniadlı tamaşadır. Bu yeni tamaşada uşaqlara köhnə qatar stansiyasındakı qoca və lovğa Lokomotivin timsalında xudbinlik və kobudluğun lazımsız xüsusiyyətləri, bu keyfiyyətlərin ətrafdakılar tərəfindən daim mənfi qarşılandığı göstərilir.

Səhnə əsərinin premyerası növbəti mövsümün əvvəlinə nəzərdə tutulur.

***Ceyhun ALIŞLI***
***XQ***

# "100 il şərəfli ömür" "Fəxri ad" alıb

**"Şollerin arxivi", "Edam günü" və digər filmləri beynəlxalq festivallarda mükafatlar qazanmış ssenarist və rejissor Cəlaləddin Qasımov bu günlərdə daha bir uğura imza atıb.**




Müəllifin böyük mesenat Hacı Zeynalabdin Tağıyevdən bəhs edən 30 dəqiqəlik "100 il şərəfli ömür" bədii-sənədli filmi Kanadanın Toronto şəhərində keçirilən "Geniş Ekranlı Film və Musiqili Video" festivalında "Fəxri ad" mükafatına layiq görülüb. Eyni zamanda onun quruluşçu rejissor Amil Əlioğlu və quruluşçu operator Murad Nəzərli ilə birlikdə əsəyə gətirdiyi "İkinci ömür" tammetrajlı bədii filmin ssenarisi də eyni mükafata layiq görülüb.

Böyük mesenata həsr olunan filmin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov bildirib ki, filmin çəkilməsində əsas məqsəd Hacı Zeynalabdin Tağıyevi geniş coğrafiyada tanıtmaq, həm də onun timsalında ölkəmiz haqqında insanlara geniş məlumatlar verməkdir. Xatırladaq ki, bi ekran əsəri bir müddət əvvəl Lissabon Film Festivalında da fərqlənərək sertifikata layiq görülüb. O zaman film həmin şəhərin Lusofona Universitetində müqavilə üzrə 2 il tədris vəsaiti kimi tələbələrə nümayiş etdirilib.

"Hacı Zeynalabdin Tağıyev harada yaşamasından asılı olmayaraq, soydaşlarının imdadına çatıb, Azərbaycan xalqının maariflənməsi, istedadlı insanların yüksək təhsil alması üçün zəruri tarixi missiya həyata keçirib. Hələ Bakı Dövlət Universitetində oxuduğum illərdən başlayaraq, bu görkəmli sahibkar və xeyriyyəçi haqqında çoxlu məlumatlar əldə etmişdim, bir sözlə, onunla bağlı çap olunan bütün materialları yığmışdım. Amma ağlıma da gəlməzdi ki, nə vaxtsa bu sənədlər, kitablar, fotoşəkillər mənim sənədli filmimin qəhrəmanına çevriləcək", – deyə Cəlaləddin Qasımov bildirib.

O, ekran əsərinin gələcəkdə də müxtəlif beynəlxalq festivallarda nümayişi haqqında düşünür. Hazırda isə "İkinci ömür" filmi üzərində işlər başa çatmaqdadır.

***XQ***

# “Qərb və Quran: Gələcəyə doğru rasional yanaşma”

**Bugünlərdə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İCESCO) Mərakeşdəki baş qərargahında bu mövzuda Almaniya Dialoq və Anlaşma İnstitutu ilə birgə təşkil edilən ilk beynəlxalq seminarda dünyanın tanınmış ictimai-siyasi xadimləri, islamşünaslıq və dinlərarası dialoq üzrə ekspertlər və xarici diplomatlar iştirak ediblər. Ölkəmizi məclisdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil edib.**




ICESCO-nun Sivilizasiyalararası Dialoq Mərkəzinin rəhbəri, səfir Xalid Fətəhəlrəhman, ICESCO-nun Baş direktoru Salim Əl-Malik müzakirə edilən mövzunun bəşəriyyətin rifahını təmin etmək və təhlükəsizliyi, sülhü, birgəyaşayışı gücləndirməkdə önəmini vurğulayıblar. Bildirilib ki, qurum tolerantlığı, birgəyaşayışı və sivilizasiyalararası dialoqu təşviq etmək məqsədi ilə Qurani-Kərimə qarşı mövcud müasir münasibəti düzgün işıqlandırmaq və perspektivə çevirmək üçün bir sıra seminarlar və simpoziumlar təşkil edir. Bununla da kollektiv harmoniyanın möhkəmləndirilməsi üçün dinlərə və etiqadlara qarşı nifrətlə mübarizədə maarifləndirmə təşəbbüsünün təsirli vasitə olduğu bir daha nümayiş etdirilir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov seminarda “Müasir Qərbdə Quran: çətinliklər və imkanlar” mövzusunda məruzə ilə çıxış edib. Quranla Qərb ölkələri arasındakı əlaqənin dini, mədəni, akademik və ictimai-siyasi yönlərindən bəhs edən soydaşımız müqəddəs kitabımızın təhqir edilməsini Qərbin mənəvi tənəzzülü kimi dəyərləndirib, Azərbaycanın bu sahədəki mövqeyini bölüşüb: “Gəlin dinlərarası dialoqu və təhsili inkişaf etdirməyə, İslam və Qərb arasında anlaşma körpüləri qurmağa sadiq olaq.”

Rəvan Həsənov Mərakeşə səfəri çərçivəsində ICESCO-nun Baş direktoru Salim Əl-Maliklə və Mərakeşin Gənclər, Mədəniyyət və Kommunikasiya Nazirliyinin baş katibi Samira Lemlizi ilə görüşüb, Azərbaycanın multikulturalizm siyasəti barədə onlara məlumat verib, qarşılıqlı mədəni əlaqələrin zəruriliyini vurğulayıb.

***T.RÜSTƏMLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Qərbdən əsən “soyuq müharibə” külləkləri

## ABŞ-nin son planı Moskvada narahatlıq doğurur

**ABŞ 2026-cı ildə Almaniyada daha geniş diapazonlu yeni raketlər yerləşdirməyə başlayacaq. Bu barədə çərşənbə günü axşam Ağ evin saytında dərc olunmuş ABŞ və Almaniyanın birgə bəyanatında deyilir. Söhbət xüsusilə çoxməqsədli SM-6 raketlərindən, “Tomaqavk” qanadlı raketlərindən və qeyri-nüvə avadanlıqlarında olan hipersəs raketlərindən gedir. Raketlər əvvəlcə müvəqqəti, sonra isə daimi yerləşdiriləcək. Rusiya artıq xəbərdarlıq edib ki, ABŞ-nin bu addımına adekvat cavab verəcək.**

Qərb mətbuatı yazır ki, 1980-ci illərdən bəri ABŞ Avropada belə yerüstü raket sistemləri yerləşdirməyib. Almaniyanın “Der Spiegel” jurnalının yazdığına görə, bu məsələ ilə bağlı Vaşinqton və Berlin arasında danışıqlar ciddi məxfilik şəraitində aparılıb və eyni zamanda, Almaniya hakimiyyəti yeni Amerika sistemlərinin məhz onların ərazisində yerləşdirilməsində təkid edib. Qeyd olunur ki, 1970-ci illərin sonunda Almaniyanın o zamankı kansleri Helmut Şmidt də NATO-nun ikili həlli adlanan əsas tərəfdarlarından biri olub.

Politoloqlar bildirirlər ki, Alyansın ikili həlli planı hələ 1979-cu ilin dekabrında NATO sammitində keçmiş SSRİ-nin Avropa ərazisində orta mənzilli ballistik raketlərin - ilk növbədə RSD-10 Pioneer (SS-20) istehsalına cavab olaraq təsdiq edilmişdi. Daha sonra NATO üzvləri razılığa gəlmişdilər ki, Birləşmiş Ştatlar tədricən Qərbi Avropada (Almaniya da daxil olmaqla) 600-ə qədər mobil orta mənzilli raketləri yerləşdirəcək. Eyni zamanda, SSRİ-yə ABŞ-la bu sinif silahların məhv edilməsi ilə bağlı danışıqlara başlamaq təklif edilmişdi.

Xatırladaq ki, 1987-ci ildə SSRİ və ABŞ orta mənzilli nüvə qüvvələrinə dair müqavilə imzalamışdılar. Bu müqaviləyə əsasən, tərəflərə uçuş məsafəsi 500 ilə 5,5 min kilometr arasında olan yerüstü raketlərin, eləcə də buraxılış qurğularının sınaqdan keçirilməsi qadağan edilmişdi. ABŞ 2010-cu illərin əvvəllərində Rusiyanı müqaviləni pozmaqda ittiham etməyə başlamış, 2018-ci ilin sonunda isə o zaman prezident olan Donald Tramp müqavilənin ləğvi istiqamətində qəti addım atmışdı. Vaşinqton Moskvanı özünün yeni 9M729 qanadlı raketi ilə bağlı müqavilədə nəzərdə tutulan məsafəni aşmaqda ittiham etmişdi. Moskva bunu təkzib edərək, ABŞ-a qarşı iddialar irəli sürmüşdü. Digər məsələlərlə yanaşı, Rusiya Polşa və Rumıniyada yerləşən Mk41 raketdən müdafiə sistemlərinin “Tomaqavk” qanadlı raketlərinin buraxılması üçün də istifadə oluna biləcəyindən narahatlığını bildirmişdi.



Bununla belə, Vaşinqton 2019-cu ildə müqavilədən çıxdığını elan etdi. Altı ay sonra, avqustun 2-də sözü gedən müqavilənin müddəti rəsmi olaraq başa çatdı. Müqavilə pozulduqdan sonra Rusiya bildirdi ki, ABŞ bu cür sistemləri Avropada yerləşdirməyə qərar verənə qədər öz ərazisində yerüstü orta və daha qısa mənzilli raket sistemlərinin yerləşdirilməsinə könüllü moratoriuma riayət edəcək. Eyni zamanda, hələ 2019-cu ilin sentyabrında Rusiya Prezidenti Vladimir Putin ABŞ və NATO ölkələrinin Avropa və Asiyada əvvəllər qadağan olunmuş raketlərin yerləşdirilməməsi ilə bağlı razılığa gəlməsini təklif etmiş və Rusiya tərəfinin lazımi məsələləri müzakirə etməyə hazır olduğunu açıqlamışdı. Lakin NATO bu təşəbbüsü dəstəkləməmişdi. Alyans üzvləri hesab etmişdilər ki, 9M729 raketləri artıq Rusiyanın Avropa hissəsində yerləşdirilib və NATO buna adekvat cavab verməlidir. ABŞ və NATO orta mənzilli raketlərin Avropada yerləşdirilməsinə moratoriumun müzakirəsini yalnız 2022-ci ilin yanvar-fevral aylarında, Rusiya qoşunlarının Ukraynaya daxil olmasına bir neçə həftə qalmış müzakirə etmək barədə razılığa gəlmişdilər. Ancaq bu dəfə Moskva Qərbin təklifinə etinasız yanaşmışdı.

Artıq 2019-cu ildə Birləşmiş Ştatlar öz donanması, dəniz piyadaları və ordusu üçün onların variasiyalarını hazırlayaraq, orta və daha qısa mənzilli yerüstü sistemlər istehsal etməyə başlamışdı. Ötən il ərzində bu sistemlərin təlimlər çərçivəsində Filippin və Danimarkada yerləşdirildiyi bildirilir. Hərbi mütəxəssislərin sözlərinə görə, Amerikanın yerüstü orta və qısa mənzilli sistemlərinin Avropada daimi yerləşdirilməsi Rusiyanın moratoriumunun sonu demək olacaq. Belə iddia edilir ki, indiyə qədər ABŞ-da belə komplekslər az idi, lakin 2026-cı ilə qədər onlar istesahlı artıra və dünyanın müxtəlif bölgələrində onların kütləvi şəkildə yerləşdirilməsinə başlaya bilər. Mütəxəssislərin fikrincə, Birləşmiş Ştatlar və onun müttəfiqləri “soyuq müharibə”nin “ikili NATO həllini” təkrarlamağa ümid edirlər.

Moskva Almaniyada ABŞ raketlərinin yerləşdirilməsinə adekvat reaksiya göstərəcəyini bildirib. Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov vurğulayıb ki, ABŞ-nin Almaniya ərazisində uzaqmənzilli raketlər yerləşdirmək qərarı eskalasiyanın həlqələrindən biridir. O qeyd edib ki, Rusiya bu addıma “sakit şəkildə” cavab verəcək, lakin bu, hərbi cavab olacaq: “Bu hərəkətlər ilk növbədə ölkəmizin təhlükəsizliyinə xələl gətirmək məqsədi daşıyır. Reaksiyamızın xarakteri sakit, peşəkar şəkildə müəyyən ediləcək. Şübhəsiz ki, ordu bu mesajı artıq nəzərə alıb. Söhbət hansı konkret sistemlərdən getdiyini, əlbəttə ki, təhlil edəcəyik”.

Amerika raketlərinin yerləşdirilməsi qərarının “soyuq müharibə” təcrübəsini təkrarlaya biləcəyi sualına cavab verən Sergey Ryabkov deyib ki, bu vəziyyətdə razılaşmanın iki tərəfi olaraq NATO, ABŞ və Almaniyanın nəyə inandıqlarını mühakimə etmək çətindir: “Düşünürəm ki, bu təcrübəni təkrarlamağın mümkün olduğuna inanmırlar – vəziyyət kökündən dəyişib”. Eyni zamanda, Rusiya XİN rəhbərinin müavini qeyd edib ki, ABŞ-ın uzaqmənzilli raketləri yerləşdirmək planları hədə-qorxu elementlərindən biridir.

***S.ELAY***
***XQ***

# İran XİN-in rəhbəri kim olacaq?

**İranın “Tasnim” nəşri öz mənbələrinə istinadən İranın xarici işlər naziri vəzifəsinə ən çox ehtimal olunan namizədin adını açıqlayıb. Yeni seçilən Prezident Məsud Pezeşkianın siyasi məsləhətçiləri hesab edirlər ki, Abbas Araqçi Xarici İşlər Nazirliyinə rəhbərlik etməyə ən münasib namizəddir. Bildirilib ki, A.Araqçi artıq Pezeşkianın xarici siyasət məsələləri üzrə müşaviri funksiyasını yerinə yetirir.**

Yazılmamış qanunlara görə, İran prezidenti ölkənin Ali dini lideri Ayətullah Əli Xamenei ilə, ən azı, 4 nazirliyin rəhbərliyinə namizədləri müzakirə edir. Bura kəşfiyyat, müdafiə, daxili işlər və xarici işlər nazirlikləri daxildir. Ali dini liderin təsdiqindən sonra namizədlər yekun siyahıya daxil edilir və onun əsasında Nazirlər Kabineti formalaşdırılır. İran konstitusiyasına görə, Nazirlər Kabinetinə prezident rəhbərlik edir.

Bəs Abbas Araqçi kimdir? O, 1962-ci il dekabrın 5-də Tehranda anadan olub, diplomatiya təhsili alıb. 1989-cu ildə Xarici İşlər Nazirliyində işə başlayıb, burada peşəkarlığı və fədakarlığı ilə diqqəti cəlb edib. 2013-cü ildən Araqçi xarici işlər nazirinin müavini vəzifəsində çalışıb və altı beynəlxalq vasitəçinin (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və Almaniya) nüvə proqramı üzrə danışıqlarında İran nümayəndə heyətinə başçılıq edib. Araqçinin İranın maraqlarını müdafiə etmək bacarığı və məsələyə diplomatik yanaşması həmkarları tərəfindən də yüksək qiymətləndirilir.



Onun İran xarici işlər naziri vəzifəsinə namizədliyini islahatçılarla mühafizəkarlar arasında güzəşt kimi qiymətləndirmək olar. Hazırda İranın xarici siyasətində ölkənin daxili maraqlarını qoruyub saxlamaqla beynəlxalq ictimaiyyətlə səmərəli ünsiyyət qura bilən təcrübəli rəhbər lazımdır. Araqçi çoxillik təcrübəsi və beynəlxalq diplomatiya sahəsində dərin anlayışı ilə bu tələblərə cavab verir.

Gözlənilir ki, Araqçi İranın beynəlxalq aləmdə etimadını bərpa etməyə çalışacaq və diplomatik münasibətləri inkişaf etdirəcək. Əsas problemlər ABŞ-ın 2018-ci ildə Nüvə sazişdən çıxmasından sonra, JCPOA-nın bərpasıdır. Hazırda bu, ən aktual mövzulardan biridir. Onu imzalayan tərəflərin öz üzərinə götürdükləri öhdəliklər var və onlar icra edilməlidir.

Avropa İttifaqı, Rusiya və Çin ilə iqtisadi əlaqələrin inkişafı ilə bağlı məsələlər də öz həllini tapmaldır. Digər mühüm aspekt Suriya, İraq və Yəməndəki regional münaqişələrin həlli ilə bağlıdır. Araqçinin danışıqlarda təcrübəsi və diplomatik bacarığı Tehranın bu çətin regionda mövqeyini sabitləşdirməyə kömək edə bilər.

Çox güman ki, Araqçının təyinatı onu həddən artıq çevik və güzəştlərə meyilli diplomatik məmur kimi qəbul edən İran daxilindəki mühafizəkarın müqaviməti olmadan keçməyəcək. Bununla belə, onun siyasi cərəyanlar arasında manevr etmək bacarığı və açıq dialoqa hazır olması bu maneələrin aradan qaldırılmasında müəyyənedici amil ola bilər

***PÜNHAN***
***XQ***

İDMAN

# Azərbaycan Hacı Əliyevdən də “Paris qızılı” gözləyir

**Paris Yay Olimpiya Oyunlarına sayılı günlər qaldığı bir vaxtda bu mötəbər yarışda medal ümidlərimizdən olan güləşçilərimiz də hazırlıqlarını uğurla davam etdirirlər. Onlardan biri, güləş millimizin kapitanı və lideri Hacı Əliyev (65 kq) artıq karyerasının 3-cü olimpiadasında iştirak emək üçün Fransanın paytaxtına gedəcək.**



Hacı Əliyev 1991-ci ildə Naxçıvan şəhərində güləşçi ailəsində anadan olub. Atası Azər Əliyev Naxçıvanda sərbəst güləş üzrə məşqçi kimi çalışırdı.

**Onun şəxsi məşqçisi, Əməkdar məşqçi Qırxlar Bədəlov 9 yaşlı Hacının ilk məşqlərini belə xatırlayır:**

– Hacının atası ilə tələbə yoldaşı, həm də dost olmuşuq. O, oğlunun da güləşçi olmasını arzulayırdı. Buna görə də Hacı qardaşı Yaşarla 2000-ci ildə Abşeron rayon İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbində qrupuma yazıldılar. Hacı buna qədər gimnastika, üzgüçülüklə də bir müddət məşğul olmuşdu. Onu yaxından tanıyanlar bilir ki, bir qolu uşaqlıqda qaynar suyun üstünə yıxıldığı üçün yanıb. Buna görə də qolu tam açılmırdı. Amma məşqlərdə əzmkarlıq göstərərək, ona verilən tapşırıqların tam öhdəsindən gəlməyə çalışırdı və buna nail olurdu.

İdmançının zədəsi olanda, adətən federasiya kömək edir. O zaman onun hələ bir ciddi nailiyyəti yox idi, müalicəsini özümüz edirdik. İdmançıların dostu, sabiq vitse-spiker, hazırda Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyevin köməyi ilə əməliyyat olundu və tam gücü ilə məşqlərinə davam etdi.

Hacı Əliyevə böyük nailiyyətlər qazandıran onun istedadı ilə yanaşı, həm də həddindən artıq zəhmətkeş olmasıdır. Məşqlərdə 5 hərəkət tapşırığı alırdısa, onu 6-7 dəfə icra edirdi. Qardaşı Yaşar da gənclərin dünya və Avropa çempionatlarının mükafatçısıdır. O, hazırda məşqçi kimi çalışır.

Məşqçisi qeyd etdi ki, Hacıda güləşçilərə məxsus soyuqqanlılıq var ki, bu da qələbədə əsas şərtlərdən biridir. Düzdür, bəzən emosiyalar güc gəlir. Məsələn 2019-cu ildə Qazaxıstanda keçirilən dünya çempionatına lisenziya xarakterli turnirdə hakim ədalətsizliyinə qarşı çılğın reaksiya verdi. Onu az qala turnirdən qovacaqdılar. Amma əksər hallarda uduzduqda belə sakitliyini saxlaya bilir. Prinsipiallıq göstərərək növbəti qarşılaşmalar üçün rəqibini ciddi öyrənir.

Q.Bədəlov Hacının Tokio Olimpiadasında final görüşündən də danışdı. Qeyd etdi ki, yetirməsi Tokio Olimpiadasında finala qədər bütün qarşılaşmalarında böyük əzmkarlıq göstərdi. Həlledici qarşılaşmada yerli idmançı ilə mübarizədə Hacının bir az taktiki gediş səhvi oldu. Burada, hakim ədalətsizliyi az da olsa rol oynadı. Hesab idmançımızın xeyrinə olanda rəqibinə dincəlmək imkanı yaratdılar ki, o da dincəldikdən sonra Hacıya fənd tətbiq etdi.



**Paris Olimpiadasında rəqiblərindən söhbət açan məşqçi Hacı Əliyevin qalib olmaq şansının yetərincə olduğunu dedi:**

– İdmanda qalib də gəlmək, uduzmaq da olar. Paris Oyunlarında 65 kiloqram çəki dərəcəsində güclü idmançılar var. Ciddi rəqiblər arasında macarıstanlı dünya çempionu, ABŞ, rusiyalı, monqolustanlı güləşçiləri qeyd edə bilərəm. Amma Hacı güclü potensiala malik təcrübəli güləşçidir. Düşünürəm ki, onun qalib olmaq şansı çoxdur.

**Tokio Olimpiadasından ötən illər ərzində 2 dəfə Avropa çempionatının qalibi olan 34 yaşlı güləşçinin Paris Olimpiadasına hazırlığı ilə bağlı fikirləri onun qələbəyə kökləndiyini göstərir:**

– Hədəfim Olimpiya çempionluğudur. Əslində, Olimpiya Oyunlarının hər bir mükafatı bizim üçün önəmlidir. “Paris-2024-ə hazırlıqla bağlı gərgin məşqlərimiz davam edir. Yorulsaq da, özümüzü yaxşı hiss edirik. İnanıram ki, güləşçilərimiz növbəti Oyunlarda da yüksək nəticələr qazanacaqlar.

Hacı Əliyev əvvəlki müsahibələrində demişdi ki, “Tokio-2020” Yay Olimpiya Oyunlarından sonra karyerasını bitirməyi düşünür. Lakin güləşçi bəzi məsləhətlərdən sonra Paris Oyunlarında da iştirak emək qərarına gəldiyini bildirdi. Bundan əvvəlki olimpiadalarda – “Rio de Janeyro-2016”da bürünc, Tokio Oyunlarında gümüş qazanan istedadlı pəhləvandan Azərbaycan bu dəfə “Paris qızılı” gözləyir.

***Leyla QURBANOVA***
***XQ***

## “Gəncə Şərab-1” ASC səhmdarlarının nəzərinə!

30 avqust 2024-cü il saat 14.00 da “Gəncə Şərab -1” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

**1.** 2023-cü ilin yekunları üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə təftiş komissiyasının hesabatı.
**2.** Cəmiyyətin illik balansının (hesabatının) müzakirəsi və təsdiqi (baş direktorun hesabatı).
**3.** Direktorlar şurası və onun sədrinin seçilməsi.
**4.** Təftiş komissiyasının və onun sədrinin seçilməsi.
**5.** Digər məsələlər.

Ünvan – Gəncə şəhəri, Z.Hacıyev küçəsi 56.

***Direktorlar şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 144 (30548) 12 iyul 2024-cü il, cümə







# “Qorxu”dan finala yüksəliş

**Futbol mütəxəssisləri hesab edirlər ki, Avro-2024-ün yarımfinalçıları çox oxşar oldular - parlaq hücum komandası İspaniya və Hollandiya millilləri ilə praqmatik və qapalı Fransa və İngiltərə yığmaları. Bir çoxları kimi, biz də bu qarşıdurmaların əhatə dairəsini genişləndirməkdən, onlara müxtəlif şərhlər verməkdən çəkinmədik - futbola qarşı antifutbol, usandırıcı və cansıxıcı oyun tərzi, hətta xeyirlə şər...**

Birinci cütlükdə qatı futbol azarkeşlərinin favoritləri qalib gəldi - İspaniya və onun gənclik ifadəsinin simvoluna çevrilən Lamin Yamal statuslu, Mbappe və Qrizmannın akademik Fransa millisini sındırdı. Ertəsi gün növbəti, ikinci tamaşa başladı. Əgər ispanlar və fransızlar az fərqlə bərabər rəqib sayılırdılarsa, Hollandiya ilə İngiltərə arasındakı qarşılaşmada favorit daha aydın şəkildə müəyyənləşdi. Qaret Sautgeytin komandası öz sönük, boz oyunu ilə azarkeşlərdə özlərinə nifrət yaratmasına səbəb olsa da, müdafiədə problemləri olan çılğın narıncı dəstə ilə müqayisədə daha stabil və yüksək səviyyəli komanda kimi görünürdülər.

Ronald Kuman eyni 4-2-3-1 düzülüşü ilə nəhəng rəqibin sisteminə uyğunlaşmamaq qərarına gəldi. Türkiyə ilə qarşılaşmadan fərqli olaraq, baş məşqçinin yeganə dəyişikliyi turnir boyu hücumun sağ cinahında uğursuz çıxış edən Steven Berqvayı Daniel Malenlə əzəvəzləməsi oldu. Sautgeyt turnirdə irəlilədikcə üç mərkəz müdafiəçisi düzülüşünə keçdi. İngilislər İsveçrə ilə 1/4 finalda belə oynayırdılar, hollandlarla da eyni düzülüşdə oynadılar – 3-4-2-1.

İlk dəqiqələrdə elə görünürdü ki, britaniyalılar top qovmaqla köhnə cansıxıcı oyunlarını işə salıblar. Ancaq onların yenidən köhnə "unudulmaz şou"nu təkrarlamaq planları olsa belə, Xavi Simons yerlə-yeksan etdi. Gənc yarımmüdafiəçi dünyanın ən yaxşı yarımmüdafiəçilərindən biri olan Deklan Raysdan topu “oğurlayaraq”, onu heç düşünmədən cərimə meydançasının kənarından Pikfordun qapısının uzaq doqquzluğuna qovuşdurdu. Biz, Avropa çempionatında uzaqdan vurulan qolların ən təsirli silah olduğunun daha bir sübutuna şahid olduq. Həqiqətən, möhtəşəm idi və ingilisləri əsl mənada şoka saldı. Onlar qapılarında belə qolu əsla gözləmirdilər.

Qəfil belə bir sillədən sonra İngiltərə sanki ayıldı və aramsız təzyiqlər başladı. Hollandiyalılar sözün həqiqi mənasında meydanın özlərinə aid yarısında qapanıb qaldılar. Yalnız bu andan başlayaraq “şirlər” topu mərkəz müdafiəçiləri arasında yuvarlamadı, vəziyyəti gərginləşdirmək üçün kəskin hücumlar yaratmağa başladılar. Keyn cərimə meydançasının qarşısından Simonsa cavab olsun deyə, topu tora qovuşdurmağa çalışsa da, Verbruggen onun zərbəsini dəf etdi. Sonra mübahisəli epizod baş verdi - Saka driblinqlə rəqibin cərimə meydançasına şığıdı, lakin hollandlar onun vurduğu zərbəni sərt qarşıladılar. Top Keynə sıçradı və o bir andaca yaylım atəşi sürətilə onu hədəfə vurdu, amma çərçivəyə düşə bilməyib, ağır zədə almış adam kimi meydançaya sərildi.

Denzel Dumfries cərimə meydançası daxilindən ingilisin yaylım atəşli zərbəsini dəf etməyə çalışanda, ayağı rəqibinin zərbə endirmiş ayağına dəymişdi. Əslində, futbolçular arasında təmas Harrinin qapıya zərbəsindən sonra baş vermişdi. Top daha yüksəyə uçdu, sanki hollandiyalı müdafiəçi hücumçunun hərəkətinə heç bir təsir göstərmədi.

Hakim Feliks Svayer əvvəlcə epizoda heç bir reaksiya vermədi, yalnız Keynin mümkün zədələnməsi səbəbindən oyunu dayandırdı. Lakin bir müddət sonra baş hakim epizodun təkrarına baxmağa çağırıldı. Nəticədə Svayer penalti təyin etdi və Keyn özü bunu inamla qola çevirdi. Beləliklə, Harri Avropa çempionatının pley-off mərhələsinin tarixində ən çox qol vuran futbolçu oldu. Bu onun, Avro-2024-də 3-cü, Avropa çempionatlarında altıncı qolu idi.

İngilislərin qolu ciddi müzakirələrə səbəb oldu - çoxları epizodun 11 metrlik penaltiyə bərabər olmadığını düşünürdülər, çünki təmas Keynin zərbəsindən sonra baş vermişdi.



Amma bu heç nəyi dəyişmirdi, hesab tabloda yazıldığı kimi 1:1 oldu.

Təəccüblü də görünsə, Sautgeytin komandası bundan sonra pressinqini davam etdirdi. Tezliklə Foden qol vura bilərdi, o, ağıllı ötürmədən sonra cərimə meydançasına driblinq edərək qapıçının yanından topu çərçivəyə yuvarladı. Lakin ingilislərin ilk qolunun səbəbkarı Dumfris köməyə gəldi və topu düz qapı xəttində dayandırdı. Bundan bir qədər sonra Fil daha iki dəfə qola yaxın oldu, bu dəfə cərimə meydançasının kənarından. Birinci dəfə hollandları qapı tiri, ikinci dəfə isə Verbruggen xilas etdi. Bu 45 dəqiqə, sözün əsl mənasında indiki Avropa çempionatında ingilislərin oynadığı ən canlı hissə idi.

Keynin qolundan sonra Hollandiya açıq-aydın əsəbləşdi və hədəfinə çox yaxınlaşdı. Zədəli Depayın əvəzlənməsi yəqin ki, öz təsirini göstərdi - Memfisi Vermerenlə əvəzləməli və oyunçuların ilkin mövqelərini dəyişmələri struktura müsbət təsir göstərməyə bilməzdi. Amma nadir hallarda narıncı futbolçuların ayağına top düşəndə, sanki onlar nə edəcəklərini bilmirdilər. Fasiləyə qədər yeganə şans künc zərbəsindən yaradıldı – həmin Dumfris rəqiblərini hava ötürməsində qabaqlasa da, zərbəsi qapı çatına dəydi.

Kuman nə qədər gec deyil, oyunda dəyişiklik etmək üçün tədbir görmək vaxtının gəldiyini başa düşdü və ikinci hissədə öz jokerini oyuna buraxdı - Malenin yerinə meydana iki metrlik hücumçu Vaut Verqhorst çıxdı. Sautgeyt rəqibin bu gedişinə cavab olaraq Trippieri sol cinah müdafiəçisi Şou ilə əvəz etdi. Amma bu dəyişikliklər oyunun kəskinləşməsinə təsir etmədi. Tam əksinə - ikinci hissədə əsəblərin gərginləşməsi dayandı və hər iki komanda hesaba oynamağa başladı. İngilislər topa daha çox sahib idilər və vəziyyəti gərginləşdirməyə tələsmirdilər, hollandlar isə əks-hücumlarda boşluqlar axtarmağa çalışırdılar, amma nə etdilərsə Verqhorstu oyuna qoşmaq mümkün olmadı. Onlar yalnız bir super şans yaratdılar - Verman cərimə zərbəsindən Van Deykə əla ötürmə etdi, amma Pikford qola imkan vermədi.

81-ci dəqiqədə Saka topu tora göndərdi. Amma hakimlər briqadası yenidən işə qarışdı və bu dəfə ona ötürmə edən Uokerin ofsaydda olduğunu bildirib, Kumanın komandasının xeyrinə qərar verdilər.

Sonda Sautgeyti tənqidlərdən xilas edəcək iki əvəzləməsi işə yaradı - Koul Palmer cərimə meydançasında Keyni əvəzləyən Olli Uotkinsi tapdı. “Aston Villa”nın forvardı isə uzaq küncə dəqiq zərbə endirdi. Yenə də ingilislər əlavə vaxtda nəticə əldə edirlər. Bu, bəzən darıxdırıcı, lakin inanılmaz dərəcədə usta komandanın əlaməti deyilmi?

İngilislərin bu qolundan sonra Hollandiyanın nəyisə düzəltməyə sadəcə vaxtı qalmadı. İngiltərə çox çətinlik çəkmədən müqavimət göstərdi və öz üslubu ilə məsələni məntiqi sonluqla başa çatdırdı. Ardıcıl ikinci Avropa çempionatının finalı təmin olundu, amma bu turda ona vəsiqəni antifutbol qazandırmadı. Adada isə artıq kubok gözləyirlər, lakin İspaniyanın yəqin ki, bunun üçün başqa planları var.



Bu oyunda çoxdan yaran bir suala cavab tapıldı. Futbolun vətəni İngiltərəni necə möhtəşəm və parlaq oyun nümayiş etdirməyə məcbur etmək olar? Avropa çempionatının bitməsinə dörd gün qalmış nəhayət, bəlli oldu ki, elə ilk hücumda Pikfordun qapısına erkən sürətli qol vuruldu. Hollandiya milli komandası və şəxsən Xavi Simons hər kəsi Qaret Sautqeytin sakit futbolundan qurtarmaq üçün ən yaxşı yolu işə saldılar. Amma bu onlara çox baha başa gəldi...

Bəs bu oyun futbol ictimaiyyətinə nə verdi? Birincisi, dərhal aydın oldu ki, gələcək cəngavərliyə namizədin komandası autsayderlərlə görüşlərdə nəinki minimal üstünlüyü qoruyub saxlamağı və sonda özünü xilas etməyi, həm də cəngavərliyə necə nail olmağı bilir. İkinci hissənin sonunda təzyiq, rəqibin cərimə meydançasını bombardman etmək və daim generasiya etmək. Bu, həqiqətən təhlükəli idi. Bəli, “şirlər” penaltidən hesabı bərabərləşdirdilər, lakin həlledici matçda belə bir transformasiya artıq böyük qələbədir.

Qaret Sautgeyt futbolçularının bu turnirin əvvəlində Almaniyada futbol oynamaqdan çox qorxduğunu söyləyirdi. Buna baxmayaraq, İngiltərə komandası son dərəcə təmkinlə və möhtəşəm bir şəkildə qorxudan finala qədər gəldi. Bazar günü onlar yelkənlərində külək və ürəklərində cəsarətlə Berlində İspaniya ilə qarşılaşacaqlar.

İngiltərənin “The Telegraph” nəşri komandaların son oyundakı qələbəsindən, sanki, vəcdə gələrək yazır: 'Bu çıxışdan görünür ki, futbol evə qayıdır”. Əlbəttə, futbol azarkeşi kimi onların Hollandiya ilə oyunundan sonra bizdə də belə bir təəssürat yarandı ki, deyəsən, futbol öz vətəninə dönür. Əgər finalda İspaniya bu qənaətlərimizi alt-üst etməsə, bunu daha qətiyyətlə söyləmək olar. Amma...

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

# Titanların döyüşü nə vəd edir?

**Cəmi bir neçə gün əvvəl qapalı, ləng oyun, minimum zərbələr və son dərəcə ehtiyatlı taktika ilə Fransa–İngiltərə finalının baş verə biləcəyindən qəzəblə danışırdıq. Ancaq antifutbol məğlub oldu: İspaniya ölüm qrupunda üstünlük təşkil etdi, Almaniyanı turnirdən kənarlaşdırdı və Fransanı məğlub edən yeganə komanda oldu. “Furiya Roho” həm də sübut etdi ki, böyük yarışlarda keyfiyyəti itirmədən nəticə əldə etmək olar. Avro-2024-də ən parlaq komandaların finalında iştirak etməsi adrenalin gətirən gərgin futbol tamaşası, əyləncə, sürət və taktiki təxribata təminatdır.**

Bu, Fransaya qarşı mükəmməl işlədi: Didye Deşamın komandası Avroda oyunun ilk qolunu tez vurdu, dərhal iki qol buraxdı və qalan vaxtda hücuma keçmək məcburiyyətində qaldı. Bu yenilənmiş İngiltərəyə qarşı işləyəcəkmi?

Hətta çərşənbə axşamı belə tam bir hiss var idi ki, istənilən halda de la Fuentenin dəstəsi finalın aşkar favoritidir. Amma indi tamamilə fərqli bir İngiltərə gördük. Hollandiyanı öz yarısından sıxışdırıb topsuz qaçmağa məcbur edir, nəhayət, öz heyətinin potensialını, maksimum olmasa da, ortaya qoyur və oyunda son nöqtəni qoyur.

Niyə əvvəllər belə ola bilmədilər, bu, Sautgeytin əsas sirridir. Avro –2024-ü qazansalar, onda bunu heç kim xatırlamayacaq. Ən çox tənqid olunan Avropa komandasının tarixi qələbəsinə bir addım qalıb. Eləcə də yaxın tarixin ən parlaq İspaniyası, heyətində 16 yaşlı Yamal, ağıllı Olmo, reaktiv Niko Uilyams, eləcə də təcrübəli Karvaxal və 38 yaşında gənc və sürətli Mbappeni neytrallaşdırmağı bacaran Xesus Navasla.

Bizi, həqiqətən Avro-2024-ün tarixinə düşəcək çox möhtəşəm final gözləyir. Bu haqda maraqlı şərhlərlə çıxış edən “Marca” yazır: “Bu, ən yaxşı oynayan komandalardan uzaq bir komandadır. İngiltərə 90 dəqiqə ərzində keçirdiyi 6 matçdan yalnız birində qalib gəlib. Son oyunda da Uotkinsin qolu 91-ci dəqiqədə vuruldu və hamıdan daha çox layiq olduğu tənqidə məruz qaldı... Amma İngiltərə ardıcıl ikinci ildir ki, Avropa çempionatının finalındadır. Bir gün Bellinqhemin aşırma zərbəsi, bir gün penalti, üçüncü gün isə növbəti geri dönüş... Sautqeyt demək olar ki, həmişə çətin anlar yaşayır. Amma onların ulduzları var. Budur, İspaniyanı nə gözlədiyi barədə ona əvvəlcədən xəbərdarlıq edilir”.




Belə pafoslu bəyanat verərkən yaxın tarixə də bir nəzər salmaq lazımdır. Axı, Avronun son finalında İngiltərə penaltilər seriyasında İtaliyaya məğlub olmuşdu. Amma İspaniya ilə İngiltərə arasındakı tarixi balans ingilislərin xeyrinədir. Komandalar 27 dəfə qarşılaşıblar. İspaniya 10 dəfə qələbə qazanıb, İngiltərənin 13 qələbəsi var. Qalan görüşlər heç-heçə ilə başa çatıb. Həmin 27 matçdan 19-u yoldaşlıq görüşü, ikisi Dünya Kuboku, dördü Avro, ikisi isə Millətlər Liqasında olub.

İspaniya 4 dəfə Avropa çempionatını qazanan ilk komanda olmaq istəyir. İngiltərə isə ilk titulunu gözləyir. Hökm bazar günü Berlində çıxarılacaq.

## Hava

# Aranda yağmursuz, dağlarda yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.**

Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu , nisbi rütubət gecə 60-65 , gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 34-39°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***



✓ *Azərbaycan Respublikasının ictimai “Səhhət” fondunun nizamnaməsi naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.*

✓ *Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən İsmayılzadə Emil Eldar oğluna 21 fevral 2023-cü il tarixdə verilmiş 0000357 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Elxan Rüstəmov yaxın dostu

**FAZİL ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun qızı, hüquqşünas Günel Musayevaya dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2997
SİFARİŞ 1517
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00